**KAMALƏ ABİYEVA**

# 41

# İKİNCİ QARABAĞ SAVAŞI ASTARA ŞƏHİDLƏRİ

**Bakı - 2021**

Yazar: **Kamalə Abiyeva**

Redaktor: **Aysel Aydın Əlizadə**

Dizayner: İmambaxış Əliyev

Yazıların yayımlanmasında dəstəyə görə
“İQTİSADİYYAT”, “525-ci qəzet” və “ƏDALƏT”
qəzetlərinin kollektivinə təşəkkür edirəm.

**41** İkinci Qarabağ savaşı Astara şəhidlərinin xatirəsinə
Bakı, “N print studiya”MMC, 2021, 128 səh.

**İSBN : 9 7 8 – 9 9 5 2 – 8 4 1 5 – 7 – 2**

**© Kamalə Abiyeva**

# BU NECƏ PAYIZDI

İllərdi beləsini yaşamadıq. Yaz havalı payızımız olmadı. Payız nədir ki...heç yazımız yaz deyildi, ağrıdan başqa havası olmadı bu torpağın. Çiçəklərin kədərdən başqa rəngi olmadı. Yüz illərdi... yayı, yazı, qışı, payızı bir-birinə qarışıb bu yurdun. Yüz illərdi yağış yağır bura. Ürəyimizə qar yağır, duyğularımız donur.

Sosial şəbəkədə görüntüləri paylaşılan Məbudu xatırlayıram. Yaralıdı. Həkim sarğılarını dəyişir. O isə oxuyur: Anadır arzulara həər zaaman Qarabaaağ..

İllərdi "Bir az bənövşə kimi kol dibində qalmışam. Bir az İrəvan kimi boynubükük olmuşam". "İtən bir iz kimiyəm, axtarıb tapmaq olmur. Bir az Təbriz kimiyəm, gedirsən, çatmaq olmur".

Bir də Xocalı kimi yanmaq var...

Konservatoriyanın məzunu yaralı Məbudsa oxuyur: "Danışan dil-dodağım tar - kaman Qarabağ...

Dünyanın ən gözəl yaralısı...

Vətən yaralarını sarıyan Məbudun yaralarını sarıyan həkim "oğulsan, halaldı, öpdüm səni" deyib onu əzizləyir.

Nə vaxtdı ürəyi kimi yolları da çat- çat olan torpaq üçün oxuyur. Səsində qürur yaşadan inam var.

İllər ümidsizlikdən asılmışdı sadəcə. İnam yox idi. Niyə? Bu niyənin cavabı uğruna nə qədər şəhid verib bu torpaq. Şəhidlərim bu torpağa canından can verib - vətəni yaşadıb. Yaralarına qanını məlhəm edə-edə yaşadıb.

İllərdi ruhları narahat Şəhidlərim sevindilər. Rahatlıq tapdılar. Qürur dolu ağrılı göz yaşları ilə yola saldığımız şəhidlərimizə sarıldılar. Elə bilirəm hamısı gülümsəyir. Yenidən doğulur. Siz Vətən qarşısında borcunuzdan çıxdınız. Biz isə nəsil – nəsil sizə borclu qalacayıq.

İgidlərim! Müzəffərlərim! Bu torpağa bütövlük yaşadanlarım. Tariximə zəfər yazanlarım.

Nə desək azdı, nə etsək az. Sözə, gözə, ürəyə sığmayanlarım. Vətəni azad etmək üçün canını qurban edənlərim. Vətən görsün deyə gözlərini

verənlərim. Bu gecə də sizi düşünürdüm hər kəs kimi. Vətənin ayaqlarını sağaltmaq üçün ayaqlarını verən polad kimi Poladları, qollarına qolunu fəda edən Sahilləri, ürəyinin qəlpələrini ürəyinə yığan Elçinləri, əsir Bayramları, Aminləri, itkinləri... Bunu yaşamaq ağırdır. Çox ağırdır. Ürək istər, baş istər. Bütün bunları yaşamaq mümkünsüz... Bu ağrının içində bir həqiqətə sığınırsan: ”Qarabağ Azərbaycandır”.

Qəfil yağan yağışın səsi gəldi. Yağış da oxuyurdu elə bil Məbud kimi: “Qarabağ can Qarabağ, Qarabağ...Qarabağ...”

Bu səslər qarışığında bu gün hamımızın özlədiyi səsi eşidirdim: “Qarabağ Azərbaycandır və Nida!”

İllərlə həsrət qaldığımız qələbə yazan Ali Baş Komandan.

Cənab prezident İlham Əliyev! O qalxan yumruğunuz bizə yumruq olmağın böyüklüyünü yaşatdı və yaşadır. Çox paralanıb, çox yaralanıb bu torpaq. Tarixin illər səhifələrində elə acılar var ki!.. Amma bu gün hər dəfə “Yaşasın Azərbaycan Ordusu” dediyiniz igidlərlə yazdığınız səhifələr olmayıb.

Bizə möcüzə yaşatdınız. Qürur yaşatdınız.



İrəvan dərdli ürəyimizdə Təbriz, Sulduz, Ərdəbil yanğılı “Biz verdik Şuşanı, Ağdamı... Biz verdik Qarabağı” günahı vardı.

Həmişə məğlub kimi görünmək acısı, utancı ilə yaşamaq yaşamaq deyil ki...

Nə qədər torpaq itirmişik.. Ali Baş Komandan! Möcüzə yaratdınız. Tariximizdə olmayan möcüzə. Ölən inama can verdiniz. Qalibiyyət səhifələri yazdınız.

Heç belə payız yaşamadıq.  Yaz havalı, Qələbə ətirli payız.

Hər qarışla, hər kəndlə yenidən doğulur şəhidlərimiz.

Hər şəhidlə bütövləşir Azərbaycan.

Nə deyim? İnanmırdım. Bu günləri görəcəyimə inanmırdım. O qara siyahı qara günümə dönmüşdü. Daha şagird gündəliklərində o qara tarixlər olmayacaq.

Zəfər, necə möhtəşəmsən!

Bayram günlərimiz var indi – həsrət qaldığımız qələbə günləri!

Dünyanın ən gözəl şəhidinin nurlu simasından Vətənə nur səpilir. İllər boyu hər daşda, hər qarışda, güldə, hər ürəkdə səslənəcək Xudayarın “Şair, sorma nədən Vətən yaxşıdı” səsinə qarışırdı dünyanın ən gözəl yaralısının səsi: Ana yurdum, ana yurdum, ana yurdum...

Ana yurdum - Azərbaycan! İlahi, necə gözəldi belə demək. Necə gözəldi!

Xoşbəxtliyin necə olduğunu bildim. Xoşbəxtliyi gördüm. Demə belə olurmuş.

İlahi, nə gözəldi Vətəni bütöv olmaq, ona can vermək, Onu bütöv sevmək. Bayraq olub Xankəndində dalğalanmaq istəyirəm. Hayqırmaq, pıçıldamaq istəyirəm:

Sən uğruna öləcəyim, sən uğruna yaşadığım varlığımsan,
Ana Vətən!
Səni bütöv sevirəm mən.
İlk sevgilim deyilsən sən, SON SEVGİMSƏN!



# NAİL

Rafail oğlu Orucov

**11.06.1978 – 31.10.2020**

## HƏMİŞƏ GÖZLƏRİNDƏ GÜNAHKARLIQ VARDI

“Vətən daşı” olmur hamı. Ola bilmir. Ya olmaq istəmir? Bilmirəm.

Amma bilirəm ki, o, uşaqlıqdan Vətən daşı olmağı arzulayır.

“Hərbi xidmətdə olarkən gördüyüm ən dürüst, əsgərə öz balası kimi dəyər verən, fərq qoymayan, hər birinin haqqını qoruyan, hansısa ac qalsa dünyanı dağıdan, əsgəri şəhid olanda balası kimi qan ağlayan komandirim, cənab polkovnik – leytenantım. Ən uca –Şəhidlik zirvəsindəsən” - əsgər Bayramov.

“Rahat yat, qanın yerdə qalmayıb. Gözəl insan, qayğıkeş komandir. Haqqın ödənməz” - əsgər Fərid Yaqubov.

“Polkovnik – leytenant komandirim deyildi təkcə, qardaşım idi, əvəzsiz idi. Ömrüm boyu bu şəxsiyyətə borcluyam” – Abdulla İmanlı.

“Səninlə qürur duyuruq, fəxrimizsən, cənab polkovnik. İgidlik, insanlıq timsalısan” – Anar Muradov.

Onlarla belə fikir dinlədim: Əsgərin dostu, qardaşı, atası. Ən dürüst zabit, peşəkar zabit, qəhrəmanlıq simvolu, vətənsevdalı, əsil insan...

1978-ci il iyunun 11 – də Astaranın Məçitməhəllə kəndində

Orucovlar ailəsində dünyaya gələn, ailənin altıncı övladı olan Nail Orucov əsgərlərin yaddaşında belə qalıb.

1985-ci ildə Birinci Qarabağ Savaşının şəhidi Əzizağa Əliyev adına Qapıçməhəllə kənd məktəbinə gedib.

1988-ci il hadisələri başlayanda 10 yaşı vardı. Amma Vətənin kədərini anlayırdı, azadlıq çarpışmasını duya-duya böyüyürdü. Qarabağ hadisələrinin şahidi kimi böyüyürdü. Vətənə gərək olmaq, uşaqlıq yaddaşının daşıdığı Qarabağ acısından qurtulmaq arzusu da böyüyürdü.

Hərbiçi olmağa qərar verir.

Rahatlıq tapmayan arzusu onu C. Naxçıvanski adına Hərbi liseyə apardı. Atası Rəfail kişi cılız bədənli oğlunun hərbiçi olmasına etiraz etmək istəsə də, onun vətən sevdalı böyük ürəyinə etiraz edə bilmədi.

Nail 1992-ci il C. Naxçıvanski adına Hərbi liseyə qəbul oldu.

Liseyi bitirib 1995-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə daxil olur, 1999-cu ildə motoatıcı tağım komandiri kimi leytenant hərbi rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmətə başlayır. Həmin ildən müxtəlif hərbi hissələrdə motoatıcı tağım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisi, tabor komandiri və hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində işləyir.

31.12.2016-ci ildə ehtiyata buraxılır. Dəfələrlə Fəxri Fərman, "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli (26.06.2015), "Azərbaycan Silahlı qüvvələrinin 90 illiyi" (26.06.2008), "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, (Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi), "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" (20.04.2016), "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilir.

Elə Vətənə qüsursuz xidmətdə fərqlənmək üçün yaşayır Nail Orucov.

"Gözəl insan, gözəl komandir, səriştəli hərbiçi, özümü şanslı

hesab edirəm ki, sizinlə bir yerdə xidmət etmişəm. Həkimlərə xüsusi diqqəti vardı. Hamı üçün narahat olurdu. Siz hər zaman yaşayacaqsınız bu millət üçün”. - Ümid Mahmudsoy, həkim.

“İgid, qorxmaz, döyüşkən kişilik simvolu idi. O elə insan, elə komandir idi ki, bir də elə birini görmərik” - baş leytenant Şahmarov.

İllərdi bizi əzən məğlubluğun ağırlığı qələbəni həsrətlə gözlədiyimiz günlərə çöküb. Bizi bu ağırlıqdan qurtarıb gedənlər oldu onun kimi.

Polkovnik – leytenant Nail Orucov kimi.

Tabor komandiri daim əsgərləri ilə çiyin-çiyinə idi.

Təkcə Vətən üçün deyil, hər əsgəri üçün canını fəda etməyə hazır komandir. . Əsgərini xilas etdi, özü Şəhid oldu...

“İşinin peşəkarı, şərəfli zabit idi. Çiyin-çiyinə xidmət etmişik. Çox vətənpərvər idi. Heyif”... - Emin Allahverdiyev.

Ehtiyatda olarkən 01.11.2018-ci ildən Astara Telekommunikasiya Qovşağında ƏM və TT üzrə mühəndis vəzifəsində çalışıb. TKQ-də işlədiyi müddətdə də özünü bacarıqlı işçi kimi göstərib, məsuliyyəti ilə seçilib və kollektivin rəğbətini qazanıb.

Yaxınları, dostları, doğmalarının sözlərindən anlayırsan ki, o ehtiyata buraxılanda da narahat olub. Hər mükafat alanda da “Heç olmasa bir kəndi, bir qarış torpağımızı işğaldan azad edə bilsəydim” deyib.

Qardaşı Naib bəy onun hərbi xidmətə başlayan gündən Vətən savaşını gözlədiyini deyir: Hər gün, hər an döyüşə hazır idi. Torpaqlarımız işğalda olduğu üçün həmişə gözlərində bir günahkarlıq vardı.

Həyat yoldaşı Nigar xanımla görüşdüm. Kövrəldi: Gördüyüm gündən o mənim qəhrəmanımdı. Ürəyimi fəth edib. Bu gün isə Nail Azərbaycan xalqının ürəyindədi. Çox çətindi. Əsil dost, yoldaş, ailə başçısını itirmək ağırdır. Amma bilirəm ki, mən ağlayıb-sızlamamalıyam. O, təkcə vətənə qüsursuz xidmət etməyib. O, qüsursuz övlad, dost, qardaş, ata olub. O, qüsursuz həyat yoldaşı idi. Həyatımın yoldaşı... Onun adına, cəsarətinə, igidliyinə layiq

böyütməliyəm oğlanlarını. Nailin arzularını yerinə yetirməliyəm.

Nail Orucovun 3 oğlu böyüyür: Ruslan, Əlihəsən və İbrahim. Astara şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alırlar. Oğlu Əlihəsənin sözlərinə görə son dəfə danışanda “Artıq böyümüsüz. Mən təkcə ata deyiləm, hərbiçiyəm, bir vətən övladı kimi torpağıma sahib çıxmalıyam. Siz də bayrağımızı, vətəni sevməlisiz”- deyib Nail Orucov. Bir də deyib: “Qapımızdan bayraq asın”.

“Atan mərd, şərəfli zabit olub. Savadlı, tələbkar idi. Postları birlikdə yoxlamağa gedərdik. Zarafatcıl idi. Bizə ruh verirdi. Torpaqlarımızı azad etmək idi amalı. Heyif ki, qələbə gününü görmədi. Qarabağ indi azaddır, rahat yata bilərsən” - Emin Abdullayev bunu oğlu Ruslana yazıb.

Savaşa gedəcəyini bilirdi. Axşam xanımını, oğlanlarını bir yerə yığıb söhbətləşdi. “Mütləq oxuyun. Ən güclü silahınız, dostunuz elminiz olmalıdır. Əgər qayıtmasam, diplomlarınızı məzarıma gətirin. Bir – birinizə dayaq olun. Vətəni sevin!” – Ruslan son söhbətlərindən danışır.

Əsgərlərinin yuxusuna gəlir polkovnik-leytenant Nail Orucov. Onlardan birinin səs yazısını dinlədim. Tələsik: “Yaxşıyam, ana. Komandirimə quran oxutdurun, elə komandir yoxdu, yuxuma gəlib, bizim üçün çox narahat olurdu. Yenə narahatdı”. Həmişə “ardımca” deyib, öndə olub. Döyüş yoldaşları “3 övladınız var, özünüzü qoruyun” deyirmiş tez-tez. Osa “Mənim burda 300 oğlum var, onları qorumalıyam” – deyərdi.

“Atanızla fəxr edin. Atanız qəhrəmanlıqla şərəfli döyüş yolu keçdi”. – Rauf Abdullayev

Qardaşı qızı Zəhra əmisinə yazdığı şeirdə deyir:

Ucaldın Şəhidlik zirvəsinədək,
Axır ki, arzuna çatdın Nailim.
Əbədi, əvəzsiz bir xatirə tək,
Ürəklərdə məskən saldın, Nailim.

Qubadlı uğrunda gedən döyüşlərdə Şəhid oldu. “Canavar” ləqəbli Surət deyir ki, “postu verməyin!” oldu son sözü. “Son gülləmizə kimi döyüşməliyik”- dedim. Onun son tapşırığına da əməl

etdilər.

Oğuz Arpaslanın döyüş xatirələrindən: "O, artıq Şəhid olmuşdu, əli alnında idi, qan üzünə axırdı. Lakin yenə də gülümsəyirdi. Sanki şəhidlik zirvəsinə yüksəlməyi çoxdan gözləyirmiş. Arzusu çin olmuşdu. Qubadlı zirvəsini Polkovnik Orucov Zirvəsi adlandırdıq, sadiq əsgərləri olaraq.

Bilirik ki, sənin ruhun O zirvədən Azərbaycana, Qarabağa baxaraq sonsuzadək gülümsəyəcək".

Bu savaş haqqında bir kitab yazılsa, ya özüm yazsam, onun baş qəhrəmanı məhz Nail Orucov olar. Belə bir insan, peşəkar zabit görməmişdim, görəcəyimə də inanmıram – bunları da dedi Oğuz bəy.

Şəhid polkovnik-leytenant "Azərbaycan Silahlı Qüvvələrinin Veteranı", "Azərbaycan Bayrağı" ordeni (15.12.2020), "Vətən" uğrunda"(15.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif olunub.

Nail Orucov haqqında döyüş yoldaşlarının, əsgərlərinin yazdığı fikirləri oxudum, səs yazılarını dinlədim. Onun haqqında dastan yazmaq olar. Onu sağlığında tanımadığın üçün təəssüf edirsən.

2020 ci ilin 31 oktyabrında əsgərini xilas edərək şəhid oldu cənab polkovnik leytenant.

- Gözümüzün qabağında əsgərini xilas etmək üçün özünü güllənin altına atdı. Onu xilas etdi. İlk dəfə eşidəndən qulağımda donub qaldı səsi elə bil. Özünü də, səsini də unuda bilmirəm. Eşidirəm hər yerdə...- deyir döyüşçüsü Emil.

Emil haqlıdır. Onun səsini eşidəcəyik hər yerdə. Onların səsini eşidəcəyik. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır və nida!" - səsinə hay verən səslərini eşidəcəyik. Onların təbəssümü nur olub Azərbaycanımıza səpiləcək hər an.

Bütün hərbiçi yoldaşlarının, əsgərlərinin qəhrəmanlıq simvolu olan polkovnik-leytenant Nail Orucov azad olunmuş torpaqlara olduğu zirvədən baxıb gülümsəyəcək.



# ŞAHNUR

Şahin oğlu Hüseynov

**30.11.1991 – 27.09.2020**

## XOŞBƏXTLİYİ YAŞAYAN ŞAHNUR HÜSEYNOV

Hərbi xidmət zamanı "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasıa görə" medalları ilə təltif olunub.

Şahnurun atası Şahin Hüseynov ötən əsrin 90 – cı illərində Polşada hərbi xidmətdə idi.

Oğlu Şahnur da 1991 – ci il noyabrın 30-da Belqrad şəhərində dünyaya gəlir. Birinci Qarabağ savaşı başlayanda Şahin Hüseynov Vətənə qayıdır, ailəsiylə Cəlilabadın Göytəpə qəsəbəsindəki Hərbi şəhərcikdə məskunlaşır. Şahnur da orta təhsilinə Cəlilabadın Göytəpə qəsəbəsində başlayır. Sonra Şahin Hüseynov Ağcəbədiyə köçür . Hərbiçilər yaşayış yerlərini özləri seçmir. Şahin bəyin də xidmət yeri Füzuliyə dəyişilir və təqaüdə çıxana qədər Füzulidə hərbi xidmətinə davam edir.

Şahnur da Füzulinin Əhmədbəyli kəndindəki Mahmudlu - 2 kənd tam orta məktəbində oxuyur. Hərbiçi ailəsində böyüyən Şahnurun qəlbində uşaqlıqdan bir arzusu da böyüyür: hərbiçi olmaq.

Bu haqda təkcə valideynləri, dostları deyil, Şahnurun fizika – riyaziyyat müəllimi Narınc xanım da danışdı. Onun Şahnurlu xatirələri ürəyimə doldu, yanaqlarımda iz saldı. İllərdi kəndinin ölüm qoxulu

havasını içinə çəkə-çəkə yaşayır bu mərd Azərbaycan xanımı: Bir başqaydı Şahnur. Şagirdlərimi, sənətimi çox sevirəm, amma hər müəllimin seçilən, ürəyində xüsusi yeri olan şagirdləri olur. O belə idi. Çox-çox dəyərliydi mənim üçün. Adətən uşaqlara “Kim olmaq istəyirsən?” sualını veririk. Həmişə “general” deyə cavablandırıb mənim balam. Ona arada “general” deyirdik. Kapitan oldu. Bilirəm ki, mütləq general olacaqdı. Müharibə bizim kənddən başladı elə bil. Kənddə yalnız kişilər və biz - dörd qadın qalmışdıq. Özüm də məscidin yaxınlığında yaşayıram. İlk yaralılar, şəhidlər gətirilirdi. Axşamüstü dayana bilmədim, qadınlara “məscidə gedək” dedim. Elə bil hiss etmişdim ki, mənim Şahnurum ordadı. Onu şəhidlərin arasında görəndə inanmadım. Fikirləşirdim Şahnur şəhid olmaz. Ailə ilə münasibətim var. Onlara xəbər vermədim. Sadəcə oxşatdığımı düşünmüşdüm... Bu il doğum gününü onsuz qeyd elədik oxuduğu sinif otağında. Sinif yoldaşlarından bəziləri döyüşürdü, bəziləri gəlmişdi.

Şahnur Hüseynovun hərbiçi olacağını hamı bilirdi.

8-ci sinifdən sonra C. Naxçıvanski adına Hərbi Liseyə daxil olur, oranı bitirib 2009- cu ildə H.Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alır. Ali Hərbi Məktəbin məzunu olduqdan sonra 2013-cü ildə taqım komandiri kimi hərbi xidmətə başlayır.

2016-cı il aprel hadisələrində, Lələtəpə yüksəkliyinin alınmasında qəhrəmanlığı ilə fərqlənib. Hərbi xidmətdə olarkən Yubiley medallları ilə təltif olunub. Beləcə arzusunda olduğu hərbiçi həyatını şərəflə yaşayıb...

2017-ci ildə sevib-seçdiyi Gülyaz xanımla ailə qurur. Sonra daha bir ad alır: Əlinurun atası. GDU-nun “Riyaziyyat – informatika” fakültəsinin məzunu olan Gülyaz xanım “Şahnurlu günlərimin əvəzi olmayacaq. Həyatımın nuru idi, Şah nuru” – deyir.

Tağım, bölük komandiri olub. Taborun qərargah rəisi kimi də seçilib: intizamı, çalışqanlığı, mədəniyyəti, savadı, təşkilatçılığı, cəsurluğu ilə seçilib.

Atası Şahinin əmiləri Böyük Vətən müharibəsində Berlinə qədər döyüş yolu keçənlərdəndir. Ata deyir ki, həmişə ona əmilərimi nümunə gətirərdim. Vətənpərvər ruhda böyüyüb Şahnur. Onunla bir hər-

biçi, bir övlad, bir vətəndaş kimi fəxr edirəm. Övladım Vətən oğlu kimi öz borcunu yerinə yetirib, təkcə ailəsinin deyil, Vətəninin övladı idi. Mərd yaşadı. Qəhrəman kimi yaşadı.

7 yaşlı Şahnurun himnimizi oxuyarkən çəkilən görüntülərini izlədim. Balaca Şahnurun dəqiq, səlis ifasından çox diqqətimi Şahin Hüseynovun qürur dolu baxışları, özündən razı üz ifadəsi çəkdi. Ata himnimizi ürəklə oxuyan oğluna elə baxırdı ki. Baxışlarından, üzündən "baxın, mənim balaca oğlum Vətən himnini necə böyük ürəklə oxuyur" təbəssümü işıq səpirdi. Bu işıqda oğlunun oxumasından qürurlanan atadan çox, Vətən sevgisindən doğan nur vardı.

Mərd kapitanın anası Hüseynova Hədiyyənin sözlərini də heyranlıqla dinlədim: "Şahnur tək mənim oğlum deyil ki? Astaranın, Füzulinin – bütün elin övladıdır. Onun dərdi - səri Vətən torpaqları idi. O, bütün arzularına çatmışdı. Oxumuşdu, xoşbəxt ailəsi vardı. Ən böyük arzusu Vətən azadlığını görmək idi. Həmişə deyirdi ki, lazım gəlsə Şəhid olaram, amma torpaqlarımızı azad edərəm. O günü görsəm, bütün həyatım məna tapacaq. Üzürlü sayın, amma "Şəhid olacam" dedikcə deyirdim elə demə. Anayam axı. O qədər inanırdı ki, torpaqlarımızın azad olacağına. Mən o qədər inanmırdım, amma o inanırdı. "Bu arzuma da çatacam" deyirdi. Çox ağırdı övlad itkisi. Bütün dərdlərdən ağırdı. Övlad itirən ananın ürəyi yaralıdı. Sağalmaz bu yara. Amma indi düşünürəm ki, oğlum xoşbəxt oldu doğurdan da, bütün arzularına çatdı. Hamının sevimlisi idi. Yaxşı oxuyurdu, yaxşı övlad idi. Uşaqlıqdan hərbiçi olmaq istəyirdi, arzusuna çatdı. Sevdiyi qızla evləndi. Xoşbəxt ailəsi vardı. Torpaqlarımızın azadlığı uğrunda Şəhid olmağa hazır idi. Bu arzusuna da çatdı. Mən bu gün tək Şahnurun anası deyiləm, bütün şəhidlərin anasıyam. Vətən uğrunda döyüşən bütün oğulların anasıyam".

Nehmətov İlkin Şahnur Hüseynovun bölüyündə xidmət edib. "Onun haqqında hamıya danışmaq istəyirəm, hamıya. Şəxsiyyət idi, əsil şəxsiyyət. Bütün heyətimiz onu sevirdi. İlk hücuma keçdi, düşmənin ön xəttini, müdafiə səddini yaran ilk qəhrəman oldu. Döyüş başlamazdan əvvəl bütün əsgərlərlə görüşdü: Bu günü illərdi gözləyirəm, xoşbəxtəm, - dedi. Onun düzlüyünə, cəsarətinə heyrət edirdik. Onun

qanını, bütün Şəhidlərin qisasını aldıq".

2 güllə, 21 qəlpə yarası alan Abbasov Müşfiq: İnsan idi, İnsan. Çox savadlı, işini bilən igid idi. Nə deyim ki? Bütün əsgərlərinə sevgiylə, qayğıyla yanaşırdı. Döyüş başlamazdan əvvəl dedi ki, biz çox xoşbəxtik. Qələbə çalacayıq. Bu torpaqları azad edəcəyik. Bundan böyük xoşbəxtlik ola bilməz. Belə cəsur hərbiçilərin sayəsində qələbə çaldıq əslində.

Hər birimizin uşaqlıq arzuları olur. Böyüdükcə arzularımız böyüyür, dəyişir. Kiçik Şahnurun arzusu özündən əvvəl böyümüşdü, dəyişmədi. İnadla "Əsgər olacam. General olacam" – dedi.

"Vətən mənim namusum, qeyrətimdi. Onu sevmirəmsə, bütün sevgilərim yalandı" deyirdi kapitan Şahnur Hüseynov. Düşmənin güvəndiyi "Ohanyan" səddini dağıtdı, döyüşlərdə göstərdiyi cəsurluq dastan oldu. Ohanyan səddini yara bilməyəcəyimizə inanan ermənilərin inamını alt-üst etdi. Kapitan olmasına baxmayaraq, polkovnik-leytenant vəzifəsini daşıdı. 3 tabora rəhbərlik edərək ölümün üstünə getdi qorxmadan, mərdliklə. Şəhid olacağını bilərək getdi.

"Vətən mənim canımdı. Elə bilirəm torpaqlarımız yox, canımın parçası düşmən əlindədi. Onu azad etməsəm yarımcan, yarımçıq olacam həmişə. Bütün torpaqlarımızı almalıyıq".

Doğru deyir Şahnur. Vətəni bütöv olmayanın özü də paramparçadı.

Belqradda doğuldu, Füzulidə böyüdü, Füzuli uğrunda döyüşlərin qəhrəmanı oldu. Düşmənin çox güvəndiyi Ohanyan səddini yardı – Qələbəyə yol açdı kapitan Şahnur Hüseynov.

İndi Astaranın Ərçivan qəsəbəsində uyuyur.

Gülyaz xanıma sevgili həyat dostu, Əlinura qürur duyacaq ata oldu. Şəbnəm və Şəhriyara əvəzsiz qardaş oldu.. Atası Şahin bəyin dediyi kimi vətənpərvər Azərbaycan oğlu oldu. Anası Hədiyyə xanımın dediyi kimi ən böyük arzusuna çatdı - xoşbəxt oldu.

Bədbəxtlər... Özündən əvvəl xoşbəxtliyi ölən çoxdu. Özündən sonra xoşbəxtliyi yaşayan isə azdı - Şahnur Hüseynov kimi.

Xalqın qəhrəmanı oldu kapitan Şahnur Hüseynov.



# KAMRAN

Qılman oğlu Fərəcov

**14.01.1978 – 20.10.2020**

## PEŞƏNİN, VƏZİFƏNİN, ÖLÜMÜN GÖZƏLİNİ SEÇƏN MAYOR KAMRAN FƏRƏCOV.

Kamran gözəlliyi sevib. Gözəllik axtarıb, olduğu hər yerdə gözəllik yaradıb.

Kamran Qılman oğlu Fərəcov 1978-ci il yanvarın 14 - də Astaranın Səncərədi kəndində dünyaya gəlib. 1984-1995-ci illərdə indi Ziya Bünyadovun adını daşıyan Astara şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Savadı, məsuliyyəti, davranışı ilə fərqlənib.

1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbinin Taktiki Tank Qoşunları komandiri fakültəsinə daxil olub.

1999-cu ildə leytenant kimi məzun olan Fərəcov Bakıda taqım komandiri kimi xidmətə başlayıb. Sonra Ağdamda, Gəncədə, Goranboyda cəbhə bölgəsində xidmət edib. Hərbiçi həyatıdı bu.

Peşənin də, vəzifənin də gözəlini seçmişdi...

“Onu tələbəlik illərindən tanıyıram. Mən 1998-ci ildə, Kamran 1999-cu ildə təhsilini başa vurub. Eyni hissədə Perekükşküldə leytenant kimi hərbi xidmət etmişik. Hərbiçiyik, əmrə tabeyik. Sonra başqa-başqa hissələrdə qulluq etməli olduq. Amma ailəvi dostluğumuz olub. Çox doğmaydı Kamran. Çox savadlı, peşəkar idi, çox. Cəsur idi. Əsgərlərinə dost, qardaş, ata kimi davranırdı. Səhhətiylə bağlı ehtiyata buraxılmışdı. Döyüşə könüllü qatıldı. Kamran kimi vətənpərvər oğul, zabit üçün, hər

namuslu vətəndaş üçün vətən yolunda şəhid olmaq şərəfdi”- polkovnik-leytenant Kazımov Rəşad tələbəlik dostundan fəxrlə danışdı.

İkinci Vətən savaşının şəhididir mayor Kamran Fərəcov. Bacarıqlı hərbiçilərimizdən idi. Bütün döyüşçülər, tanıyan hərbiçilər onun ən savadlı hərbiçilərdən olduğunu xüsusi vurğulayır. Bütün silahların bilicisi idi.

Şəhidlər haqqında məlumatları oxuyanda bir cümlə diqqətimi çəkir həmişə ”vəzifə borcunu yerinə yetirərkən”...

Hər birimiz üçün vətən azadlığı borc olsa da, hərbiçilər bir başqadır.

Ömrünü hərbiyə bağlayanlar təkcə hərbiçi adını daşımır, onlar həm də Vətən uğrunda “Şəhid” olmaq vəzifəsini daşıyırlar.

O da belə idi: Azərbaycan Ordusunun mayoru Kamran Qılman oğlu Fərəcov.

2018-ci ildə aldığı “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalına qürurla baxardı: Hələ nələr edəcəyik - deyərdi, etdi də. “Vətən uğrunda”, ”Cəbrayılın azad olunmasına görə ”, ” Qubadlının azad olunmasına görə” medallarına layiq görüldü. Kapitan kimi savaşa qatıldı, igidliyinə görə mayor rütbəsi aldı, qərargah rəisi təyin edildi.

Şəhidlərlə bağlı yazılar yazanda qazilərlə, şəhidlərin döyüş yoldaşları ilə söhbətləşməli oluram. Bəziləri sakit danışa bilmir, bəziləri o günlərin ağırlığından qurtula bilmir, bəziləri susur hələ də. Bir şey aydındı: döyüşlər ağır olub. 44 gün əslində böyük zaman deyil müharibəyə alışmaq, onun ağrılarını yaşaya bilmək üçün. Xüsusən də həqiqi xidmətdə olan gənclər üçün. Və komandir məsuliyyəti, bacarığı qələbəyə aparan başlıca amildi.

Mayor Fərəcov bunu bacarırdı.

Əsgərləri deyirlər ki, qorxmazlığı heyranediciydi. Özü canavar kimi idi, amma hər an döyüşlərdə bizə: “Canavarlarım, bütün torpaqlarımızı azad edəcəyik. Qarabağı azad edəcəyik”! - deyirdi.

Hazırda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, Bərpası və İnkişafı üzrə Dövlət xidmətinin Salyan regional idarəsinin Lənkəran rayonu üzrə baş mütəxəssisi olan keçmiş döyüşçü Rauf Salayevin xatirələri: İnsanlığını vurğulamaq istəyirəm. Tabor komandirimiz polkovnik-leytenant Rəşid Quliyev şəhid oldu. Kamran Fərəcov bizə qərargah rəisi təyin olundu. Cəbrayılda ən hündür təpədə qülləyə qalxırdıq. Hamımızın yükü vardı. Əsgərlər bir-

neçə dəfə ona kömək etmək istədi, heç cür razı olmadı. Ərzaq payını belə əsgərlərə verirdi. Cəbrayılın ən yüksək nöqtəsində ilk dəfə azan verən də Kamran olub. Bütün döyüşçülər onu sevirdi, bu sevgini qazanmışdı. Zabit kimi çox diqqətliydi, tələsik qərar verməzdi. Cəbrayıldan sonra Qubadlıya daxil olduq. Qubadlıda erməni qırıcıları hücuma keçəndə BMP-lər göndərdilər ki, çıxaq. Getmək istəmədim, güclə bizi yola saldı. Mayorun şəhid olmasını eşidəndə yaralı idim. Çox üzücü oldu. Öz zabit adını layiqincə daşıyan biri idi. Mənim üçün, onu tanıyanlar üçün həmişə sağdı Kamran Fərəcov.

Sentyabrın 20-dən könüllü təlimlərə qatılır, gəncləri döyüşə hazırlayır.

Onu dayaq bilir, inanır, ondan güc alır, güvənirdilər.

Kəşfiyyatçı zabit kapitan Məmmədov Camaləddin həm də Birinci Qarabağ Savaşının iştirakçısıdır. 1992-ci ildən 2001-ci ilə qədər hərbi xidmətdə olub. Döyüş təcrübəsi olan zabitlərdəndir: “Onunla birlikdə olmuşam bütün təlim hazırlıqlarında. Şəxsi heyəti hazırlamalıydıq döyüşlərə. Çox peşəkar zabit idi. Döyüşlərə birlikdə başladıq. Səhhətində problem olduğunu da gizlədirdi. O şəraitdə əziyyət çəkirdi, amma heç əsgərləri bilmədi. İlk günlər cavan əsgərlər üçün bir az çətin olur. “Canavarlarım, igidlərim”- deyə önlərində gedirdi. O qədər inam yaradırdı. Bu vacibdi, çünki əsgərlər bizə baxır. Səsimizdə azca həyəcan hiss etsələr, onlar lap çox həyəcanlanar, qorxarlar. Mərd idi. O günlərdə onu qərargah rəisi vəzifəsinə dəvət etdilər. Başqa tabora keçdi. Əlaqə saxlayırdıq. Qarış - qarış azad edirdik torpaqları. Qubadlı uğruna savaşımız da asan olmadı. Kamran da şəhid oldu. Hədsiz sarsıldım. Amma hər birimiz buna hazır idik. Qələbə qazandıq. Torpaqlarımızı azad etdik. Xalq və Ordu Baş Komandanın ətrafında elə birləşmişdi ki!” Bunları danışan Masallı şəhər 6 nömrəli tam orta məktəbdə “Çağırışaqədərki hazırlıq” fənnini tədris edən kəşfiyyatçı zabitimizin səsində əzmkarlıq vardı.

- Övladı haqqında keçmiş zamanda danışmaq ana üçün çox çətindi. General olmaq arzusundaydı Kamranım. Babası Əshab Fərəcov Böyük Vətən müharibəsinin iştirakçısı idi. Ömrü boyu ürəyində güllə gəzdirdi. Onun əsgər yoldaşlarıyla bağlı xatirələrlə dolu nağıllarıyla böyüdü Kamranım. Vətənsevdalı böyüdü. Uşaqlıqdan hərbini seçdi. Mərd idi, hamının hörmətini qazanmışdı - həzin-həzin danışdı oğlu haqda anası Rəviyyə xanım...

Ruslan Əliyev onunla bir sinifdə oxuyub, dost olublar. Yoxluğuna alışa bilmir. Arada onunla söhbətləşir: "Deyirdin yığışaq, alınmırdı. Neçə gündü yığışırıq, sən bizi yığırsan bir yerə. Hamı xoşbəxtlik axtarır ömrü boyu. Bilirsən nə oldu? Anladıq. Səninlə bir yerdə oxumağımız, nə vaxtsa yan-yana dayanmağımız xoşbəxtlik idi - bunu anladıq, Şəhidim".

20 oktyabr Qubadlı uğrunda gedən döyüşlərdə şəhid oldu.

Düşmən snayperləri zabitləri nişan alırdı. Bütün döyüşlərdə əsgərlərin önündə gedən zabitlərdən idi Kamran.

Mayor 2011-ci ildə ehtiyata buraxılanda səhhətində problemlər vardı.

-2004-cü ildə ailə qurduq. Bütün hərbi həyatını günəgün yaşamışam. Ağdamda, Gəncədə, Goranboyda... Elə bil mən də hərbiçi idim. Qızlarımız olanda evliliyimizdən 10 ildən çox keçmişdi. O qədər gözəl ata idi ki. Ataların da ən gözəli idi Kamran. Hərbiçi dostları ilə əlaqəsi vardı həmişə. Müharibə gözlənilirdi. Kamran da "Gedəcəyəm" dedi. "İki qızın var, bronxların xəstədi, ikinci qrup əlilliyin var, getməyə bilərsən" – dedim. Tutuldu: Bunu bir də demə. Məni sındırarsan. Hərbiçi dostlarım orda, gənclər...İşğalda torpaqlarımız var. Vətən müharibəsidi bu. Özümü bağışlamaram heç vaxt, bu yüklə yaşaya bilmərəm. Heç nə deyə bilmədim daha. İndi deyirəm sizə. "Şəhid olsam da eybi yox, Şəhidlik də gözəldi" – dedi sonda. Ləyaqətlə, kişi kimi yaşadı. Gözəl yaşadı, gözəl öldü... Vətən üçün - özü istədiyi kimi... Ölümün də gözəlini seçdi...- Mayorun xanımı Nuranə müəlliməyə qulaq asdıqca "necə qadınlarımız var" düşünürəm: sadiq, sevgi dolu, mərd, vətəni sevən. Arada kövrəlib ağlasa da, qırıq-qırıq danışsa da Kamran kimi bir igidin, şəxsiyyətin xanımı olduğu üçün qürur duyduğunu anlayıram.

Ağlamaq əlində deyil, bilirəm. Ağlayıb-sızlayan qadın deyil, əminəm. Əkiz qızları Dəniz və Şəmsi şəxsiyyət kimi, Kamranın adına layiq böyüdəcək anadır, inanıram. Özü də Vətən yolunda canından keçməyə hazır olan xanımın-vətəndaşın məğrurca duruşunu görürəm.

Hər birimiz qürur duyuruq Kamranla, Nail, Sədi, Elçin, Sadiqlə.. Vətən olanlarla. Bizə məğrur duruşu qaytaranlarla.

Tez-tez yuxularına gəlir Nuranə xanımın: Ağlamayın. Mən ölməmişəm. Mən sağam – deyir.

Şəhidlər ölməz...



# NURLAN

Əhliman oğlu Fərəməzov

**01.05.1992 – 9.10.2020**

## HƏKİM BAŞ LEYTENANT NURLAN FƏRƏMƏZOV

Nurlan Astara rayon Səməd Vurğun adına Təngərüd kənd tam orta məktəbinin seçilən şagirdlərindən olub.

“Çox savadlıydı. Dəqiq elmləri gözəl mənimsəyirdi. Gözəl əl qabiliyyəti vardı. Elə bilirdim mühəndis olacaq. İstənilən universitetə qəbul olunardı. O, həkim olmaq istədi. Özü də hərbi həkim. Deyirdi “hərbi həkim olmaq, hərbiçilərin sağlamlığını qorumaq çox şərəflidir. Hərbi həkim kimi daha çox gərək olaram. İndi hər an bizə hərbi həkim lazımdı”. Bunları söylədi müəllimi Xəqani Mahmudov.

Fərəməzov Nurlan Əhliman oğlu Astara rayonunun Təngərüd kəndində 1992-ci il may ayının 1-də anadan olub, böyüyüb, orta təhsil alıb.

Orta təhsilini başa vurduqdan sonra 2009-2015-ci illərdə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsində oxuyub. Uğurla təhsilini bitirib, hərbi həkim kimi işə başlayıb.

Gədəbəy rayonunda 3 il tibb məntəqə rəisi kimi fəaliyyət göstərir. Daha sonra Qazaxda xidmətinə davam edir. 6 il hərbi həkim kimi çalışır. Oxuduğu, işlədiyi müddətdə biliyi, zəngin mənəviyyatı, sağlam əqidəsi, vətənpərvərliyi ilə hamının hörmətini qazanır Nurlan. “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı ilə təltif olunur.

6 illik hərbi xidmətdən sonra 2020-ci ilin avqustunda səhhətiylə bağlı hərbi xidmətdən tərxis olunur.

Sentyabrda İkinci Vətən savaşı başlayır. İlk gündən narahat olur Nurlan Fərəməzov. Ailə üzvlərinin sözlərinə görə gözlərinə yuxu getmir. "Mən mütləq döyüşdə olmalıyam" deyir, hərbi komissarlığa müraciət edir və yenidən cəbhəyə yollanır. Baş Leytenant Nurlan Fərəməzov yenidən hərbi həkim kimi xidmətə başlayır.

Atası Əhliman kişinin xatirələri: Çox vətənpərvər idi, işinə hədsiz bağlıydı. Birinci Vətən idi onun üçün. Tovuz hadisələri olanda məzuniyyətdə idi. Bütün gecəni yatmadı, səhər sübdən "gedirəm" dedi. "Axı məzuniyyətdəsən" sözümə "Ata, belə vaxtda mən orda olmalıyam. Burda istirahət edə bilmərəm" cavabını verdi. Daha heç nə deyə bilmədik. Müharibə başlayanda da heç kim onu saxlaya bilməzdi. "Mən hərbi həkim ixtisasını ona görə seçdim ki, çətin gündə vətənimə xidmət edim, döyüşçülərimizin yanında olum.

Hərbi tibb işçilərinin, həkimlərin vətən müharibəsindəki qəhrəmanlıqları danılmazdır. Neçə-neçə həkim, tibb işçisi könüllü cəbhəyə yollandı. Onlar da əsgərlərimizlə birlikdə döyüşdülər, neçə igidimizi həyata qaytardılar.

Vətən müharibəsinin xilaskar həkimi Nurlan Fərəməzov da gecə-gündüz bilmədi.

Onunla birlikdə Vətən savaşında olan hərbi həkim Vüqar Ağayev: Xidmətə eyni maşında gedirdik. Çox igidliklər göstərən, qəhrəmanca şəhid olan polkovnik-leytenant Naib Orucov da bizimlə idi. Bir həftə eyni otaqda qaldıq. Bir həftədə o qədər doğmalaşdıq ki! Həyat dolu gənc idi. Təəssüf edirəm ki, belə keyfiyyətli həkimi, insanı gec tanımışam. Hərbi forma veriləndə də ilk o gedib geyinmişdi. Bir də görürdüm Nurlan yoxdu. Əsgərlərin yanında olurdu bütün günü. Bir-neçə gündən sonra döyüşlərə yollandıq. Elə sevinirdi ki, Vətən savaşında payı olacaq deyə. Püxtələşmiş cavan həkim idi. Çox çevik idi. Ölüm qorxusu da yoxdu. Heç özünü düşünmürdü. Hara gəldi atılırdı. Hamıya ilkin yardım göstərmək istəyirdi. Çox yaralı daşıyırdı. Halbuki xəstəxanada yaralılarla olmalı idi. O isə səngərlərə, güllə altına gedirdi. Deyirdi "Birdən hansısa yaralı qalar, birdən kiminsə ilk yardıma ehtiyac olar". Nə bilim, sözəgəlməz möcüzə adam idi. Həm həkim, həm əsgər idi. Sonra ayrılmalı olduq Mən Cəbrayıl, o isə Füzuli is-

tiqamətindəki döyüşlərə getdi. Zəng edirdi məndən hal-əhval tuturdu. Sonra mən yaralanmışam. Füzuli hospitalına aparıblar. Özümə gələndə baxdım ki, bir - neçə dəfə zəng vurub. Sonra ondan xəbər çıxmadı. Bacıma zəng vurdum, Nurlanı soruşdum, demədi. Çox üzücü olsa da, düşündüm ki, şəhid olub, çünki Nurlan sağ olsa, hökmən zəng edərdi mənə...

Savaşın ən qaynar nöqtələrində olub ilk günlərdən ailənin tək oğlu, iki bacının yeganə qardaşı.

"Dayaq idi, dost idi, müdrik idi. Onunla hər mövzuda söhbətləşə bilərdin. Səhhətiylə bağlı tərxis olunandan sonra Almaniyaya getmək, ixtisasını təkmilləşdirmək istəyirdi. Öyrənməkdən yorulmurdu. Uşaqlıqdan mütaliəni sevirdi. Kitab oxumağı, bir də dənizi sevirdi. Çox məsuliyyətli idi. Tovuz döyüşlərində də iştirak edib. Əsgərlərini də çox istəyirdi. Hər biri onun üçün qardaş, doğma idi. Ona həmişə elə gəlirdi ki, az iş görür, yüksəklərə can atırdı... Şəhidlik imiş"... Bunları anlatdı bacısı Aysel.

Növbəti döyüşlərin birində yenə də döyüş meydanına, səngərlərə atılır Nurlan Fərəməzov. Yaralıları döyüş meydanından çıxarır. Bu zaman da oktyabrın 9-da şəhid olur cəsur, xilaskar hərbi həkim.

"Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb baş leytenant Nurlan Fərəməzov.

Anası Həqiqət xanıma həmişə "ana, narahat olma mən həkiməm, mənə heç nə olmaz" söyləyib. Heç mənə əziyyət verməzdi. Heç kimə əziyyət verməzdi. Hər zəng edəndə "Mən çox yaxşıyam, ana. Hər şey yaxşıdı və daha yaxşı olacaq" deyirdi. Çox qürurlanırdım oğlumla. Ağırdı, çox ağırdı... Həmişə narahat idim, nəsə içimdə narahatlıq vardı. İndi nə deyim? Tərxis olunmuşdu. Getməyə bilərdi. Hər sözü Vətən idi. Ən çox dövləti, torpağı sevirdi. Ona görə "Qala bilmərəm" dedi. Getdi. Həmişəlik getdi..."

Əslində həmişəlik getmədi, Həqiqət ana. Yenidən dünyamıza gəlmək üçün getdi. İndi O, səngərdən çıxardığı, yaralarını sarıdığı igidlərimizin aldığı hər nəfəsdə yaşayır. İndi O, azad olunan torpaqlarımızın hər qarışında yaşayır. Hər günümüzə, anımıza qayıdacaq və Azərbaycan adlı yurdu yaşadacaq nurlanlar. Bizim təkcə fiziki sağlamlığımızı deyil, mənəvi sağlamlığımızı da qoruyacaq. Yoxsa məhv olarıq.



# ZÜLFÜ

Ağalı oğlu Ağayev

**01.02.1977- 27.09.2020**

## DÖYÜŞ MAŞIN KOMANDİRİ ZÜLFÜ AĞAYEV

1977-ci ildə Astaranın Lələkəpeştə (Vaqo) kəndində fevralın 1-də anadan olub Zülfü Ağalı oğlu Ağayev. Böyüdükcə içindəki ağrı-acı da böyüyüb. "Niyə"lər rahatlıq verməyib.

Tariximizə azacıq baxanda yurdumuzun başına gələnlər hər birimizi sarsıdır, məncə. Zülfi Ağayevi də sarsıdıb. Ona görə də hərbiçi olmağa qərar verib.

Orta təhsilini və həqiqi hərbi xidmətini başa vurduqdan sonra imtahanları uğurla verərək Müdafiə Nazirliyinin "Gizir hazırlığı kursu"na qəbul olur. Tankçı ixtisasını seçir. Ailə üzvlərinin sözlərinə görə uşaqlıqdan tankçı olmaq arzusunda olub.

Əliyev Orxan Məhərrəm oğlu 1990-cı ildə Astarada həyata gəlib. Tam orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edib. "Gizir hazırlığı kursu"nu bitirib. O da tankçıdır: Bakıda hərbi xidmətə başlasam da, xidmətə 2013-cü ildə Beyləqanda N saylı hərbi hissədə davam etmişəm. Zülfüylə orda tanış olmuşduq. Yerliydik deyə bir-birimizə "yerli" deyərdik. Ona saygım, sevgim hədsizdi. Çox dürüst, sadiq insan idi. Nümunə insan idi. Əsil məktəb idi - hərbi məktəb. Xidmət boyu, təlimlərdə bunu görürdüm. Aprel döyüşlərində iştirak etmişik. Onun

təmkininin, peşəkarlığının bir daha şahidi oldum. Aprel döyüşlərində mən yaralandım, ehtiyata buraxıldım. Amma dostluğumuz davam edirdi.

Orxan Əliyev Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri ictimai birliyinin Astara rayon filialının sədridir. Öz işini vicdanla yerinə yetirən, ziyalı vətəndaş, hər an vətəni qorumağa hazır olan hərbiçidir.

İlk hücuma keçənlərin sırasında qələbəyə yol açanlardan olub Zülfü Ağayev. Müharibənin ilk günlərində döyüşlər daha ağır idi. Düşmən hələ özünə inanırdı. İlk hücuma keçənlərimiz canları bahasına bu inama ağır zərbə vurdular, yaraladılar.  Elə yaraladılar ki, sağalması mümkün olmadı.  Zəfərə gedən yolda da şəhid oldu Zülfü Ağayev.

"Həmin günlərdə düşmən təxribatları ara vermirdi. Nə qədər dözmək olar? 27-də hücum əmri aldıq. İnanın, ağrı-acısını bilsək də sevinirdik. Ölüm bizi qorxutmurdu. Hər an, hər gün o böyük günü gözləyirdik. Ali Baş Komandanın əmrini gözləyirdik. 2011-ci ildən hərbidəyəm, gizir kimi xidmət edirəm. 2014-cü ildən Zülfüylə birlikdə olmuşuq. Dost kimi dost, hərbiçi kimi hərbiçi idi. O məndən əvvəl hərbidə olub. Çox təcrübəliydi. Biz hərbiçi olmağı daha təcrübəli olanlardan öyrənirik. Döyüş maşın komandiri idi. BMP-2 zirehli piyada döyüş maşınını mükəmməl idarə edirdi.. Ən xırda nasazlığı diqqətindən yayınmırdı.. Bildiklərini bütün əsgərlərinə öyrədirdi. Məhz Zülfü kimi hərbiçilərdən öyrənirdik. Çox məsuliyyətli, bacarıqlı vətən zabiti idi. Zülfü bizim idealımız olub. Dəfələrlə fəxri-fərmanlar alıb. İlk günlər ağır idi. Düşmən hər yeri minalamışdı, istehkamlar qurmuşdu illər boyu. Zülfü də həmin gün şəhid oldu. 2014-cü ildən şəhid olana qədər birlikdə bir ömür yaşadıq. Önündə baş əyməli igid - bir vətən əsgəri idi. Şəhidlik zirvəsinə ucalan bütün oğullarımızın ruhları şad olsun. Torpaqlarımızı azad etdik. Hərənin bir ömrü var. Bir dəfə yaşayıb, bir dəfə ölür yaxşı insan. O da kişi kimi, əsil hərbiçi kimi yaşadı. Şükürlər olsun, Ali Baş Komandanın, xalqın dəstəyi ilə qələbə qazandıq". 1987-ci ildə Lənkəranda anadan olan maşın döyüş komandiri Azər Hüseyn oğlu Məmmədov hal-hazırda hərbi xidmətdədir.

Zülfü Kamalə xanımla hərbi xidmətdə olarkən tanış olub. Görən

kimi ürəyinə yol tapıb və həyatını onunla bağlamaq istəyi yaranıb.

Kamalə xanımın xatirələri: Təsadüfən rastlaşmışdıq. Təsadüfü görüşümüz ciddi münasibətlərə apardı. 2008-ci ildə də ailə qurduq. O vaxtdan da heç ayrılmadıq. Yoldaşım harda xidmət etdisə, yanında oldum. Cəlilabadın Göytəpə kəndində, Beyləqanda, sonra Ağcabədidə yaşadıq... Sonra yenə Beyləqana 702 nömrəli hərbi hissəyə yolladılar. Nə deyim... Vətən müharibəsi başlayana qədər, şəhid olana qədər ayrılmadıq. Tankçı idi. Vətəni, övladını canından çox sevirdi. Tankına da övladı kimi baxırdı. Bütöv adam idi. Ata idi. Bir dəfə oğlumuz Orxan gitara istədi. Beyləqanı, Ağcabədini gəzdi, o gitaranı tapdı. Arada bircə gün gəlirdi evə, o günü də "yorulmuşam" demədən övladına həsr edirdi. Çox xoşbəxt idik. Amma ilk gündən demişdi: "Mən hərbiçiyəm, hər bir hadisə ola bilər, bunu bilməlisən, hazır olmalısan. Mənim bir vətən borcum, vətəni qorumaq kimi vəzifəm var". Mən heç tərəddüd etmədim. Nə qədər danışsam bitməz. 25-də axşam evdə idi. Müharibə haqda danışmadı. Hərbi işləri haqda danışmazdı. Sadəcə arada "Hərbiçi olduğumu unutma" deyərdi. 26-da səhərə yaxın getdi... Gecə bir də gəldi bir-neçə dəqiqəlik. "Bir-neçə gün gələ bilməsəm, zəng edə bilməsəm, narahat olma. Özündən, Orxandan muğayat ol" – dedi. Getdi, maşına çatanda bir də dönüb geri baxdı... Sonuncu baxışı oldu...

Zülfü Ağayev "Füzulinin azad olunmsına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

Orxan adlı oğlu böyüyür ərazi bütövlüyü uğruna şəhid olduğu vətəndə.

Hərbi xidmət zamanı peşəkarlığı, məsuliyyəti, işinə, vəzifəsinə vicdanlı münasibəti ilə kollektivinin, əsgərlərin sevgisini qazanıb. "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü, 2-ci və 1-ci dərəcəli medallarla təltif olunub.

Özü, sözü, şəxsiyyəti kimi xidməti də qüsursuz olub. Azərbaycan Silahlı Qüvvələrinin baş giziri Zülfü Ağayev 23 il qüsursuz xidmət edib vətənə.

Hər birimiz bacarsaq, ölkənə qüsursuz xidmət etməkdən uca nə ola bilər?!



# NADİR

Ağadadaş oglu  Xəlilov

**03.11.1984 – 30.09.2020**

## "TANK ATASI" NADİR XƏLİLOV

1984-cü il noyabr ayının 3-də Astaranın Səncərədi  inzibati dairəsindəki Artupa kəndində anadan olub. 2008 – 2019- cu illərdə Artupa kənd tam orta məktəbində təhsil alıb.

Ailəliydi Nadir. İndi onun iki oğlu - bu ölkənin Ağadadaş və Nihad adlı iki qəhrəmanı böyüyür.

Milli Ordunun giziri Nadir Xəlilov Füzuli uğruna döyüşlərdə şəhid olub.

Nadirin atası Ağadadaş Xəlilovun söhbətlərindən: Vətən yolunda vuruşmaq hər qeyrətli oğulun, igidin borcudur. Mənim də oğlumun borcuydu. Müharibə ağırdı. Amma o mənfur qonşular əl çəkmədilər. Prezidentimiz neçə ildi sülh yolu ilə torpaqlarımızı azad etmək istəyir. Danışıqlar aparır. Ermənilər başa düşmədilər. Məcbur qaldıq biz. Torpaqlarımızı onların əlində qoya bilməzdik. Ona görə də döyüşməliydik. Müharibə etməliydik. Müharibədə insan ölür. Bizim oğullar torpağımızı azad etdilər, haqq savaşında öldülər. Ona görə oğlumla fəxr edirəm. Sağ olsun. Hamımız, bütün kənd fəxr edir. Azərbaycan fəxr edir. Prezidentimiz fəxr edir. Biz də prezidentimizlə fəxr edirik. Nadir hərbini özü seçdi. Əsgərlikdən gələndən sonra elə "hərbiçi olmaq istə-

yirəm" deyirdi. Dedim "bu qədər istəyirsənsə, get ol". Məktəbdə oxuyanda da hərbi oyunlarda iştirak edərdi, həmişə mükafat alardı. Həvəsi vardı. Kurs oxudu, təlimlərə getdi. Tankçı ixtisasını seçdi. Mən özüm də tankçı olmuşam. Müharibə veteranıyam. Mənim atam da Böyük Vətən Müharibəsinin veteranı olub. Nadir də vətənpərvər ruhda böyüyüb. Müharibə başlayanda da döyüşə getməliydi. Sentyabrın 30-da zəng eləmişdi. – (Kövrəlir bu məğrur ata) Dedim özündən muğayat ol. Amma tankçıydı. Öndə gedirdilər. Vurublar tanklarımızı.

Qədir Nadirin böyük qardaşıdır: 3 bacı, 3 qardaş idik. Eyni ailədə böyüsək də hər birimizin öz arzuları, öz həyat yolu olur. Nadir də hərbini seçdi. Çox razı idi işindən. Xoşbəxt idi. Döyüş yoldaşları onun xidmətindən, peşəkarlığından, cəsurluğundan o qədər xoş sözlər dedilər ki, bir daha elə qardaşım olduğu üçün qürur duydum. 2003-cü ildən əsgər gedib, 15 illik hərbiçi ömrü yaşayıb. Şərəfli, ləyaqətli bir ömür yaşayıb. Şəhidlik zirvəsinə çatıb. Hər kəsə belə yaşamaq nəsib olmur.

2003-cü ildə başlayan müddətli həqiqi hərbi xidməti Naxçıvanda sərhəd qoşunlarında keçib. 2004- cü ildə xidmət müddəti başa çatıb. Nadirin hərbiçi olmaq qərarı dəyişməyib.

2005-ci ildən MAXe kimi Milli Ordumuzda xidmətə başlayıb. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "Gizir hazırlığı kursu"nda oxuyub. Müxtəlif təlimərdə iştirak edib. Z.Tağıyev adına qəsəbədəki 888 saylı hərbi hissədə gizir kimi xidmət edib.

Sonra tankçı olmağa qərar verib.

Nadir Xəlilov 15 illik hərbi xidmət müddətində müxtəlif fəxri-fərmanlara, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalına, eləcə də "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı"na layiq görülüb.

Milli Ordunun giziri onlarla texnikanı sıradan çıxaran tank heyətinin komandiri Nadir Xəlilov Füzuli uğruna döyüşlərdə şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad

olunmasına görə" (23.12.2020) medalları ilə təltif olunub.

Abşeron rayonunda yerləşən N saylı hərbi hissədə şəhid tankçıların xatirəsi əbədiləşdirilib. "Şəhidlər ölməzdir" xatirə kompleksi açılıb. Açılışda azadlıq savaşında şəhid olan 20 tankçının dəyərli həyat hekayəsi, igidlikləri xatırlanıb. Onlardan biri də qəhrəman tankçı Nadir Xəlilovdur.

1-ci tank bölüyünün tank komandiri kimi öz heyətiylə birlikdə ilk hücuma keçənlərdən olub cəsurumuz. Onun haqqında deyilənləri eşitdikcə heyranlıq duyurdum.

Həyat yoldaşı Sevda xanımın dedikləri: 2006-cı ildə tanış olduq, həmin ildə də ailə qurduq. Sevmişdik bir-birimizi. 14 il birlikdə yaşadıq. O, dost idi. Dost əsil mənada. Mükəmməl bir insandı. Yaxşı övlad, yaxşı qardaş idi. Təkcə öz ata-anasının yox, mənim anamın da oğlu idi. Qardaşıma qardaşlıq edirdi. Əsgərlərinə qarşı da eləydi. Onlara dost, qardaş, ata kimi qayğı göstərirdi. Övladlarımıza da ən mükəmməl ata idi. Bilmirəm, onun kimi ata varmı? Belə bir insanla ailə həyatı qurduğum üçün özümlə də qürur duyuram. İki gözəl oğlu böyüyür. Heç peşiman deyiləm. Zaman geri dönsə, şəhid olacağını bilsəm də, yenə onunla ailə quraram. O, qəhrəmanımdı mənim.

Hərbiçi dostlarının sözlərinə görə Nadir ən peşəkar tankçılardan biri olub. Tankın səsindən onun nasazlığını təyin edə bilirdi. Ona "tank atası" deyirdilər.

Atası olduğu tankların açdığı yollarla ərənlərimizin işğalda olan torpaqlarımızı azad etdiyini bilir yəqin Nadir Xəlilov.

Şuşada dalğalanan bayrağın məğrurluğuna qoşulub dolanır başımızın üstündə igidimizin ruhu.



# VÜSAL

Üzeyir oğlu Nəhmətov

**02.10.1987-04.10.2020**
**(9.11.2020-ci ildə torpağa tapşırılıb)**

## "ƏJDAHA" VÜSAL

Azərbaycan Ordusunun giziri Vüsal Üzeyir oğlu Nəhmətov 2 oktyabr 1987-ci ildə Səncərədi ərazi vahidliyinin Alaşa kəndində anadan olub. Alaşa kənd məktəbində doqquzillik təhsil alıb. Onbirillik təhsilini Birinci Qarabağ döyüşlərinin şəhidi Elman Ağayev adına Səncərədi kənd tam orta məktəbində başa vurub.

Nəhmətov Vüsal ailənin yeganə oğlu, üç bacının qardaşı idi.

Anası Ruhiyyə xanım sadə kənd qadınıdı. "Balam üçün darıxıram" cümləsi dilindən düşmürdü. Bir də mənə tez-tez "sağ ol, balamdan yazırsan" deyirdi...Təşəkkür var, gözləyirsən, təşəkkür var, istəmirsən, təşəkkür var, ruhunu əzir... "Siz sağ olun ki, belə igid böyütmüsüz"- bundan başqa bir söz tapmırdım deyim şirin talış ləhçəli xanıma.

"Əsgər getdi, sonra da hərbiyə, şəhid olmağa getdi mənim balam. "Mən şəhid olsam, fikir eləmə, şəhid anası olacaqsan" - deyirdi". Son sözləri bu olub oğlunun.

Hərbiçi kimi görürdü özünü Vüsal. Həqiqi hərbi xidmət keçəndən sonra ömrünü hərbiyə bağladı.

Üç il MAXE kimi xidmət edib. Mina təmizləyənlərdən olub. Sonra

Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris mərkəzində "Gizir hazırlığı" kursunda oxuyub. Tankçı ixtisasını seçib.

Hərbiçi dostları Vüsala "Əjdaha", Vüsal isə tankına "əjdaha" deyirmiş.

"Müharibə olacağını öyrənəndən gözlərinə yuxu getməyib.

"Bilmirəm, ya çox həyəcanlanırdı, ya sevinirdi, yata bilmirdi. "Əjdaham"la gör nələr edəcəyik - deyirdi hər dəqiqə. Amma özü doğrudan da əjdaha idi. Nümunəvi tankist idi. Tankla peşəkar manevrlər edirdi. Onların heyətini odlu minayla vurdular. Yoxsa Vüsal Şuşayacan gedəcəkdi. Hər kənd azad olunanda sevincdən gözləri yaşarırdı". Dostu Samir bunları dedi. "Mənim üçün qəhrəmanlıq simvolu idi".

Tank komandiri idi Vüsal Üzeyir oğlu.

Heyət üzvlərinə də "əjdahalarım" deyirmiş.

Müharibə başlayanda tank heyətləri hücumda olub. Onların xidməti əvəzsiz, cəsarətləri heyrətedicidir.

"Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub ölümündən sonra gizir Vüsal Nəhmətov.

Vüsalın yadigarları Qəni və Ömərin anası Xəyalə xanımın ilk cümləsindən sarsıldım: "Ömrünün yeni ilinin iki gününü yaşadı. Doğum günündən iki gün sonra şəhid oldu. Yaşını evimizdə birlikdə keçirməyi arzulayırdıq. Olmadı. Əvəzində hərbiçi kimi, əsgər kimi, dövlətini sevən vətəndaş kimi arzusuna çatdı. Torpaqlarımızın ermənilərdə olmasına görə çox fikir çəkirdi. Bir də görürdün öz-özünə hirslənir. Narahat idi həmişə. İndi daha rahatdı".

4 oktyabrda Füzulinin azadlığı uğruna gedən qızğın döyüşlərdə şəhid olub Vüsal. Neytral zonada qaldığından 9 noyabrda dönə bilir kəndinə. Vüsalın atası Üzeyir kişinin dediklərini xatırlayıram: Müddətli xidmətini Hava Hücumundan Müdafiə Qoşunlarında keçmişdi. Amma "Xocalının qisasını almalıyam" deyirdi. Oğlumun adını əjdaha qoymuşdular.

Əjdahaydı mənim oğlum. Bütün oğullarımız əjdaha kimi döyüşdü. İndi bütün dünya bizdən öyrənsin döyüşməyi. Ürəyimizdə oğul yanğısı olsa da başı dik gəzirik.

Vüsal təbiəti sevib, torpağı sevib. Gözəl bir bağ salıb kəndində. Öz əli ilə əkdiyi gül-çiçək, meyvə ağacları adamın ruhunu oxşayır.

Hər dəfə bağa qulluq edəndə, ağaclarına baxanda ata-anasına deyirmiş: "Torpaqlarımızı azad edəndə öz əllərimlə o rayonlarda bağlar salacam..."

Düşündüm ki, Vüsalın azad etdiyi torpaqlarda nə qədər belə bağlar salınacaq, nə qədər gül-çiçək əkiləcək. Neçə-neçə meyvə ağacı boy verəcək. Və onların hamısında Vüsalın əllərinin istisi, qayğısı olacaq...

Bir də Vüsalın atası Üzeyir kişinin dediklərini xatırlayıram: ... İndi bütün dünya bizdən öyrənsin döyüşməyi. Ürəyimizdə oğul yanğısı olsa da başı dik gəzirik.



# BABA

Əhməd oğlu Qasımov

**01.11.1989 – 20.10.2020**

## "CANAVAR" LƏQƏBLİ BABA.

3 bacının tək qardaşı idi.

Qubadlının Balahəsənli kəndinin azadlığı uğruna gedən döyüşlərdə oktyabrın 20-də şəhid olub.

- Bir - neçə gün əvvəl zəng vurmuşdu. Evdə kim varsa, hamısı ilə danışmaq istədi. Bir-bir danışdı hər kəslə. Nəsə narahat oldum. Həmin gün də çox gərgin idim. Özümə yer tapmırdım. Ürəyim sıxılırdı. Dərman da qəbul etdim. Namaz üstə dua elədim ki, ay allah, mənim ömrümdən al, oğluma ver, ona bir şey olmasın. – Əhməd kişi ağır-ağır nəfəs alırdı.

Baba Əhməd oğlu Qasımov 1989-cu il noyabrın 1-də Astaranın Ərçivan qəsəbəsində anadan olub. Birinci Qarabağ şəhidi Sahib Kələntərov adına Ərçivan 2 saylı tam orta məktəbin məzunudur. Məzun olduqdan sonra həqiqi hərbi xidmətə gedir. Müddətli həqiqi hərbi xidmətini başa vurub hərbiçi olmaq qərarı ilə doğma kəndinə qayıdır. Evin tək oğlu olduğu üçün qərarını bir müddət deyə bilmir. Sonunda atasıyla danışır. Ata oğlunun qərarını sayğıyla qarşılayır.

-Bütün övladlar əzizdir, amma yeganə oğlum idi. Dayağım idi. Yanımda olmağını istəyirdim. Arzusuna qarşı da çıxa bilmədim. İndi də yoxluğuna dözə bilmirəm - dedi Əhməd kişi.

Atasının razılığını alandan sonra anası Gülşən xanımdan razılıq almaq gərəkdi: Kimsənin qəlbinə dəyməzdi oğlum. Atası razılıq versə də, məndən də razılıq almaq istəyirdi. Düzünü deyim, hərbiyə getməyinə razı deyildim. Tək oğlandı. Amma fikrindən dönmədi. O qədər dilə tutdu ki, razılaşdım. Hərbiçi olmanın çətinliyini də, məsuliyyətini də bilirəm. Heç şikayətlənməzdi. Çox razıydı. Çox qürurlanırdı. Neçə dəfə xidmət etdiyi hərbi hissələrdən təşəkkür məktubu almışıq. Uşaqlıqdan bir yersiz hərəkəti olmazdı. Fəxr ediləsi övlad olub bizə. İndi də elin-obanın, vətənin fəxri oldu...

Beləcə yenidən hərbi xidmətə yollanır. Nümunəvi xidməti ilə hörmət qazanır. MAXE kimi aprel döyüşlərində iştirak edir. Cəsurluğu ilə diqqət çəkir. Döyüş zamanı silahında problem yarandığı üçün atəş aça bilmir.  Bir-neçə düşmən əsgər səngərə doluşur. Baba əlbəyaxa döyüşür, səngərdə olan beldən istifadə edir. Məhv edir onları. Göstərdiyi cəsurluğa görə gizir rütbəsi alır.

Sonra XTQ - də xidmət keçir. SAT kurslarını bitirir, bütün çətin tədris-təlimlərində də fərqlənir. "Çətinliklərinə baxmayaraq çox qürurlanırdı bu kursları keçdiyi üçün. O qədər sevinirdi ki" deyir dostları. Dəfələrlə igidlik göstərib "Canavar" ləqəbli Baba.

Sentyabrın 27 - dən XTQ-nin kəşfiyyat taborunda döyüşlərə qatılıb. Oktyabrın 20-nə kimi kəndlərin, qəsəbələrin, yüksəkliklərin azadlığı uğruna savaşıb. Füzulinin, Qubadlının, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə ona "Canavar Baba" deyiblər.

"Onunla 2017-ci ildə xüsusi təyinatlıların Ballı Qayada təlim kurslarında tanış olmuşduq. Münasibətimiz o vaxtdan yarandı, dostluğa döndü.  XTQ-də ayrı-ayrı yerlərdə olsaq da, əlaqə saxlayırdıq. Döyüşlərə bir ay qalmış bütün təlimlərdə birlikdə olduq. Təlimlərdən sonra da dayanmırdı, az qala məcbur edirdi hər gün idmanla məşğul olaq, qaçaq.  Döyüşlərdə də çox fərqlənirdi. Heç vaxt bizi ac qoymurdu. Ən çətin, təhlükəli vəziyyətlərdə belə gedib ərzaq, su gətirirdi. Həmişə də öndə olurdu. Mənə deyərdi ki, sənin iki qızın var, qıza daha çox ata lazımdı, mənimsə qızımın qardaşları var. O qədər mərd idi. Döyüşdə ən ağır yük ondaydı. PK silahına təhkim olunmuşdu. Çox mükəmməl bilirdi silahdan istifadəni. Əvəzsiz döyüşçü idi". Bunları da döyüşlərdə

artilleriya aviasiya koordinatoru olan gizir Orxan Mikayılov söylədi.

30 ilə yaxın işğalda olan əraziləri 44 günə azad etmək sözəgəlməz qəhrəmanlıqdır. Rayonları, kəndləri qarış-qarış azad etmək canından keçmək deməkdi. Baba da canından keçmişdi. Səngərlərini, silah-sursatlarını qoyub qaçan düşmən əsgərlərini gördükcə "Bu günü görmək üçün yaşamışam mən. Bundan sonra ölsəm də olar" deyirdi Baba.

Kəndin seçilən ziyalılarından olan Fəxrəddin Məmmədovun çıxışına baxırdım: Ərçivan igidlər məskənidir. Bu savaşda 9 şəhid verib. Biz o igidlərin birinin hüzurunda durmuşuq-Baba Qasımovun. Ölən birindən o dünyada soruşurlar ki, sən gəldiyin yerə qayıtmaq istəyirsən, deyir "yox". Şəhiddən soruşurlar deyir "hə". Niyəsinə cavabı "çünki can vermək var" olur. Baba belə oğul idi. İki, üç canı olsa, yenə vətən yolunda keçərdi hamısından.

Beləydi igidlərimiz.

Şəxsi keyfiyyətlərindən, mənəvi dünyasından, cəsurluğundan danışdı döyüş yoldaşları. "Həqiqətən canavar kimi döyüşürdü" dedilər.

Çox igidlikləri olub gizir Baba Qasımovun. İgidliyinə, döyüş tapşırıqlarının yerinə yetirilməsinə uğurla rəhbərlik etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordenə layiq görülüb. "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Vikepediyada şəhidlərin çoxu haqqında məlumat var. Müxtəlif adlar, soyadlar. Müxtəlif doğum tarixləri... Amma hamısında eyni bir fikir yazılıb: Azərbaycanın ərazi bütövlüyü uğrunda vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirərkən...

Vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmək, Vətənin ərazi bütövlüyü uğruna yaşamaq, onu qorumaq, onun uğruna ölmək, şəhidlik zirvəsinə ucalmaq! Bundan ali nə var?!



# RAMIQ

Təhsin oğlu Ağayev

**12.02.1992 – 19.10.2020**

## ÖLDÜ VAR, DÖNDÜ YOXDU

Ağayev Ramiq 1992-ci ilin 12 fevralında Astara rayonu Səncərədi kəndində sadə, zəhmətkeş ailədə dünyaya gəlib.

E. Ağayev adına Səncərədi tam orta məktəbində təhsil alıb. 2009 -cu ilin məzunudu. Şagird kimi də fəallığı, bacarığı, məsuliyyəti, özünə qarşı tələbkarlığı ilə seçilib. Verilən bütün tapşırıqları layiqincə yerinə yetirib. Şagird və müəllim kollektivinin sevimlilərindən olub. İdmanı sevib. Məktəblər arasında keçirilən idman yarışlarında, “Cəsurlar” və “Şahinlər” hərbi oyunlarında həmişə uğur qazandırıb məktəbinə. Uşaqlıqdan tankçı olmaq istəyib və olub.

2010-cu ildə həqiqi hərbi xidmətə çağırılır. Müdafiə Nazirliyinin “Gizir hazırlığı kursu”nu bitirir. Sonra sürücü mexanik kimi 2012-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sırasında hərbiçi ömrünü yaşamağa başlayır.

Ramiq 2016-cı il aprel döyüşlərində igidlik göstərib. O vaxtdan da hər gün savaşın başlanmasını arzulayıb. Qisas almaq, torpaqlarımızı azad etmək fikri başından çıxmayıb. İgidliyi dastan olan Pəncəli Teymurov idealına çevrilib.

Sentyabrın 27-də döyüş yoldaşları, qorxmaz tankçılarımızla birlikdə qələbəyə inamla düşmən istehkamlarını dağıdıb. “Öldü var, döndü

yoxdu” tez-tez işlətdiyi ifadə idi, deyir döyüş yoldaşları. Hansı kənd uğrunda döyüşə gedirdiksə bunu söyləyirdi. Cəbrayıl uğrunda amansız döyüşlərdə elə bil Ramiqə tuşlamışdılar. Tankını raketlə vurdular. Yanan tankını tərk etməyib Ramiq. Yenə “öldü var, döndü yoxdu” deyib. Onu yanan tankdan güclə çıxarıblar.

Hərbi texnikadan istifadəyə, düzgün idarə etməyə görə fərqlənib. Düşmən tanklarının səddini yarıb, neçə hərbi texnikasını, canlı qüvvəssini məhv edib.

Elməddin Əbilov da tankçıdır. Bu ağır döyüşlərdə o da yaralanır: 2015-ci ildən Ramiqlə birlikdə Bakıda N saylı hərbi hissədə xidmət etmişik. Yaxın dost demək azdı, qardaş idik. Həmişə “Pəncəli Teymurovun qisasını alacam. Bütün şəhidlərin qisasını alacam bir gün” deyirdi. Sürücü mexanik kimi öz işinin ustası idi. Peşəkarlığına söz ola bilməzdi. Savaşa da birlikdə qatıldıq. Bütün hücumlarda birinci idi. Ölümdən qorxmurdu. Bilirdi ki, düşmən öndə gedən tankları mütləq vurmağa çalışır. Bilirdi ki, vurulacaq...Amma elə irəliləyirdi qarşısına keçmək olmurdu. Hamımıza ruh verirdi. Ramiqdən bir-neçə gün sonra yaralandım, bir yerdə müalicə alırdıq. Həkimlər nə qədər çalışsa da kömək edə bilmədilər... Taleyində şəhidlik varmış...

Döyüş yoldaşları yanan tankdan Ramiqi çətinliklə çıxara bilir. Saatlı hospitalına çatdırırlar. Vəziyyəti ağır olduğundan Bakıya göndərilir. 13 gün həyata qaytarmağa çalışsalar da xilas etmək mümkün olmur. Son dəfə anası Mehriban xanımla danışır: Ana, sən məni bir dəfə Astarada dünyaya gətirdin. Mən ikinci dəfə Cəbrayılda doğuldum. Allah məni sənə hədiyyə etdi. “Balam şəhid kimi doğulmaq arzusuna qovuşdu...”

19 oktyabrda şəhid kimi yenidən doğulmaq arzusuna qovuşur.

3 oğul atasıydı Ramiq: Şahin, Təbəssüm və Bəxtiyar. Oğlanlarına “Vətən əsgəri” deyərdi. Ramiq xanımı İranəyə hər zəngində “Özündən muğayat ol. Oğlanlarım sənə əmanətdi. Möhkəm ol” deyirdi.

Həyat yoldaşı İranə xanım doymadığı sevgiylə danışırdı: Şəhid olacağını hiss etmişdi elə bil. Hər dəfə möhkəm ol deyirdi. Çox qayğıkeş idi, çox. Oğlanlarını oxutmaq istəyirdi. Onun arzularını özüm yaşadacam. Bilirəm, asan olmayacaq. Amma Ramiqin adına layiq öğullar olacaq. Ataları kimi mərd, igid, dürüst, vətənsevər olacaqlar. Hal-hazırda

iki oğlum Kaspi kurslarının Lənkəran filialına gedir. Sağ olsunlar. Özləri bizi tapdı, maşın da ayırıblar. Uşaqlara ödənişsiz hazırlıq keçirlər. Onlardan çox razıyam. Heydər Əliyev fondu, Yaşat fondu dəstək olub. Övladlarıma təqaüd verilir. Dövlət yardımı da olub. Ev növbəsinə də götürüblər. Ölümündən sonra da qayğımıza qalır... Bircə Ramiqin yoxluğuna alışa bilmirəm...

Tanıyanlar yoxluğuna alışa bilmir Ramiqin. İlkin Xəlilov kimi.

İlkin də 1990-cı ildə Astarada dünyaya gəlib. O da ömrünü hərbiyə bağlayıb. Azərbaycan Ordusunda tank taqım komandiri kimi xidmət edir. Addım - addım, qarış - qarış, ölümün gözünə baxa - baxa qələbəyə gedən İlkin Xəlilovun dedikləri: Sözsüz bir insan idi. Yoxluğu çətindi. Silahdaşım, canyoldaşım, qardaşım olub. Heç kəsi darda qoymayıb heç vaxt. Döyüşdə də belə idi. Ən təhlükəli döyüşə birinci gedərdi. "Nə olsa, birinci mənə olsun" deyərdi. Rahatlıqla, əminliklə söykənə biləcəyin oğul idi. 2016-cı il aprel döyüşlərində birlikdə olmuşuq. "Vətən yolunda can qoymaq lazımdı" deyərdi. Ürəkli oğlan idi. Buna da hazır idi. Bilirsiz, belə oğullar haqda danışmaqla bitməz. Fikrimi necə ifadə edim ki? Gərək onunla birlikdə olasan, döyüşəsən ki, bu mərdliyi görəsən.

Onlarla döyüş yoldaşının şəhidliyini yaşayan İlkin bu xatirələrin ağırlığına da toxundu. "Çətindi" dedi.

Bir də "sağ olun ki, unutmursuz, onlar haqda yazırsız"- deyə birneçə dəfə təşəkkür etdi. Şəhidlərlə bağlı yazılara görə onların ailə üzvləri, dostları, döyüş yoldaşlarından təşəkkür eşitmək bir başqa əzabdı. "Biz onlara borcluyuq", "təşəkkür etməyin" kimi ifadələr işlətmək bu əzabı azaltmır, bayağı görünür.

Mən təşəkkür etmək istəyirəm, amma söz tapmıram. Onlara necə təşəkkür edim? 30 ilin yaralarına canını məlhəm edənlərə necə təşəkkür etmək olar?

"Ruhun şad olsun" deyirik hamısına. Bu ölkəni elə qorumalı, elə sevməliyik ki, ruhları şad, rahat olsun.

Şəkillərinə baxıram. Qəribə baxışları var Ramiqin. Elə bil danışır bu baxışlar: Sizə dövlət əmanət etmişik. Onu qoruyun. Başqa təşəkkür gərək deyil.



# İLKİN

Xanməmməd oğlu Kazımov

**04.08.1995 – 27.09.2020**

## GİZİR İLKİN KAZIMOV

İlkinin ilki Nazlımı qucağında oxşayaraq "Böyüyərəm hərbiçi olaram, atamı əvəz edərəm. İlham babanın (Ali Baş Komandan İlham Əliyevi nəzərdə tutur) əsgəri olaram. Yaxşı vəzifəm olar. Vətənə xidmət edərəm". - söyləyirdi Xanməmməd babası. Şəhid olan yeganə oğlunun qız övladı Nazlıma Vətən əsgəri kimi baxırdı böyük ürəkli ata. "Avqustda qızının ad günündə gəlmişdi. Demə son gəlişi idi. Tez-tez danışırdıq telefonla. Sentyabrın 26-da danışdıq. "Uşaqlardan muğayat ol" dedi. Demə bu da son zəngiymiş..." Arada ata göz yaşını gizləyə bilmir: - Məktəb illərindən hərbiçi olmağı arzulayıb. Hamıya "Hərbiçi olacam. Torpaqlarımızı azad edəcəm. – deyərdi. "Allah xeyir versin"- deyirdim. Nə deyim? Arzusuydu. Həqiqi Hərbi xidmətdən sonra yenidən getdi xidmətə. Gizir kursunu oxudu. Hərbidə qaldı. Ondan soruşardım ki, axı sənin işin nədi, neynirsən? Elə cavab verərdi ki, bayrağa and içmişəm, işlərim haqda heç nə deyə bilmərəm. Bizə heç nə deməzdi. Müharibə başlayandan hücumda olub. Kənddə başqa yerdəydim. Dedilər "evə get, İlkin gəlib"... O yol qurtarmadı mənim üçün, ölüm haqda düşünmək istəmirdim, amma havam çatmırdı. Bir də şəhid kimi döndü doğulduğu kəndə.

İlkin Xanməmməd oğlu Kazımov 1995-ci il avqustun 4-də Astaranın Artupa kəndində doğulub. Yaqub Ağayev adına Artupa kənd məktəbində təhsil alıb. Hələ şagird ikən hərbiçi olmağa qərar verib. 18 yaşından Vətənə xidmət edib. 7 il ləyaqətli vətən keşikçisi - Azərbaycan Silahlı Qüvvələrinin Quru qoşunlarının giziri olub.

Anası Həlimə xanım deyir ki, hərbiçiydi, narahat olurdum. Həmişə məni sakitləşdirərdi. Ana, sən narahat olma, bu torpaqdı, vətəndi, müharibə olsa, birinci gedəcəm. Mən getməyim, o getməsin, bəs necə olsun? Torpaqlarımız ermənidə qalsın? Mən burada rahat yaşaya bilmirəm onsuz da. Şəhid də ola bilərəm. Şəhid olsam, ağlama. Məni bu fikirə alışdırırdı balam... Müharibədən əvvəl 8 günlüyə məzuniyyətə gəlmişdi. 3 gün qalandan sonra gedirəm dedi. Nə olduğunu soruşdum. Bir problemmi var? “Ana, oğlun elə bir hərəkət etməz ki, sən narahat olasan. Sən həmişə başı dik gəzəcəksən oğluna görə”. Həmişə deyərdi ki, mən hərbiyə torpaqları azad etməyə getmişəm.  Məzuniyyətini axıra kimi qalmadı. Vətəni hamıdan çox sevirdi.

Son günəcən müharibə olacağını deməyib. 27-də səhərə yaxın həyat yoldaşı Aysel xanımla danışıb: Özündən, qızımdan muğayat ol. Əgər oğlum olsa, adını İlkin, qızım olsa İlkinar qoyarsan,  Heç nə deyə bilmədim. Dilim söz tutmadı... Üstümə bir ağırlıq çökdü. Hiss etdim ki, vəsiyyət edir. Son arzusunu, vəsiyyətini yerinə yetirdim. İlkinin heç vaxt görməyəcəyi qızımızın adını İlkinar qoydum...

Vətən azadlığı uğruna gedən savaşın ilk şəhidlərindəndi İlkin Kazımov.  Suqovuşan uğrunda Talış kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırıqlarını yerinə yetirən zaman şəhid olub.

“Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə”, “Laçının azad olunmasına görə” medalları ilə təltif olunub.

İlkinin ilki hələ dil açmayan Nazlımın atasının şəklini görərkən işıq saçan gözlərini, şəkli balaca dodaqlarına aparmasını unuda bilmirəm. Üzündəki sevinci unuda bilmirəm...

Ürəyimdən bir arzu keçir: Kaş şəhid balalarının gözləri həmişə belə işıq saçsın. Üzlərindəki sevinc azalmasın. Kaş ki, bu işığı, bu sevinci qoruya bilək.



# ORXAN

Sədail oğlu Babayev

**24.12.1994 – 07.11.2020**

## SEÇİLMİŞLƏRDƏN BİRİ ORXAN BABAYEV

1994-cü il dekabrın 24-də Astara rayonunun Kijəbə qəsəbə ərazi dairəsinə daxil olan Lovayin kəndində anadan olub. 2001 - 2012-ci illərdə A. Hidayətov adına Lovayin kənd tam orta məktəbində təhsil alıb.

Məzun olduğu 2012-ci ildə həqiqi hərbi xidmətə gedir Babayev Orxan. 2013 – cü ilin yanvarından Gəncədə Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçir.

Elə bu zaman da hərbiçi olacağına qərar verir.

Hərbidən ayrılmır Orxan Babayev. Daxili Qoşunların XTQ - də 8 illik xidməti zamanı peşəkar hərbiçi kimi hörmət qazanır, püxtələşir, öz işinin bilicisi olur.

Orxan kənd və qəsəbələrin, rayon və şəhərlərin azad olunması uğruna qızğın döyüşlərdə də öz peşəkarlığı ilə fərqlənir.

Milli Ordunun baş çavuşu olan Orxan Babayev 27 sentyabr 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə 7 noyabr tarixində şəhidlik zirvəsinə yüksəlir.

Füzuli, Xocavənd, Cəbrayıl, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmanlıqları olub Orxanın. Düşmənin neçə canlı qüvvəsini, hərbi texnikasını məhv edib atdığı qumbaralarla. Hər dəfə də "Sizin vəhşiliklərinizin qisasını alacağıma söz vermişdim" deyib...

1995-ci il aprelin 18-də Laçının Alxaslı kəndində anadan olub Fəxri Rəşid oğlu Əliyev. Daxili Qoşunların XTQ - də Orxan Babayevlə birlikdə xidmət edib. Vətən savaşında yaralanan Fəxri Əliyev səhhətiylə bağlı hazırda təqaüddədir: Onun haqqında keçmiş zamanda danışmaq mənim üçün çətindir. Orxan dost, ailəcanlı, qayğıkeş idi. Dayaq idi. Güvənc yeriydi. Bütün problemlərini onunla bölüşə bilərdin. Hər çətinlikdə yanında olardı. Mütləq kömək edərdi. Orxan güclü bir insan deməkdir. Onu 2014- cü ilin oktyabrından tanıyıram. Eyni yarımqrupda, eyni qrupda, eyni dəstədə olmuşuq. Yataqxanada eyni otaqda qalmışıq. Bir qurtum suyunu da bölüşərdi, hətta sənə verərdi. Çox savadlı, intizamlı hərbi qulluqçu olub. Xidmət vaxtı dəfələrlə fəxri – fərmanlar, təşəkkürnamələr alıb. Bircə dəfə də töhməti olmayıb. Ali Baş komandanın göstərişi ilə başlayan əks həmlə döyüşlərində Orxan bir daha özünün necə vətən oğlu olduğunu öz döyüşü, cəsarəti ilə sübut etdi. Şuşa əməliyyatları zamanı yaralanan yüksək rütbəli hərbi zabitimizi yoldaşları ilə birlikdə təxliyə etdi. Ümumiyyətlə, yaralıları çox xilas edib döyüş boyu. XTQ-də qumbaraatan idi Orxan. Çox can atırdı Şuşaya. Şuşada da mərmi partlayışı nəticəsində şəhid oldu.

Babayevlər ailəsində 4 oğul böyüyüb. Qardaşı Babayev Elvin deyir ki, Orxan həmişə fərqlənib. İndi də fərqləndi. Həm öz qardaşlarından, həm də yüzlərdən, minlərdən. Ölümü sarsıtdı. Özü həmişə deyərdi ki, hərbiçiyəm, vətən əsgəri kimi şəhid olmağı arzulayıram. Ermənilərin adını eşitməyə dözə bilmirdi. Yalnız müharibə arzulayırdı. Başımızı uca etdi. Şəhidlər təkcə özləri ucalmadı, bizi də ucaltdılar. Əslində bizim üzərimizə böyük məsuliyyət qoydular. İndi biz bu ucalığa layiq olmalıyıq.

Haqlıdır Elvin. Şəhidlərimizin qalxdığı zirvə hər kəsə nəsib olmur. Hər kəs o ucalığa qalxa bilmir. Ünsiyyətdə olduğum, söhbətləşdiyim müharibənin ağrı – acısını yaşamış döyüşçülər, qazilər hamısı bir fikir deyirdi ”Şəhidlər seçilmişlərdi”.

Qəhrəman baş çavuş Orxan Sədail oğlu Babayev də onlardan biri idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən “Vətən uğrunda”, 29.12.2020-ci il tarixli Sərəncamına əsasən “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.



# RAMİN

Muxtar oğlu Əliyev

**04.02.1977- 30.09.2020**

## QÜSURSUZ VƏTƏN ƏSGƏRİ

Astaranın Maşxan kəndində 4 fevral 1977-ci ildə anadan olub.

Bibisi Səriyyə xanımın övladı olmadığından Ramini övladlığa götürüb, boya-başa çatdırıb.

1983-cü ildən Əfqanıstan müharibəsinin şəhidi Nizami Əliyev adına Maşxan kənd tam orta məktəbində oxumağa başlayıb. 1994-cü ildə həmin məktəbi bitirib.

Rus dili müəllimi Laçın Cəfərovun dedikləri: Mən Ramini məktəbli olandan tanımışam. Bu gün onun təkcə şəhid kimi deyil, ləyaqətli şəxsiyyət kimi də qarşısında baş əyirəm. Çox dəyərli, tərbiyəli, təmkinli, mərd idi Ramin. Şərəfimizi özümüzə qaytaranlardan biri oldu. Hər birimiz bir gün öləcəyik, amma biz öləndə dövət himni səslənmir. Bir şəhidin məzarı önündəsə himnimiz səslənir. Bundan böyük nə ola bilər?

Səriyyə xanım onun məktəb illərini ömrünün ən xoşbəxt günləri hesab edir. -Həyatım onda idi. Çox mərd, zəhmətkeş, çalışqan idi. Hərbini seçdi. Hərbiçi olduğundan, az-az görürdüm onu. Hər gəlişi bayram idi mənim üçün. İşini çox sevirdi. Sonda yenə məni tək qoydu" - deyir Səriyyə xanım.

1995-ci ildə həqiqi hərbi xidmətə çağrılıb. Həqiqi xidmətini XTQ-də keçib. 199-ci ildə xidmətini başa vuran Ramin Əliyev hərbi xidmət dövründə heyətin diqqətini çəkir, hörmət qazanır. Özü də hərbini sevir və vətən əsgəri olmağa qərar verir. 13 il Xüsusi Təyinatlılarda xidmət-

dən sonra Milli Orduda tank vuranlar taqımına keçir və Ağdamda hərbi xidmətinə davam edir.

Ramin Muxtar oğlu tank eleyhinə silahların bilicisi idi.

Bacısı Dilguşə xanım: Konu Raminsə, haqqında günlərlə danışaram, sözüm bitməz. Konu Raminsə dürüstlük, vicdan düşünərsən. Konu Raminsə ürəyim sızlayır, gözüm ağlayır, həm də qürurlanıram qardaşımla.

30 sentyabrda Azərbaycan Silahlı Qüvvələrinin sırasında Ermənistanın işğalında olan ərazilərimizin azadlıq savaşında igidliklə döyüşüb.

30 sentyabrda şəhid olub.

Döyüş yoldaşı Rüstəm Vəliyev: Şəhidlərimiz hamısı bizim üçün əzizdir. Döyüş meydanına gedən hər bir kəs evinə şəhid kimi dönə bilər - Ramin kimi. Gözümün qarşısında olub, necə döyüşdüyünü gözlərimlə görmüşəm. Dəfələrlə onun igidliyinin şahidi olmuşam. Belə oğullar böyüdənlər var olsun. Biz həqiqətən dəmir yumruq olduq Ramin kimi oğulların sayəsində. Hər şəhid xalqımızı daha da birləşdirdi Ali Baş Komandanın ətrafında. Xalqımızın birliyini hiss etmək başqa bir duyğuydu. Bunu duyub yaşayırdıq. Bu duyğunu bizə Raminlər yaşatdı.

Azərbaycan Ordusunun baş çavuşu Ramin Əliyev Murovdağ uğrunda ağır döyüşlər zamanı şəhidliyə qovuşub.

"Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb. Xidmət dövründə neçə-neçə təşəkkürnamə, fəxri-fərmanları var Ramin Muxtar oğlunun.

Ona "qüsursuz vətən əsgəri" deyirdilər hərbiçi yoldaşları.

2 övladı böyüyür.

Ömrünün 25 ilini hərbidə xidmət edib.

Hazırda Laçında kəşfiyyat taqımının komandiri kimi təqaüdə çıxan XTQ-in baş giziri olan Valeh Bəşir oğlu Aslanov dostu haqqında danışdı: Birlikdə xidmət keçmişik Ramin Əliyevlə. Qeyri-adi hərbiçi idi. Fikrimizi sözlə deyirik. Ramin hərbiçi kimi öz sözünü silahı ilə deyən bir zabit idi. Çox cəsur idi. Tank əleyhinə silah atıcısı idi. Bir düşmən tankını gözdən qaçırmazdı. O gözümün qarşısında olub həmişə. Aprel döyüşlərində də mərdliklə döyüşdü. Yaralanmışdı, amma onu döyüşdən çıxara bilmədilər. "Sona qədər döyüşəcəyəm" dedi. Onda da şəhidliyi gözə almışdı. Ölümdən qorxmurdu, qorxmurduq... Hərbiçiyik, deməli, hər an döyüşə, ölkən üçün candan keçməyə hazırıq. Şəhidlik bütün rütbələrdən ucadı.

Bu vətən sevgisidi. Ramin kimi, Valeh kimi oğulların Vətəni yaşadan sevgisi!



# SAMİQ

Rizvan oğlu Rəhmənov

**03.01.1990 – 25.10.2020**

## HƏMLƏ TABORUNUN DÖYÜŞÇÜSÜ

Samiq Rəhmənov həmlə taborunun döyüşçüsü idi. Bunun nə olduğunu hərbiçilər yaxşı bilir. Ata isə bilmirdi...

-Həmlə taborunda olub. Mən heç bilmirdim bu nədi. Demə öndə olanlardı. Həmişə hücuma keçənlərdi. Yəni ölümə imza atanlardı.. Oğlum birinci hücum edənlərdən olub. Qorxmaz idi mənim oğlum. Öləcəyini bilsə də öndə gedərdi - qürurluydu həm də Rizvan kişinin kövrək, təmkinli səsi...

Dərdi səsdə görmək ağırdı. Bu dərdin içindən qürurla baxmağı hamı bacarmaz.

Rizvan Rəhmənovun iki oğlu var. İkisi də hərbiçidi. "Dayısı da hərbiçi olub. Həqiqi Hərbi xidmətdən qayıtdı evə. Bir müddət keçəndən sonra dayısına deyib ki, kömək elə sənədlərimi hazırlayım, hərbiçi olmaq istəyirəm. Çox istəyirdi hərbiçi olsun" – dedi ata.

Azərbaycan Ordusunun çavuşu Samiq Rizvan oğlu Rəhmanov 1990-cı il yanvarın 3-də Səncərədidə anadan olub. 2008-ci ildə Elman Ağayev adına Səncərədi kənd tam orta məktəbini bitirib.

Füzulinin kəndləri uğrunda çətin döyüşlərdən keçib. Düşməndən azad olunan Füzulinin Əmirxanlı kəndində ilk bayrağı qəhrəmanımız Samiq qaldırıb.

Oktyabr 10-da döyüşlərdə qəlpə yaraları alıb Samiq. Onu əməliyyat üçün hospitala göndəriblər. İgid döyüşçümüz hospitalda qalmayıb,

əməliyyatdan imtina edib: “Əməliyyat olsam, burda qalmalı olacam. İndi xəstə kimi yatmaq zamanı deyil. Mən döyüşməliyəm” - deyib. Həkimlərin etirazına baxmayaraq cəbhəyə qayıdıb.

Həyat yoldaşı Dünya xanımla sonuncu görüşləri də hospitalda olub: Son dəfə hospitalda müalicə alarkən görmüşəm onu. Mənə ancaq “möhkəm ol” deyirdi. Orda da qalmadı. Yaralı olmasına baxmayaraq müharibəyə döndü. Çox qayğıkeş idi. Diqqətliydi. Doğmalarına, ailəsinə hədsiz bağlı olsa da, Vətən sevgisi daha güclüydü. Həkimlər də onu saxlaya bilmədi. Getdi. Bu son görüşümüz oldu.

Lələtəpə döyüşlərinin iştirakçısı olan, cəsurluğu ilə seçilən, yaddaşlarda qalan Samiq Rəhmənovun Vətən müharibəsindəki döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlıda davam edib. Cəbrayıl döyüşlərində yenidən ayağından yaralansa da xəstəxanaya getməkdən imtina edib.

Addım-addım, qarış-qarış azad olunurdu torpaqlarımız. Düşmənlər hərbi texnikasını, silah-sursatlarını qoyub qaçırdı. Düşmənlərin meydanda qoyub qaçdığı pulemyotla 20-dən artıq düşməni məhv edir. Elə həmin döyüşdə də oktyabın 25-də mərmi partlayışından şəhid olur baş çavuş Samiq Rəhmənov.

Samiqin Aylin və Fədayə adında iki qız övladı böyüyür.

Rəhmanovlar ailəsinində də iki oğul böyüyüb: Samiq və Ramiq. Hər ikisi hərbiçidi. Bir oğlu şəhid olan, sağlamlığında problem yaranan ata Ramiqin xidmət yerinin dəyişməsi üçün vitse-Prezident, birinci xanım Mehriban Əliyevaya müraciət edib. Gəncədə xidmətdə olan gizir Ramiq Rəhmanovun xidmət yeri dəyişdirilib. Ramiq indi Astarada Hərbi Dəniz Donanmasında xidmət edir.

- Heç vaxt hərbiçi olmağımıza görə peşmanlıq yaşamadıq; nə özümüz, nə doğmalarımız. Qürur duyuram qardaşımla. Şəhidlik də hamıya nəsib olmur. Bir an belə düşünmədən, tərəddüdsüz vətənim Azərbaycan üçün şəhid olmağa hazıram, – dedi Ramiq.

Kövrəldim Ramiqin bu sözlərindən. Duyduğum qürurdan, vətən sevgisindən dolan gözlərimi silmədim. Qoy gözlərimizdən qürurlu Vətən sevgisi səpilsin hər yana.



# PƏRVİN

Təbriz oğlu Salmanzadə

**17.03.1991 – 06.11.2020**

## 702 SAYLI H/H-NİN ASLANI

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, çavuş Pərvin Təbriz oğlu Salmanzadə 1991-ci ildə Astara rayonunun Pensər kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən savaşında iştirak edib, noyabrın 6-da qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Pərvin Salmanzadə ailədə üç bacının tək qardaşı olub. 2008-ci ildə Astara rayonu Mirzə Fətəli Axundov adına Pensər kənd 1 saylı tam orta məktəbini bitirib, 2009-cu ildə Astara rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2011-ci ildə hərbi xidmətini başa vurduqdan sonra zəhmət dolu həyatını yaşayıb. Fəhləlik edib, təsərrüfatla məşğul olub, bir müddət "Azpetrol LTD" MMC-də işləyib, ailəsinə dayaq durub.

Pərvinin ən böyük arzusu hərbiçi olmaq idi. Buna görə də bir neçə dəfə xidmət üçün sənəd verib. 2020-ci ildə sənədlərini yenidən təqdim

edib. Bəlkə, məhz 2020-ci ildə azadlıq savaşının olacağını hiss edib Pərvin? Bacısı deyir ki, elə bil, ürəyinə dammışdı. Əvvəlki illərdə də orduda xidmət üçün müraciət etmişdi, amma alınmadı. Sonacan istəyindən dönmədi.

Nəhayət, 2020-ci ildən Pərvin Salmanzadə müddətdən artıq həqiqi hərbi xidmətə başlayır. Çevikliyi, məsuliyyəti ilə seçilir.

Dostu Vasif Nuruzadənin dediklərindən: Pərvinlə 2020-ci ildə birlikdə hərbidə olmuşuq. Çox etibarlı dost idi. Hamıya kömək etmək istəyirdi. Müharibə olacağını biləndə həyəcanlananlar da, qorxu hissi keçirənlər də vardı. O isə sevinirdi. Pərvinin şən əhvalı, zarafatları elə ab-hava yaradırdı elə bil, müharibəyə yox, bayrama gedirik. Biz qələbəyə inanırdıq. Azad olan hər qarış torpaq üçün sevinirdik. Bu savaşda ancaq Pərvin kimi ürəkli oğullarla qalib ola bilərdik. Onu döyüşlərdə görmək lazım idi. Aslan kimi irəliləyirdi. Çox qəribədir, Şuşa uğrunda döyüş əməliyyatı başlamadan öncə “Rahatam, Şuşanı da azad edəcəyik. Ölümdən də qorxmuram, çünki torpaqlar azaddır” dedi. Hücumdan əvvəl bütün paltarlarını dəyişdi. Sanardın bayram paradına gedirik. “Şuşanı alacağıq, şəhid olacam, üstüm-başım təmiz görünsün, pinti olduğumu düşünməsinlər”- deyib zarafat da elədi. Hücum zamanı bir az aralı düşdük. Güllə yağırdı. Onun yaralandığını gördüm. Yanına qaçdım. Güclə nəfəs alırdı. Son nəfəsində “Bircə balalarımdan nigaranam”- dedi.

Pərvin döyüş yoldaşlarının, komandirinin yaralandığını görür. Yanındakı əsgərlər “Təhlükəlidir, bir az gözlə” desələr də, Pərvin dayanmır, onların yanına gedir, yaralı döyüşçüləri xilas edir. Sonra komandirini qorumaq üçün özünü onun üstünə atır. Onların həyatını qurtarsa da, qəlpə öz ürəyinə sancılır...

2020-ci ilin 27 sentyabrı idi, Vətən savaşı başlayacaqdı. Həmin gecə bu xəbərin sevincini bölüşüb ailəsiylə: “Ana, yaxın günlərdə hamınızı sevindirəcəyəm. Bütün xalqımız sevinəcək. Özünüzə yaxşı baxın”.

Pərvin İkinci Qarabağ savaşının ilk günündən igidliyi, cəsurluğu ilə

fərqlənir, Füzulinin, Cəbrayılın kənd-kənd azad olunması uğrunda ən ağır döyüşlərin iştirakçısı olur, Ağdərə, Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərir, düşmənin onlarla canlı qüvvəsini, tankını məhv edir.

Təbiətən çox şən, zarafatcıl insan olan Pərvin döyüş zamanı ən çətin anlarda belə yoldaşlarını ruhdan düşməyə qoymazdı. Hər gün cəbhədən ailəsinə, dostlarına, uşaqlarına zəng edər, yenə də zarafatlarından geri qalmazdı. Bütün tanışları onun çox nikbin olduğunu deyir. Hətta savaşa yola salan dostlarına, doğmalarına “Bütün kəndləri, rayonları azad etməyə gedirəm” deyibmiş...

Anası Nərminə xanımın dedikləri: Balam çox ailəcanlı idi. İmkan olan kimi zəng edərdi. Yenə zəng gəldi. “Balalarımdan muğayat olarsan”, dedi. Sonra halallıq istədi. Hardan biliəydim ki, son zəngidir. Demə, Şuşaya gedirmişlər. “Sən halallıq ver, ana. Vətəndən də halallıq alacağam”. Son sözləri bu oldu qeyrətli balamın.

Çavuş Pərvin Salmanzadə 2020-ci il noyabrın 6-da Şuşa şəhərinin azad olunması uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmanca şəhid olur. Döyüş yoldaşları deyirlər ki, hücum zamanı şəhid olsa da, elə bilirdik, bizimlədir, Şuşanı məhz Pərvin azad etdi.

Doğulduğu Astara rayonunun Pensər kəndində Seyid Cəmaləddin türbəsində torpağa tapşırılan Pərvin Salmanzadə övladlarını xalqımıza əmanət qoydu.

Pərvin son anda əlini Şuşaya uzadaraq, ona kömək etmək istəyən əsgər dostlarına deyib: “Bilirdim Şuşa bizimdir”. Sonra “üst-başım təmizdirmi?” soruşaraq, “təmiz yaşamaq, təmiz ölmək yaxşıdır”, deyib gülümsəyərək həyatla vidalaşıb.

Təmizliyə qovuşmaq istəyirdi Pərvin. Bəlkə, bizə də “Təmiz yaşayın, təmiz ölün” demək istəyirdi… Bunu sözlə yox, canını dövləti uğrunda güllələrə sipər edərək göstərdi.

Təmizliyin zirvəsinə qalxdı Pərvin Salmanzadə.



# NURLAN

Əlövsət oğlu Rəhimov

**22.11.1981 – 30.09.2020**

## MÜBARİZƏ İLƏ QAZANILAN HƏYAT

30 sentyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb.

Deyirlər "həyat mübarizədir". Məncə, mübarizə həyatdır. Həyat mübarizəylə qazandıqlarındı. Qalib olduğun anlar, günlər, aylar, illərdi.

1981-ci il 22 noyabrda Astarada dünyaya gələn Nurlan Əlövsət oğlu Rəhimov həyatını mübarizəsiylə qazanıb.

Hamı kimi uşaq olub, sonra 1988-1999-cu illərdə şəhid Şıxəli Qasımov adına Astara şəhər 4 saylı tam orta məktəbdə oxuyub.

2000 - 2002-ci illərdə həqiqi hərbi xidmət keçib.

Həqiqi Hərbi xidmətdən sonra müxtəlif işlərdə çalışıb.

2008-ci ildə ailə həyatı qurub. Səbinə xanımla xoşbəxt günlər yaşayıb.

-Hər kəsin öz həyatı, sevgi hekayəsi, nağıl dünyası var. Mənim həyatımın, sevgimin, bütün nağıllarımın qəhrəmanı Nurlan olub. 12 il ömür yaşamışıq birlikdə. Əvəzsiz həyat yoldaşı, ən qayğıkeş ata idi. Mənə namaz qılmağı, quran oxumağı öyrədib. Elə gözəl səsi vardı. Elə gözəl Quran oxuyurdu. Son dəfə döyüşdən əvvəl danışdıq. Səngərdə şəkil çəkdirib göndərmişdi. Bilmədim ki, bu onun son şəklidi. Həmişə onunla fəxr etmişəm. Hərbiçi olduğu üçün də fəxr edirəm, şəhid olduğu üçün də... Amma çətindi. Onsuz ağırdı mənə. Döyüş yoldaşlarından xahiş etmişdim son döyüş yerindən torpaq gətirsinlər. Sağ olsunlar, gətirdilər. Məzarına tökdüm bir az.

2012-də oğlumuz, 2015-də qızımız oldu. İki övladımız olmasına baxmayaraq hərbiyə getmək üçün sənəd verdi.

Uğur arzuladım. Həmişə hərbiçi olmaq istədiyini bilirdim. Ustaydı, bütün tikintilərdə olurdu. Həm də gözəl xörəklər bişirirdi. Döyüşçülərini çox sevirdi. Hətta xəstə olan, özünü narahat edən əsgərlərin yerinə posta gedirdi.

Beləydi Azərbaycan Ordusunun kiçik çavuşu Nurlan Rəhimov: qayğıkeş, mərd, qorxmaz, sevgi dolu.

Xoşbəxt ailəsi olub. Yenə də özünü tam hiss etməyib, ürəyində arzusu vardı: hərbiçi olmaq.

Anası Rəhimova Səidə xanım deyir ki, 30 sentyabr günorta zəng vurdu, "hardasan" soruşdum. Savaşda olduğunu söyləmədi, "sakit yerdəyəm, hər şey yaxşıdı" dedi. Müharibə başladığını eşitmişdik. "Oğlum, deyirlər müharibədi, özündən muğayat ol". "Yox, narahat olma. Sadəcə uşaqlarla danışmaq istəyirəm". Səsi elə şən gəlirdi inandım. Heç vaxt yalan danışmazdı mənim oğlum. Bircə müharibədə olduğunu gizlətdi. Çox bacarıqlıydı, yaxşı ustaydı, dadlı yeməklər bişirərdi. Təzə kazarmanın tikintisində də işləmişdi. Arada əsgərləri üçün yemək hazırlayardı. İndiyə kimi bizi aldatdığına inana bilmirəm. Heç yalanını görməmişdim. Müharibə olduğunu hamı bilsə də, dəfələrlə soruşdum, demədi. Səngərdən danışırmış. İndi də onun o şən, sevincli səsi qulağımdadı.

Sevinc xanım Nurlanın böyük bacısıdır: 5 il hərbi xidmətdə olub. Sonra müharibədə. Boyun olmadı ki, müharibədədir. Danışanda güllə səsi eşidirdim. "Mən sakit yerdəyəm. O "canavarlarımızdı, öndə döyüşürlər"- deyirdi. Səsində elə rahatlıq olurdu inanırdım... Çox yaxşı qardaş idi. Amma "kaş mən də şəhid olaydım" sözünü də demişdi...İndiyəcən səsi qulağımdadı.

Nurlanın, onun kimi oğulların səsi qulaqlarımızda qalacaq.

Kiçik bacı da qardaşından danışdı: Mən hərbiçi olduğu üçün onunla fəxr edirdim. Hərbiçilər dövlətin, torpağın, xalqın keşikçisidir. Onun üçün bu ali bir iş idi. Komandiri ilə son döyüşdə eyni səngərdə olub. Oradan şəkil çəkdirib göndərmişdi, sonuncu dəfəymiş...

Nurlan ən məsuliyyətli, peşəkar hərbiçilərdən idi. Özünü hərbiçi kimi, insan kimi borclu bilirdi Vətənə. Öz borcunu verdi Nurlan şərəfli ömrü ilə.

Torpaqlarımızın azad olunması uğruna döyüşlərdə göstərdiyi igidliyə görə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.



# TELMAN

Təyyar oğlu Nəhmətov

**29.04.1990 – 31.10.2020**

## "SPETSNAZ" LƏQƏBLİ TELMAN NƏHMƏTOV.

Onu "Spetsnaz" ləqəbi ilə tanıyırdılar.

Müddətli hərbi xidmətini Hava Hücumundan Müdafiə qüvvələrində keçib. Həqiqi hərbi xidmətdən sonra doğma kəndə qayıtsa da, hərbiçi olmaq arzusu rahatlıq verməyib. Yenidən hərbi xidmət üçün sənəd verib, müqavilə ilə Hacıqabulda 3 il milli çevik alayında, daha sonra 3 il Beyləqanda Daxili qoşunlarda xidmət edib. Müqavilə müddəti bitsə də Telman hərbidən ayrıla bilməyib və yenidən 5 illik müqavilə ilə Milli Orduda xidmətə başlayıb.

İdmanla məşğul olub. Boks üzrə Respublika 3-cüsü kimi də fərqlənib.

Bahadur Qənbərov Telmanla birlikdə Hacıqabulda xidmət edib: Adam çoxdu, insan deyə biləcəyimiz az. İnsan idi. Hərbiçi kimi hərbiçi, dost kimi dost... Həmişə öndə olmağı arzulayırdı. Sərhəd bölgələrində olmaq istəyirdi. Ona görə Milli Orduya keçdi. Bütün silahlardan ustalıqla istifadə edirdi. Peşəkar kəşfiyyatçıydı. İkinci Qarabağ savaşında da qəhrəmanlıqları çox olub. Ən az itki ilə döyüşməyi bacarırdı. Minamyotların tərəfini hiss edirdi. Çox həssas idi hərbiçi kimi də, dost kimi də. O, həmişə ürəyimdədi.

Nəhmətov Tərlan Telmanın böyük qardaşıdır: Uşaqlıqdan idmanla məşğul olurduq. Ov etməyi də sevirdi. Ən ağır işləri görərdi. Çətinlikdən qorxmazdı. Ona görə hərbini seçdi. Əsgərlikdən gələndən sonra

burda qala bilmədi. Yenidən getdi. Müxtəlif növ hərbi texnikanın, nəqliyyat vasitələrinin idarə olunmasını, silahlardan istifadə etməyi öyrənmişdi. Çox sevirdi işini. 7 il hərbi xidmət keçəndən sonra müharibə başladı. Arada zəng edirdi. İki dəfə ölümdən qurtardığını demişdi. Hərbiçi olmağı, şəhid olmağı arzulayırdı. Əsgərlərə tapşırıb ki, şəhid olsam, qardaşıma zəng edin. 31-də saat 5-6 radələrində mənə zəng gəldi. Telefonda kimsə kəsik-kəsik danışır, ağlayır, ətrafdan da ağlayanların səsini eşidirdim. Dedim "danışa bilən birinə ver telefonu". Sonra komandiri ilə danışdım...Şəhid olmuşdu qardaşım. Arzusuna çatmışdı...

Azərbaycan Ordusunun kiçik çavuşu snayper kursunu da bitirib. Ən peşəkar snayperçilərdən olub. Aprel döyüşlərində də çox igidliyi ilə yadda qalıb Telman Təyyar oğlu. Füzuli, Suqovuşan, Zəngilan, Xocəvənd uğrunda mərdliklə döyüşüb. Şuşaya gedəcəyinə inanıb həmişə. Bu ona qismət olmadı. Hadrutda Tuğ kəndində şəhid oldu.

Telman Təyyar oğlu Nəhmətov Astaranın Səncərədi kənd ərazi dairəsinin Alaşa kəndində 1990-cı il 29 aprelində dünyaya göz açıb. Doqquzillik təhsilini Alaşa kənd məktəbində alıb. Onbirillik təhsilini isə Birinci Qarabağ döyüşlərinin şəhidi Elman Ağayev adına Səncərədi kənd tam orta məktəbində başa vurub. Telman uşaqlıqdan zəhmətsevərliyi, çalışqanlığı, cəsarəti ilə seçilib. Yurdu Azərbaycanı sevib. 31 oktyabrda 2020 - ci ildə başından aldığı yaradan şəhid olan Telman Nəhmətov doğma Alaşa kəndinin torpağına qovuşub.

Alaşa kəndinin dini icma sədri Təyyar Nəhmətov oğlundan çox qürurla danışırdı: Qorxmaz idi mənim oğlum. Adımı daşıyan nəvəm Təyyar da atasının adına layiq olacaq. Oğlunu bizə tapşırıb getmişdi. Şəhid olmağı gözə almışdı. Bir vətəndaş üçün torpaq, dövlət yolunda şəhid olmaq müqəddəslikdi. Dinimizdə də belədir. Elə bil allah onu hərbiçi yaratmışdı. İnanıram ki, heç kim bizimlə müharibə etməz bir daha. Müharibə yaşamaz Azərbaycan. Oğullarımızın cəsarətini, gülə-gülə ölümə getdiyini gördü bütün dünya. Ölüm deyil şəhidlik, ölməzlikdi. Ölümdən qorxmazdı oğlum. Ayağından, qolundan yaralansaydı, ölümə can verməzdi. Lap bədəninin bir parçasını da kəssən, ölməzdi. Heç kəs ölümünə inanmırdı. Onu başından vurublar. Döyüş yoldaşlarının dediyinə görə vurulanda yerə oturub, onlara baxıb gülüb. Gülə - gülə də gedib bu dünyadan.

Əslində yenidən doğuldu gülüşüylə Spetsnaz Telman. Gülə-gülə doğuldu. Ağlayan torpaqlara gülüşünü qaytardı.



# MƏHƏMMƏD

Cavanşir oğlu Babazadə

**05.05.1995 - 28.09.2020**

## MİKRAFONU TANKA DƏYİŞƏN OĞUL

Məhəmməd Cavanşir oğlu Babazadə 1995-ci il mayın 5-də Astaranın Marzəsə kəndində həyata gəlib.

2001-2012-ci illərdə Siyəkü kənd məktəbində təhsil alıb. Məhəmmədin gözəl səsi vardı. Lənkəranda musiqi məktəbində oxuyurdu. Müğənni olmaq istəyirdi. Həqiqi hərbi xidmətdən sonra fikrini dəyişdi. “Torpaqlarımız işğaldadı, əlimə mikrafon alıb orda-burda oxuya bilmərəm, bizə hərbiçi lazımdı”, - deyərək hərbiçi olmağa qərar verib. Yüngül mikrafonu ağır silaha-tanka dəyişib.

2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında Balakəndə müddətli həqiqi hərbi xidmət keçib. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra, qərar verdiyi kimi, 2016-cı ildən Beyləqanda könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Sonra hərbi kurslarda oxuyaraq tankçı olmağı seçib.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Məhəmməd Babazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğruna başlanan Vətən müharibəsinin ilk hücum iştirakçılarının sırasında olub.

Hücum zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərib. Məhəmməd Babazadə sentyabrın 28-də Füzuli uğruna döyüşlərdə şəhid olub.

Astara rayonunun Marzəsə kəndində dəfn olunub.

23-də zəng edib anasıyla danışanda "Bakıdayam, bir aylıq kursdayam" deyib. Sonuncu dəfə sentyabrın 27-də anasına zəng edib: Bakıda yaşayan xalasıgildə olduğunu, hələ kursun bitmədiyini söyləyib. Ondan əvvəl xalasıyla danışaraq, "yalan"ını gizləməsini xahiş edib..

Oğlunun müharibədə olduğundan bixəbər olan Gülxarə ana qəfildən onun şəhid xəbərini alır.

Atası Cavanşir 2018-də xərçəng xəstəliyindən dünyasını dəyişib. Ailənin yeganə oğlu, 3 bacının – Arzunun, Pərvinin, Günayın qardaşı idi Məhəmməd.

Bacısı Arzuyla danışıram."Ürəyinizdən keçənləri deyin"- deyirəm. Başqa söz tapmıram.

"Ürəyim ağzına kimi doludu. Nə deyim, necə deyim, bilmirəm. Həyatımız alt-üst oldu. Ailənin kiçiyi idi. Mən ailənin ilk övladıyam. 9 yaş məndən kiçikdi Məhəmməd. Mənim üçün həmişə uşaq olub o. Heç böyüməyib gözümdə. Demə çox böyük ürəyi varmış. Demə böyüyübmüş mənim kiçiyim. Sentyabrın 23-də zəng vurdu. Bakıda kursdayam dedi. Arada gedirdi, inandıq. Demə müharibə olacağını bilirmiş. Bizi nigaran qoymaq istəməyib. 27-də danışanda da "mən kursdayam" dedi. 3 bacı və ananı necə narahat edərdi mərd ürəklim?. Vətən birinci idi onun üçün. Musiqini, oxumağı sevirdi, amma seçmədi. Şəhidliyi seçdi". Bunları söyləyir Arzu...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu, döyüş tapşırıqlarını şərəflə yerinə yetirən ərənimiz Məhəmməd Babazadə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə" medalına layiq görülüb.

Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında şəxsi igidliyi və şücaəti ilə seçilib. Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı verilib.

Elə şücaəti, igidliyi ilə qalıb yaddaşlarda Məhəmməd. Vətəninin ərazi bütövlüyü uğrunda canından keçən "Vətən uğrunda" medalına layiq görülən igid qanı ilə yazıb adını Vətən tarixinə.




# SADİQ

Kamal oğlu Zeynalov

**19.09.1998 – 25.10.2020**

## KƏŞFİYYATÇI SNAYPERÇİ SADİQ ZEYNALOV

Ərçivanın insanları çox mehriban, ailəcanlı, dostcanlı, mərddilər. İkinci savaşda 9 şəhid verib bu kənd. Cavanları indi də Vətənə xidmətə hazırdır. Azərbaycan Silahlı qüvvələrinin kiçik çavuşu Sadiq Kamal oğlu Zeynalov da hər an vətən üçün şəhid olmağa hazır idi.

19 sentyabr 1998-ci ildə Astaranın Ərçivan qəsəbəsində anadan olub. Ərçivandakı 4 saylı tam orta məktəbdə təhsil alıb.

25 oktyabr 2020-ci ildə Qubadlı uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ailənin yeganə oğlu Sadiq Zeynalov uşaqlıqdan mehribanlığı ilə dost-tanışın, qohum-qardaşın sevimlisi olub. Bir bacısı var Məleykə adlı: O tək qardaşım deyildi ki...Dostum, sirdaşım idi. Məndən əvvəl getmişdi məktəbə, qələm tutmağı da o öyrədib mənə. Yoxluğu o qədər ağırdı ki... Sadiqdən sonra sağlamlıqlarında ciddi problemlər yaranan ata-anamı ovutmaq da var hələ. Sadiq güvən yerim idi. Hamıya qarşı diqqətliydi. O bir dost, bir qonşu üçün hər şeyə hazır idi. O ki qala vətən – deyir Məleykə.

Anası Elmira xanımın söylədikləri: Uşaqlıqdan istəyirdi ailəyə dayaq olsun. Hey deyərdi ki, siz çox əziyyət çəkmisiz, böyüyüb özüm

sizə baxacam. Onun hər istəyini yerinə yetirməyə çalışırdım. Hərbi xidmətdən sonra o sahəyə getmək istədi. Əslində narahat oldum. Tək oğlum idi. “Ana, vətən əsgəri olmaq çox şərəflidi. Kişi hərbiçi olar” dedi.

Sonuncu dəfə 24-də zəng edib, atası ilə danışıb. Mən namaz üstə olmuşam. Deyib “anama denən haqqını halal etsin”. Tər basdı məni. Niyə belə deyir görəsən? Həmişə “hər şey yaxşıdı” deyərdi. İndi niyə belə deyir? Atası “Müharibədi, başqa nə desin? Hər şey ola bilər” dedi sakitcə. “İrəli gedirik”- deyirdi. Başqa heç nə. Nə deyim? Bütün şəhid analarına səbr diləyirəm. Övladlarımız bizə qürur yaşadıb, utanc verməyib ki? Mən elə bütün şəhidlərin anasıyam.

Sadiq 2016-2018-ci illərdə Naxçıvanda həqiqi hərbi xidmətdən qayıdandan sonra bir müddət işləyib. Hərbiçi olmaq arzusu ona rahatlıq verməyib. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq hərbi xidmət üçün müraciət edib. Nəhayət istədiyi olub.

27 sentyabr 2020-ci ildə başlayan Vətən savaşında çox igidlik göstərib. Məharətli snayperçi Cəbrayıl, Füzuli, Qubadlının azadlığı uğruna döyüşüb.

Hələ həqiqi hərbi xidmətdə olanda kəşfiyyatçı kursunu oxuyan ərən “Vətən uğrunda”, Cəbrayılın, Füzulinin azad olnmasına görə medalları ilə təltif edilib.

Şəhidin dostu Əsədullayev Fəqan: Bir yerdə olmuşuq həmişə. Qonşuyuq, bir yerdə məktəbə getmişik, bir sinifdə oxumuşuq, əsgər getmişik. O yenə Naxçıvana hərbi xidmətə qayıtmaq istəyirdi. Çox hörmət qazanmışdı orda. Beyləqana düşdü. Müddətdən artıq xidmətə yollandı.  Tez-tez danışırdıq, telefonla əlaqə saxlayırdıq. 26 sentyabrda zəng etdi: “Hamınız haqqınızı halal edin. Bəlkə bilmədən xətrinə dəymişəm. Mən gedirəm”- dedi. Başqa heç nə. Ondan inciyən olmayıb. Çox gülərüz, şən idi. İstiqanlıydı. Sadiq idi həqiqətən, adı kimiydi. Şəhid Sadiq Bağırzadəgilə getmişdik. Həmin gün zəng gəldi, bu Sadiqin də şəhid olduğunu eşitdik.

Yusifov Amid: Qardaş idi. Müharibədə, güllələrin altında belə ha-

mını axtarırdı. Heç kimi diqqətsiz qoymazdı. Yaralanıb, amma hospitala getməyib. “Döyüş yoldaşlarımı qoyub gedə bilmərəm. Bizim qızıl kimi oğlanlarımız şəhid oldu. Nə qədər sağam o ermənilərə yaşamağa imkan verməräm” deyib. Belə cəsur, qorxmaz oğul idi.

Döyüşlərdə iki dəfə minaya tuş gəlib Sadiq Zeynalov. Birinci partlayışda huşunu itirib, iki gün minanın yaratdığı çuxurda qalıb. Onu tapanda sağ olmadığını düşünüblər. Öz taboruna aparıblar. Özünə gələn Sadiqi hospitala yollayırlar. Bir-iki gündən sonra yaralı olmasına baxmayaraq yenidən döyüşə qayıdır, xəstəxanada qalmaqdan imtina edir.

Hacıyev Milad: Çox özəl biri idi. Dayım oğlu Sadiq Bağırzadə ilə dost idi. Onun hüzüründə bizə xəbər verdilər. Özümü o qədər itirdim ki, soyadını unutdum. İnanmaq istəmədim. Ordan çıxıb Sadiq Zeynalovgilə getdik. Ata-ana oturub zəng gözləyirdi. Çox ağır idi bunu yaşamaq.

Həqiqətən ağırdı.

“Deyirdin məzuniyyətə gəlib səni yanıma aparacam. Bəs niyə məni yanına aparmırsan?”- deyən Tamam nənənin səsi qədər ağır...

-Dayımoğlu Sadiq, dostum, qardaşım Sadiq, bir çox dostlarımız şəhid oldu. Bu ağrını yaşadıq. Ama torpaqlarımızın ermənilərdə olması daha ağır idi. İndi də mən və mənim kimi çox gənc Ali Baş Komandan İlham Əliyevin bir əmri ilə döyüşə hazırıq. Yeri gəlsə, lap İrəvanı da alarıq - dedi bir də Milad.

Necə ürəyimdən dedi. Sadiqləri, elçinləri, nailləri, əmrahları olan Vətən daim var olacaq. Sizin kimi igidləri olan Azərbaycan bir gün öz tamlığına qovuşacaq. Elə İrəvana da.



# ƏHƏD

Bilal oğlu Ağayev

**17.01.1986 – 02.11.2020**

## KÖNÜLLÜ DÖYÜŞÇÜ ƏHƏD

Ağayev Əhəd Bilal oğlu Motalayataq kəndində 1986-cı il yanvarın 17-də dünyaya gəlib. Sarvan Qurbanov adına Motalayataq kənd tam orta məktəbinin məzunudur.

İkinci Qarabağ savaşının könüllülərindəndir.

Əhədin atası Bilal Ağayev uzun illər Motalayataq kənd məktəbinin direktoru olub.

Bir ziyalı kimi bütün el-obanın hörmətini qazanan Bilal müəllim 12 övlad böyüdüb: 7 oğlan, 5 qız.

Ailənin böyük oğlu Kamal Ağayev orta məktəbi qızıl medalla bitirəndən sonra Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunub. 1992-ci il məzun olduqdan sonra cəbhəyə getmək üçün Nəsimi Rayon Hərbi Komissarlığına müraciət edib. Həmin ilin oktyabr ayından həkim kimi Ağdarədə 2 saylı Hərbi Atəşkəsə qədər Cərahiyyə Hospitalının reanimasiya şöbəsində işləyib. Hospital Tərtər Mərkəzi xəstəxanasına köçürüləndən sonra könüllü olaraq orda çalışıb. Neçə-neçə yaralı əsgərimizi həyata qaytarıb.

Ailənin ikinci oğlu Kazım Ağayev də Birinci Qarabağ savaşının

könüllülərindəndir. 1992-1996-cı illərdə hərbidə çox uğura imza atıb.

Bilal müəllimin məzunları da, övladları da vətənsevərdi. Çünki onun başlıca məqsədi vətənpərvər şəxsiyyət - vətəndaş yetişdirmək olub.

Belə ailədə böyüyən Əhəd başqa cür ola bilməzdi.

Abbas Rövşən oğlu İbrahimli 2-ci Qarabağ savaşına könüllü olaraq qeydiyyatdan keçib. Göstərdiyi şücaətlərə görə Füzuli, Cəbrayıl, Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub: Bizi nisbətən gec çağırdılar. Hərbi Komissarlıqla əlaqə saxlayırdıq. Gecələr belə yatmırdıq. "Necə yatmaq olar? Biz niyə yatırıq" - deyirdi. Döyüşlər vaxtı da beləydi: "Döyüşməliyik. Niyə yataq ki? Döyüşməyə gəlmişik" – sözü bu idi. Oktyabrın 9-da birgə yola düşdük. Bizi Ağcabədidə N saylı hərbi hissədə yerləşdirdilər. Könüllülər çox olduğundan bir yatağı bölüşməli olduq onunla. Qorxmaz, səmimi insan idi. Özünü deyil, başqalarını düşünərdi. Füzuli istiqamətində gedən döyüşlərə qatıldıq. Qızğın döyüşlər gedirdi. Əsil cəngavər kimi döyüşürdü Əhəd. Mən ağır yaralandım, hospitala düşdüm. Əhədin şəhid olmasını da sonra eşitdim. Döyüş yoldaşını itirmək çox ağırdı. Həm də hansı amal uğruna savaşıb şəhid olduğunu düşünəndə fərəh duyursan. Belə bir oğulu, vətənsevdalısını tanımaq, onunla döyüş yoldaşı olmaq qürurludu.

Abbas İbrahimli Astara Gənclər və İdman İdarəsinin Gənclərlə iş üzrə nümayəndəsi və könüllülər üzrə koordinatorudur.

Bacısı Gülvəs həsrətli, mehriban səslə danışdıqca Əhədi görürdüm elə bil: Birinci Qarabağ Müharibəsi haqda qardaşlarına həmişə suallar verirdi. Çox ağrıdırdı onu məğlubiyyətimiz. Deyirdi "mən döyüşəcəm və qalib olacam". Ümumiyyətlə hər şeynən maraqlanırdı. Çox istiqanlı idi. Gözəl ailəmiz vardı. Biz təkcə bacı - qardaş kimi deyil, dost kimi böyümüşdük. Mehriban olmuşuq. 9 yaş məndən kiçik idi, amma bir yerə yanımda gedərdi. Yaşına görə davranışları təmkinliydi. Cəbhəyə yola düşən gün mənə 5 dəfə zəng vurdu, müharibəyə getdiyini demədi. "Birdən məni apararlar döyüşə, övladlarım sizə əmanətdi" – dedi bircə. Könüllü yazıldığını da bilmirdim. Narahat oldum, xanımına zəng vurdum, öyrəndim ki, müharibəyə gedib. Həyat yoldaşı da çox dəyərli xanımdı, mərd qızdı. Onu heç vaxt tək qoymarıq, amma

3 uşağın əziyyət yükü daha çox ona düşəcək. Bilirəm ki, qardaşımın adına layiq böyüdəcək övladlarını.

Əhəd bu böyük ailənin hörmətini qazanan Aysellə 2009-cu ildə tanış olub. 2011 - ci ildə cütlük ailə həyatı qurub. Bu sevgi dolu ailədə üç övlad dünyaya gəlib: Röyal, Roman və Məryəm Ağazadələr.

- Çox mehriban, zəhmətsevər, ailəcanlı idi Əhəd. Sadə, qəlbiaçıq, əliaçıq insandı. Çox xoşbəxt ailəmiz vardı. Amma vətənə də bağlı idi. 2016-cı il hadisələrində kəndimizə şəhid gəldi. O dəqiqə gedib könüllü yazıldı. İyul hadisələrində də çox həyəcan keçirdi. Onda da şəhidlərimiz oldu. Deyirdi: "Onlar torpaq üçün canından keçir, biz evimizdə oturmuşuq". Gedib hərbi komissarlığa müraciət etdi. Döyüşə getməyə can atıb həmişə. İkinci savaş başlayan gün onu aparmadılar, hər gün hərbi komissarlığa gedirdi ki, məni niyə çağırmırsız? Dövləti üçün canından keçməyə hazır idi hər an. Sonuncu dəfə oktyabrın 26-da danışdıq. Bir-neçə gün xəbər olmadı. Noyabrın 1-də şəhid olduğunu öyrəndik. Üç övladımız var, getməyə bilərdi, amma getdi. Tək qalsam da onun bu mərdliyindən qürurlanıram.

Ağcabədidə 4 gün təlim keçdikdən sonra Cəbrayıl, Füzuli, Qubadlı, Xocəvənd uğrunda çətin döyüşlərdə iştirak edib. 1 noyabr 2020-ci ildə Xocavənd uğrunda savaşda şəhid olub. Birinci Qarabağ döyüşlərinin veteranı Kazım Ağayev: Özüm döyüş yolu keçmişəm. Müharibənin nə olduğunu bilirəm. Bu haqda çox danışmazdım. Əhəd suallar verərdi həmişə. Qisas hissiylə yaşayırdı. Böyük qardaşım da, mən də veteranıq. Könüllülük bir ayrıdı. Böyük hissdi. Artıq kiçik oğlu deyir, ermənilər gəlsə onları qoymaram torpaqlarımıza.

Haqlıdır Roman. Əhəd kimi ataların oğulları boyüyür bu torpaqda. Onlar gələcəyin həqiqətidi.



# ELKİYAR

Abdulla oğlu Məmmədov

**07.08.1992 - 1.11.2020**
**(30.11.2020-ci ildə torpağa tapşırılıb)**

## ÖVLADLARINA QÜRUR DUYULACAQ ATA OLMAQDI QƏHRƏMANLIQ – ELKİYAR MƏMMƏDOV

"Necə çətin uşaqlığı olub. Necə ağır həyatı olub"- Əmisi ilə danışanda ilk ağlıma gələni dedim.

Bəlkə bir azca qəlbinə dəydim? Bəlkə ona görə tələsik cavab verdi: Atasının sağlığında pis dolanmırdılar. Atası qoçaq adam idi. Qaz idarəsində işləyirdi. Zəhmətkeş adamıydı. Qazancı yaxşıydı. Uşaqlarına yaxşı baxırdı, onları korluq çəkməyə qoymurdu. Uşaqlığı yaxşı keçib. Sadəcə tez...

Susur. Təbii ki, səbəb məni maraqlandırır.

- Ağ qan... Ağ qan hüceyrələri çoxaldı. Qan xərçəngi – izah verir. Susur...

4 yaşı olanda Elkiyar atasını itirir. Bir-neçə ildən sonra anası dünyasını dəyişir.

İstədim deyəm ki, o yaxşı uşaqlığı nə vaxt yaşadı?... Bu dəfə mən susdum. Ağrı boğazıma çökdü. Danışa bilmədim...

1996-cı ildə atası Abdulla dünyasını dəyişəndən sonra ana 4 uşaqla - Əlyar, Elkiyar, Fatimə, Arifə ilə tək qalır. Fatiməni əmisi Əhəd himayəsinə götürsə də, əmilərin təkidinə baxmayaraq, digər uşaqları əmilərinə vermir.

- Ana uşaqları bizə vermədi. Onu da anlayırdıq. Övladlarına özü baxmaq istəyirdi. Qızlarından biri böyük qardaşımda qalsa da, 3 uşağa baxmaq ağır idi. Səhhətində problemlər vardı. Bir də eşitdik ki, uşaqları uşaq evinə verib, - əmi Elkiyarın həyatını danışır.

Həm işləmək, həm də 3 azyaşlıya baxmaq çətin idi. Səhhətində problemlər olan ana 2001-ci ildə dünyasını dəyişir. Əmilər qardaşlarının yadigarlarını uşaq evindən götürürlər.

Arifəni əmisi Həmid, Elkiyar və Əlyarı isə Elman himayəsinə alır, böyüdür.

- Çox çətin idi mənə də, onlara da... Bir tərəfdə qardaş acısı, bir tərəfdə uşaqlara bu acını unutdurmaq çabası. Nə etsən də ata-ana olmursan. Maddi çətinliklərimiz də az deyildi, - əmi yenə susur... Çox istiqanlı, mehribandı. Dostcanlı uşaqdı. yaxşı dostları var.

Əmi yəqin ki, hiss etmədən indki zamanda danışır... Mənsə acının böyüklüyünü gözlərimlə görürəm.

Vətən Savaşının iştirakçısı, hal-hazırda Şuşada hərbi xidmətdə olan Əfsəlov Orxan Şirəli oğlu, həm də Elkiyarın ən yaxın dostudur.

- O mənim ürəyimdi, – Elkiyarın adını eşidən Orxanın ilk sözü bu oldu.

5-ci sinifdən dostluq etmişik. Bir sinifdə oxumuşuq, qardaş olmuşuq. Hər sirrimizi bölürdük. Onu qoruyurdum. Cəmi üç ay yaş fərqimiz olsa da, həmişə böyük kimi hörmətimi saxlayar, məsləhətləşərdi, mən də onu diqqətimdən kənar qoymurdum. Necə olsa, atasını – anasını itirmişdi. Dostluğumuz qohumluğa apardı, xalam qızı Gülnazla ailə qurdu. İndi öz uşaqları da atasız qaldı...

Orxanın səsi titrəyir.

- Hələ də özümü qınayıram. Niyə yanında olmadım? Elə bilirəm yanında olsaydım qoruya bilərdim. Hərbini də özü seçdi. Ən çətin tapşırıqlardan da qorxmazdı... İmkan olan kimi zəngləşirdik. Hər dəfə “ehtiyatlı ol, özünü qoru” deyirdi. Amma özü...

Elkiyar sürücü olub. Yorulmadan, usanmadan, yatmadan çalışıb. Döyüş yoldaşları onun ən gərgin döyüş bölgələrinə belə birinci getdiyini deyirlər. Hətta minalanmış hissələrə belə getməkdən çəkinməzdi. “Minalar məndən qorxur” deyərdi...

Elkiyarın hərbiçi olmaq arzusu təsadüf deyildi. Ailədə hərbiçi çoxdu. Böyük əmisi Əfqanıstanda döyüşüb, Birinci Qarabağ savaşının qazisidir, əmisi, bibisi uşaqları hərbiçidi. Böyük qardaşı Əlyar da hərbiçidi. Ərçivanda onlara "hərbiçilər ailəsi" deyirlər. İndi də azad olunmuş ərazilərimizdədirlər. Qardaş acısı yaşasa da, "Vətən uğruna şəhid olmağa hər an hazır olmuşuq" deyir qardaşı Əlyar.

Elkiyar Abdulla oğlu Məmmədov 1992-ci il avqustun 7-də Astaranın Ərçivan qəsəbəsində anadan olub. Əksər oğlan uşaqları kimi futbol oynamağı çox sevib. Sinif yoldaşları, kənd uşaqları "Kəndimizin fəxri olacaqsan. Kəndimizi tanıdacaqsan dünyaya" deyirmişlər ona.

O isə məktəbi bitirəndən sonra hərbi xidmətə gedir...

Hərbiçi ömrü Mingəçevirdən başlayır. Dəfələrlə fəxri fərmanlar alıb: Döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə, nümunəvi hərbi intizamına, yüksək mənəvi-işguzar keyfiyyətlərinə, vəzifə borclarını layiqincə yerinə yetirməkdə fərqləndiyinə görə.

İkinci Qarabağ savaşı başlayanda Elkiyar 5 ildən artıq idi ki, Füzulidə xidmət edirdi. İlk gündən döyüşlərin iştirakçısı olub oktyabrın sonuna kimi...Xocəvənd uğrunda döyüşlərdə minalar "xəyanət edib".

Və indi təkcə yaxınlarının, kəndinin deyil, bütün ölkənin fəxridir.

Orxanın "Özü də atasız idi, uşaqları da atasız qaldı..." - kövrək səslə dediyi sözləri xatırlayıram. Mən də kövrəldim onda. Ona demək istədim ki: O qədər atası sağ ikən "ata" demək həsrətini üzündə, gözündə gəzdirən uşaq, o qədər bu həsrətdən, uşaqlarının "atam var" demək nisgilindən xəbərsiz atalar var ki...

Elkiyar isə övladlarına "qəhrəman" adı qoydu. Əlində atasının şəklini tutan balaca Abdulla hələ nə baş verdiyini anlamır. Anlayacaq bir gün... Yəqin gözlərində ata nisgili olacaq. Amma bu nisgil bir qürura söykənəcək. Ömrü boyu ona dayaq olan, yaşam gücü verən qürura.

Övladına qürur duyulacaq ata olmaqdı qəhrəmanlıq. Ərçivan qəsəbəsində böyüyən Abdulla, əkiz bacılar Duyğu və Damlanın atası Elkiyar Məmmədov kimi.



# MİRZƏHƏSƏN

Şahin oğlu Əlizadə

**11.12.92 – 25.10.2020**
**(14.12.2020-ci ildə torpağa tapşırılıb)**

## BÖLÜYÜN ƏLİ-QOLU MİRZƏHƏSƏN

1992-ci il dekabr ayının 11- də Səncərədi kəndində anadan olub.

Həyatın ağrı-acısından, şirinliyindən, doğrusundan, yalanından xəbərsiz uşaqlıq yaşayıb.

1999-cu ildə Elman Ağayev adına Səncərədi kənd tam orta məktəbində birinci sinfə gedib. Həmin məktəbdə doqquzillik təhsilini 2008-ci ildə bitirir. 2009-cu ildə Astara Pedaqoji Kollecinin "Bədən tərbiyə və idman" ixtisası üzrə tələbəsi olur. 2012-ci ildə kollec məzunu olan Mirzəhəsən müddətli həqiqi hərbi xidmət üçün Ağdama yola düşür. 2014 yanvarın 1-də xidməti başa çatır.

İntizamı, davranışı, bacarığı ilə seçilən Mirzəhəsənə orduda qalmaq təklif olunur. Hərbiçi olmaq istəsə də, valideynlərinin oğul həsrətindən keçə bilməyib evlərinə dönür.

3 il Lerikdə mühafizəçi işləyir. Mirzəhəsənin hərbiçi olmaq arzusu isə ürəyindəydi.

Nəhayət, 2017- ci ildə müddətdən artıq hərbi xidmət üçün sənədlərini Hərbi Komissarlığa təqdim edir.

Belə başlayır dostlarının "o, hərbiçi kimi doğulmuşdu" dedikləri

Mirzəhəsənin ordu həyatı...

Türkiyədə Komando hərbi təlim kursları keçən leytenant Cəsarət Quliyev: 2 il bir yerdə işləmişik. Şəhid olduğu üçün demirəm, onun kimi insanlar az olur sözün tam mənasında. İnsan nə qədər səmimi, qayğıkeş, dostcanlı olar? Adam dövlətini başqa necə sevə bilər? Minaatan idi. İşinin ustasıydı. Bütün silahları öyrənirdi. Çox qavramlı, intizamlı, məsuliyyətliydi. Savaşda da bir yerdəydik. Bölüyümüzün əl-qoluydu. Möcüzəydi. Cəld, çevik düşüncəsi vardı. Hər yerdə birincilərdəndi: şəhidləri çıxarır, yaralıları daşıyır, düşmən texnikasını məhv edir, onların maşınlarını belə gətirirdi. Ürəkliydi. Cəbrayıl, Füzuli döyüşlərimiz çox çətin idi. 3-cü bölüyün komandiri olduğum 90 nəfərlik 2-ci tağımdaydı. Füzulinin Kürdlər kəndi yaxınlığında mühasirəyə düşdük. 5 gün mühasirədə ac-susuz qaldıq. Tikanlı qanqalları belə dişləyib şirəsindən su əvəzi istifadə edirdik. Düşmən dağdaydı. Yerə uzanıb qalmışdıq, başımızı qaldıra bilmirdik. Hər tərəfdən güllə yağırdı. Bir də gördük Mirzəhəsən yoxdu. Gedib düşmənlərin ərzaq dolu maşınını gətirmişdi. Elə ürəkliydi. Ordan sağ çıxacağımızı bilmirdik. Sürünüb gedirdik. 25 şəhidimiz, 40-dan çox yaralımız oldu. Özüm bir kilometr sürünmüşdüm. Elə orda da güllə dəydi. Bir gün sonra qayıtdıq. Yaralıları, şəhidləri götürdük. Çox ağır idi. Onu tapa bilmədik. Müharibədi, hamını tapmaq, götürmək olmur. Sonra Şuşa istiqamətində döyüşlər başladı. Son nəfəsinəcən döyüşdü. Çox belə oğul itirdik, ancaq məqsədimizə çatdıq. Belə oğulların torpağına kimsə göz dikə bilməz bir daha.

Beyləqanın Həmlə taborunda olub Mirzəhəsən Əlizadə.

Oktyabrın 24-də anası Kəsirə xanımla danışıb son dəfə: Sentyabrın 27- də zəng edəndə dedi ki, müharibə başladı. Gedirəm. Elə şən səslə dedi elə bildik zarafat edir. Sevinirdi, mənsə anayam, narahat qaldım. Hər dəfə zəng edəndə rahat danışırdı. Heç narahat olmağımızı istəmirdi. Dəqiqələri sayırdım, saatları sayırdım. Zəngini gözləyirdim. Oktyabrın 24-dən sonra 50 gün xəbərsiz qaldıq. Yoldan - izdən soruşdum balamı. Uçan quşlardan xəbər gözlədim. Daşdan-divardan sorurdum:

"Balam hanı?" Bütün günü zəngini gözləyirdim. Dostu Tamerlan Süleymanovun şəhid olması da onu çox sarsıtmışdı. Hər şey ola bilər. "Bu uşaqların qisasını alacam" dedi. Aldı da...

"Bilo" ləqəbi ilə tanınırdı. Köhnə türk filmlərindəki Biloya oxşadığı üçün "Bilo" deyirdi döyüş yoldaşları. Ayağından yaralanır. Xəstəxanaya göndərə bilmirlər. "Sizi qoyub gedə bilmərəm" deyir. Yaralı Mirzəhəsən şəhid olanacan savaşır.

Samid Xudatlı: Onunla bir ömür yaşamışam. Cəsarətini sözlə ifadə edə bilmirəm. Düşmənin yanından maşınlarını götürüb gəlirdi. Yaralıları daşıyırdı. Döyüşürdü. Birimiz ac olsaq, mütləq ərzaq tapırdı.

"2 oğlum vardı: Elşən, bir də Mirzəhəsən. Biri şəhid oldu. Vətən bağını qopartmaq olmur ürəkdən. O da elə bağlı idi. Torpaq üğruna torpağa qovuşdu. Pandemiyaya görə gedə bilmədik yanına, 10 ay görmədik onu. Məni ağrıdan budur. Sonra da xəbərsiz qaldıq. Qələbədən sonra axtarış qrupu tapdı oğlumu". Bunları söylədi qəhrəmanımızın atası.

Dekabrın 14-də Astara camaatı daha bir igidini-şəhidini izdihamla qarşılayıb yola saldı.

"Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub Mizəhəsən Şahin oğlu.

Valideynləri narahat olanda, "özündən muğayat ol" deyəndə "Şəhidlik uca məqamdır. Şəhidlik xoşbəxtlikdir. Şəhid allahın seçilmiş bəndəsidir" deyə cavab verirmiş Mirzəhəsən.

Deməli, uca məqamına çatıb, xoşbəxt olub, seçilib.



# ƏLİ

Bəyulla oğlu Cəfərov

**29.08.1993 – 04.11.2020**

## VƏTƏN OĞLU

4 noyabr 2020-ci il şəhid olan kəşfiyyatçı Cəfərov Əli Bəyulla oğlu göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il və 29.12.2020-ci il tarixli sərəncamları ilə ”Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

1993-cü ilin 29 avqustunda Astara rayonunun Maşxan kəndində dünyaya göz açan Əli Birinci Qarabağ müharibəsinin şəhidi Nizami Əliyev adına Maşxan kənd tam orta məktəbinin 2010-cu il məzunudur. Uşaqlıqdan sərbəst güləşlə məşğul olub, müxtəlif yarışlarda qalib gəlib. Əli yaşından çox mükafatlar alıb.

Həqiqi Hərbi xidmətə 2011-ci ilin oktyabrında yola düşüb. Ağdamda xidmət edib. Xidmət müddəti bitdikdən sonra 2013-cü ilin aprelində doğma kəndinə qayıdır Əli. Sonra Bakıya gəlir və Xırdalanda yerləşən Abşeron Taxıl MMC şirkətində operator vəzifəsində işə düzəlir. İşlədiyi müddətdə Əli bütün kollektivin rəğbətini qazanıb, sevimlisi olur.

Abdullah Abbasov Taxıl MMC-də şöbə rəisidir: Hamının hörmətini qazanmışdı. Əli həqiqətən yaxşı işçi idi. O, şəhid olana qədər də bizim üçün dəyərliydi. Heç bir mənfi xüsusiyyətini görməmişdik. İndi

də əzizdi. Abşeron Taxıl MMC-nin ərazisində, girişdə rəhbərliyin, kollektivin təşəbbüsü ilə Əli Cəfərovun adına bulaq açmışıq. Rəhbərliyin göstərişi ilə 2021-ci ilin sonuna kimi Əlinin maaşı hər ay maaş kartına köçürülür. Bütün şəhidlərimiz əzizdir. Onları unuda bilmərik. Unutmamalıyıq.

Əlini kimsə unuda bilmir: nə dostları, nə qonşuları, nə qohumları. Hamı üçün doğmaydı.

Mehriban xanım: Sonbeşik bacımın sonbeşiyi idi; 5 bacının bir qardaşı. Bizim qardaşımız Azər Əsədullayev də Birinci Qarabağ savaşının zabiti, baş leytenant olub. Əli həmişə deyərdi ki, dayım kimi şəhidlər olub Qarabağ savaşında, onların qanını yerdə qoya bilmərik.

Mehriban xanımın oğlu Hüseynov Vüqarın da Birinci Qarabağ savaşında iştirak etdiyini öyrəndim. Döyüşlərdə ağır yaralanan Vüqarın səhhətində hələ də ciddi problemlər var. Əli kimi oğullar Azər kimi, Vüqar kimi fədailərdən nümunə götürüb. 5 bacının yeganə qardaşı Vətən müharibəsinə könüllü yollanaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərin qəhrəmanı olub.

Bacısı Ayselin xatirələri: O qədər əziz idi. 5 bacının bir dənəsiydi. Müharibə başlayanda səni aparmazlar, tək oğlansan dedik. Dedi hə, məni aparmayacaqlar. Sən demə, Tovuz hadisələri zamanı dostuyla birlikdə könüllü kimi qeydiyyatdan keçib. Heç biri də evdə bildirməyib. Savaşın ilk günlərində aparmadılar, oktyabrda çağırdılar. Özü can atırdı. Biz yalnız müharibəyə gedəndə xəbər tutduq. “Kəşfiyyatçıyam, kəşfiyyatçılara ehtiyac var, getməliyəm” deyib getdi. Noyabrın 1-dən sonra xəbər tuta bilmədik. 4 noyabrda səhər şəhid olub. 5 noyabr gecəsində kəndimizdə torpağa əmanət olundu Əli....

Əli həqiqi hərbi xidmətini kəşfiyyatçı kimi başa vurduğundan müharibədə kəşfiyyaçılara ehtiyac olduğunu bilirdi. Dostu Orxan ilə birlikdə qeydiyyatdan keçmişdi. Orxanı döyüşə aparmasalar da, Əli döyüşə yollanır.

-İkimiz də kəşfiyyatçı olmuşduq. Birlikdə yola düşdük. Əvvəl Mingəçevir şəhərinə, ordan da Birinci Ordunun kəşfiyyat rəisi ilə 057 saylı hərbi hissəyə getdik. Ayrı-ayrı taqımlara düşdük. Mən hücum taqımında idim. Əli tək oğlan olduğu üçün onu təminat taqımına sal-

dılar. Çox qayğıkeş idi. Hər dəqiqə təminatımızla maraqlanırdı. Çox da şən, qorxusuz oğlandı. Əslində ailənin tək oğullarını döyüşlərdə önə buraxmırdılar. Elə hey deyirdi ki, mən döyüşməliyəm. İstəsəydi döyüşə getməzdi. O qədər vətənə bağlı idi ki, öz istəyi ilə qatıldı. Talış, Suqovuşan, Murovdağ, Ağdarədə olduq. Ağdərənin azadlığı uğrunda döyüşdə minamyotlarla vurdular bizi, Əli o döyüşdə şəhid oldu. İkinci Qarabağ savaşının cəsur kəşfiyyatçılarından olan Şahin Aydın oğlu Məmmədzadə bunları söylədi.

Şahin Məmmədzadə özü də igidliyi ilə fərqlənib savaşda. Noyabrın 10-da ağır yaralanıb. "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub.

Əlinin anası Telli xanımın göz yaşını silməyə gücüm çatmaz:. O səsi nə vaxt unudacağımı bilmirəm: Qardaşım Azər Əsədullayev Birinci Qarabağ savaşının igidlərindən idi. Elə döyüşüb ki, ermənilər başına pul mükafatı qoyublar. Elə başından snayperlə də vurublar. 29 yaşında şəhid olub. Əli də işğal olunmuş ərazilərdən danışanda dözmürdü. "İgid oğul dayısına oxşayar. Mən də torpaqlarımız uğrunda şəhid olaram" deyirdi. Könüllü də getdi. Hər zəng edəndə "Ana, qorxma, mən yaxşıyam. Heç bir narahatlığım yoxdu. "Mənim igid əsgərimsən" – deyirdim.

Tək Telli xanımın deyil, hamımızın igid əsgəri idi Əli.

Əli Bəyulla oğlu Cəfərov özünü 5 bacının tək qardaşı deyil, Vətən oğlu hesab edirdi. Vətənin oğlu idi.



# ƏLİ

Malik oğlu Feyziyev

**11.07.1994 - 08.11.2020**

## DÜŞMƏN ÖNÜNDƏ ƏYİLMƏRƏM

Əli Feyziyev 11 iyul 1994-cü ildə Astaranın Ərçivan qəsəbəsində anadan olub. Ərçivandakı 1 nömrəli məktəbin məzunudu. Ailədə üç uşaq olublar: iki qardaş və bir bacı.

Bütün uşaqlar kimi Əli də yeddi şüşə, gizlənqaç, voleybol, futbol oynamaq istəyib. Amma xəstə atanın qazancı az olduğundan, ailəsinə kömək etmək üçün Əli 5-ci sinifdə oxuyarkən sürücü olan əmisinin yanında işləməyə başlayıb.

Uşaq olmadan böyüyüb Əli...

Onu hamı tanıyırdı.

Hamı da ondan sevgiylə danışır.

Məktəbi bitirəndən sonra Əli Feyziyev Ərçivan - Astara sərnişin avtobusunda, sonra taksidə sürücü işləyir.

Hamının köməyinə gedərdi. Qəsəbə adamları deyirlər ki, hər birimiz Əliyə istənilən iş üçün müraciət edə bilərdik. Bilirdik ki, kimsəyə "yox" deməz. Vətənə "yox" deyə bilmədiyi kimi...

O, Ağdamda müddətli həqiqi hərbi xidmət keçmişdi. Orda da ən nümunəvi əsgərlərdən olub. Hərbi xidmətdən köz-köz Qarabağ yarası ilə qayıdıb.

Vətən savaşı başlayanda könüllü olaraq cəbhəyə yollanıb.

Döyüş yoldaşlarının sözlərinə görə səngərdə əyilmirdi. "Düşmən qarşısında əyilmərəm"-deyirdi. Onu "şir ürəkli" çağırırdılar.

Güllə altında belə qorxmazdı, yaralıları, şəhidləri 5-6 km uzaqlıqda məsafədən çiynində, qucağında gətirərdi.

"Vətən uğrunda","Xocavəndin azad olunması uğrunda", "Şuşanın azad olunması uğrunda" medalları ilə təltif olunub.

Əlinin iki övladı var: iki yaşlı qızı Mələk və 4 yaşlı oğlu Ayxan.

Gözəlgözlü Afaq xanımın söylədiklərindən: "Əli çox fərqliydi. Sevgi doluydu. İlk dəfə elçiliyə özü gəlmişdi. Bir-birimizə çox bağlıydıq. Qayğıkeş, diqqətli idi... Fikri – zikri uşaqlarını gözəl yaşatmaq idi. Ehtiyaclarımızı qarşılamaq üçün gecə-gündüz işləyirdi. "Onlara hər cür şərait yaradacam" deyirdi. Ayrıca ev tikmək istəyirdi. Çox vətənpərvər idi. Həmişə "əvvəlcə gərək torpaqlarımızı azad edək" deyirdi. Cəbhə bölgəsindən gələn xəbərləri izləyirdi. Gərgin olurdu... Könüllü yollandı cəbhəyə, ən xoşbəxt günlərimi yaşadanım".

Doğmaları ilə əlaqə saxlayanda heç vaxt şikayətlənməzdi Əli.

"Müharibədi, hər şeyə hazır ol. Övladlarım sənə əmanətdi. Hər şey yaxşıdı və daha gözəl olacaq. Qələbə bizimdir. Qarabağı azad edəcəyik. Şəhidlik mənim üçün xoşbəxtlikdi" deyirdi hər zəng edəndə. Mənə qardaş yox, ata əvəzi olub Əli"- dedi qardaşı Müslüm.

Əzizlə dost olublar, döyüşə də birlikdə gediblər: İlk Beyləqana, ordan Füzuliyə getdik. Sonra Cəbrayıl uğrunda döyüşlər oldu. Döyüşlər ağır idi. Elə olurdu minaatanın atəşindən tərpənə bilmirdik, ac-susuz qalırdıq. Bir də görürdük Əli yemək, meyvə, su gətirib. O qədər cəld, qorxmaz idi. Onunla daha ürəkli olurdun. İnamlı olurdun. Həmişə birinciydi, kimsəni özündən önə buraxmırdı. Bir yerdə olduq. Hərdən hücum zamanı ayrı düşürdük. Cəbrayılda dedi ki, gəlin şəkil çəkdirək. Çox şəkil çəkdirən deyildi. Hiss eləmişdi elə bil...Son şəkil oldu. Ayın 8-də Şuşaya gedəndə görüşdük. "Qələbə bizimdir. Özündən muğayat ol" dedi. Özünü qoruya bilmədi. Orda hər birimiz ölümlə üz-üzə idik. Ölüm haqdı. Torpaq azadlığı üçün Şəhid olmaq hamıya nəsib olmur.

Onun taleyinə yazılıbmış Şəhidlik, mənə nəsib olmadı. Sadəcə bircə gün qalmışdı. 8-də Şəhid oldu, 9-da gecə müharibə bitdi. Birlikdə getmişdik, birlikdə qayıtmadıq".

8 noyabrda Şuşada şəhid olur Əli Feyziyev.

Əziz uşaqlıq dostundan danışanda gah gözləri doldu, gah gülümsədi. Uşaqlıqlarını xatırladı, döyüşlərdən, Əlinin cəsurluqlarından söhbət açdı.

-Döyüşə Astara uşaqları ilə yollandım. İlk Ağcabədiyə getdik. Həyəcanım vardı. Avtobusdan düşəndə elə bildim Ərçivandayam. Bir yerdə böyüdüyüm uşaqlar çox idi. Əlini görəndə həyəcanım tamam keçdi. Bizi ayaqda tutan Əli idi. Həmişə öndəydi, elə bil heç qorxusu yoxdu. Yaşı çox olmasa da bizdən böyük idi, ağsaqqal kimiydi, hamı onu eşidirdi, hər vəziyyətdən çıxış yolu tapırdı. Bölükdə hamı üçün fərqliydi. Şuşaya qalxanda bizə ürək-dirək verdi. Təsəvvür edin ki, düşmən gülləleri dayanmırdı. Amma biz irəli gedirdik. Son nəfərə kimi döyüşəcəkdik. Biz torpağı almağa getmişdik, dayana bilməzdik. Şuşada qələbə xəbərini eşidəndə sevincdən ağlayanlar, qışqıranlar vardı. Birdən Əziz "Əli şəhid olub" dedi. İnanın, hamının dili tutuldu. Hər an ölümə hazır olsaq da, ağır gəldi. Həm də Qələbə günündə-son gündə Şəhid olmasına dözmək olmurdu. Qələbəni həvəslə gözləyirdi...- Emil bunları dedi.

Əli arada qonşu rayonlara sərnişin aparırdı. Savaşa yollananda anası Rəvayət xanıma da Cəlilabada gedəcəyini deyib. "Hərbiçi olmaq istəyirdi. Bir- neçə dəfə sənəd vermişdi. Bilirdim ki, müharibə olsa, mütləq gedəcək. Torpaqlarımızın ermənilərdə qalması ilə heç cür barışmırdı. Əslində çox sözəbaxan olub. Bəlkə də düşünüb "getmə" deyərəm, ağlayaram. Amma heç vaxt da "getmə" deməzdim. Torpaqlarımızın azad olması hamımızın arzusu idi. Bu yolda canından keçməyə hazır idi mənim oğlum. Ləyaqətli idi".

"Onsuz da torpağını sevən hər kəs Ali Baş Komandanın əmrini gözləyirdi hər an. Hamımız şəhid olmağa hazır idik. Bir nəfər də qalsa, torpaqları almalıydıq" – dedi döyüş yoldaşları-ərənlər.

Əlinin uşaqlıq dostu, döyüş yoldaşı olan Şəmistanın söylədiklərindən: Müharibəni danışmaqla təsəvvür etmək olmaz. Çox ağırdı. Cəbrayıl uğrunda çox çətin döyüşümüz oldu. Səngərdən tərpənmək olmurdu, hava yağışlı idi. Atışma ara vermirdi. Soyuq, səngərdə su içində idik, oturmaq olmurdu. Əli "heç kim yerindən tərpənməsin" dedi. Nə vaxt səngərdən çıxdı bilmədik. Su, yemək gətirdi. Gecə səngərdə qalmalı olduq. Yenə çıxdı, düşmən əsgərlərinin paltarlarını gətirdi. Onları səngərlərə sərib oturduq. Müharibədi, başqa yol yoxdu. Belə igid idi. "Şir ürəkli" idi həqiqətən. O güllə yağışında heç nə olmadı ona. Şuşa alınan gün minaatanın qəlpəsi dəymişdi. Son dəfə "Ürəyim sızıldayır" deyib. Təəssüf ki, yanında olmamışam. Elə bilirəm Şuşanın azad olunması xəbərini desəydim, ürəyi sızlamazdı... Çox can atırdı Şuşaya. Biz nə qədər bir-birimizi tanısaq da döyüş ayrıdı. Döyüşdə, güllə - atəş altında öz xalqını, onu oğullarını tanımaq bir başqadı. Qürur duyursan. Qələbəyə inanırsan.

Hər birimizin fəxri olan igidlərimiz. Bizə özümüzü yenidən tanıtdınız.



# RÖVŞƏN

Qardaşxan oğlu Ramazanov

**14.04.1995 – 01.11.2020**

## MƏNƏ ŞƏHİDLİK NƏSİB OLACAQ

Anaların göz yaşlı səsini eşitmək ağırdı. Anaların göz yaşı ağırdı... Elə ağırdı ki... Bir damcısından əzilərsən...

Ataların ağrısı da bir başqadır. Göz yaşların görməzsən çox zaman. Atalar daha çox dözüm göstərmək istər. Göz yaşları ürəyinə axar. Rövşənin atası el-obanın hörmətini qazanmış Qardaşxan müəllim dözümsüz oldu. Nə qədər möhkəm dayanmağa çalışsa da, cəmi bir ay yaşadı oğlundan sonra... Coğrafiya müəllimi idi.

Rövşən Qardaşxan oğlu Ramazanov 1995-ci il aprelin 14-də Astara rayonunun Burzubənd kəndində müəllim ailəsində anadan olub. Ramazanovlar ailəsində 5 uşaq böyüyüb: 3 qız və 2 oğlan. Birinci sinfə 2001-ci ildə Burzubənd kəndinin tam orta məktəbinə gedib. Şagird kimi də fərqli olub, bütün tədbirlərdə fəal iştirak edib, əlaçı, nümunəvi biri kimi seçilib.

Anası Gülnarə xanım həmin məktəbin kimya müəllimidir.

2012-ci ildə məzun olub. 2013-cü ildə həqiqi hərbi xidmətə çağırılıb. Hərbi Xidmət zamanı PK silahının baştuşlayıcısı kimi də seçilib. 2015-ci ilin yanvarında Ağcəbədi və Ağdamda N saylı hissədə müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra doğma elinə qayıdır. Təsərrüfatla məşğul olur.

2016-cı il aprel döyüşləri başlayanda könüllü olaraq hərbi xidmətə getməyə çalışır. O vaxtdan da adı könüllülər siyahısında idi. Bacısı Aytacın söz-

lərinə görə Rövşən Aprel döyüşlərinə qatılmağa çalışıb, sadəcə döyüşlər tez bitib:

- O gündən həyəcanlı idi. Müharibə olacağını, şəhid olacağını hiss edirdi. "Mütləq müharibə olacaq, torpaqlarımızı azad edəcəyik. Şəhidlik hamıya nəsib olmur, mənə nəsib olacaq – deyirdi.

İkinci Qarabağ Savaşı başlayan andan Hərbi komissarlığa dəfələrlə müraciət edib. Nəhayət savaşa qatılıb.

Rövşənin əmisi Zərxan: Onun tarix müəllimi olmuşam. Tariximiz onu narahat edirdi. Qarabağ mövzusundan danışanda isə lap həyəcanlanırdı. Münasibəti çox fərqliydi. Müəllim kimi deyirəm bunu. Bir də görürdün sual verir: Niyə biz döyüşüb torpaqlarımızı almırıq? Alacayıq deyirdim. Vətən doğulduğun eldən-obadan başlayır sərhədlərdə qurtarır. Bunu bilirdi. O sərhədlərin tamlığını istəyirdi.

Döyüş yolu Füzulidən başlayır. Cəbrayıl, Qubadlı, Xocəvəndin azadlığı uğrunda döyüşlərdən keçir. Əsgər yoldaşları deyirlər ki, Rövşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlirdi. Çoxumuzdan həddsiz məsuliyyəti ilə seçilirdi. Bir qarış torpaq azad olunanda belə "Bu sevinci də yaşadıq, bu sevincə görə Şəhid olmağa da dəyər. Vətən sağ olsun" – deyərdi. Nə qədər ağır döyüş olsa da içimizə fərəh dolurdu. Müxtəlif döyüş tapşırıqları alırdıq. Qruplara bölünürdük. Kəndləri, yüksəklikləri azad edə-edə irəliləyirdik.

Oktyabrın 27-də 14 nəfərlik qrupla Xankəndinin Qırmızı bazar istiqamətində Cütçü kəndi ərazisindəki yüksəkliyi azad etmək tapşırığı alırlar. Ərənlərimizin məqsədi necə olursa olsun, yüksəkliyi ələ keçirmək idi. Ağır döyüş gedir. Xocəvənd Xankəndi arasında pusquya düşürlər. Cəmi iki nəfər yaralı xilas ola bilir.

Həmin döyüşün iştirakçısı snayperçi qazi Əsgər Hüseynovun dedikləri: Tapşırığı yerinə yetirməli, yüksəklikləri ələ keçirməliydik. Pusquya düşdük. Açıq ərazidəydik, düşmən bizdən yüksəkdəydi. Ancaq yerə sərilib döyüşürdük. İlk ayaqlarımdan yaralandım. Sonra qolumdan. Başımızı qaldıra bilmirdik, təhlükəli idi. Buna baxmayaraq Rövşən köməyimə gəldi. Çox cəsur idi. Döyüş yoldaşına görə canından keçərdi. Keçdi də. Onu vurdular. Uşaqlar şəhid olurdu. Dəhşətliydi... Hamı bir-birini qorumağa çalışırdı. Ordan sağ çıxdığıma inana bilmirəm.

Cəbrayıl, Qubadlı, Xocavənd uğrunda döyüşlərdə qəhrəmancasına vuru-

şan Rövşən həmin döyüşdə şəhid olur. Xocavəndin, Füzulinin, Cəbrayılın azad olunmasına görə medalları ilə bərabər "Vətən uğrunda" medalı ilə də təltif olunur.

Noyabrın 1-də doğulduğu Burzubənd kəndində uğrunda şəhid olduğu torpağa qovuşur.

Mikayılov Vətən onun yaxın qohumu, həm də uşaqlıq dostudur: Həyatımın bir parçasıydı elə bil. Bir yerdə çox günlərimiz olub. Ən şirin xatirələrim onunla bağlıdı. Ən böyük ağrım, ən əvəzsiz qürur duyğum onunla bağlıdır. Çox məsuliyyətli idi Rövşən. Məsuliyyətli olmağı ondan öyrəndim. Vətənlə doluydu ürəyi. Ona baxanda düşünürdüm ki, heç kim Azərbaycanı bu qədər sevə bilməz. Həm də torpaqlarımızın azad olunacağına hədsiz inam vardı içində. Kimsə "evlən" deyəndə "torpaqlarımızı azad edəndən sonra" deyirdi. Qəribə baxanlar da olurdu. Hamı onun kimi inanmırdı axı... Amma o inanırdı. Hər gün savaşı gözləyirdi. Hər gün savaşa gedəcəyini deyirdi...

Qardaşı Səbuhinin xatirələri: Vətən müharibəsi başlayandan hər gün Hərbi komissarlığa gedirdi. Aprel döyüşlərində könüllülər arasında olduğundan elə bilirdi o saat cəbhəyə göndərəcəklər. Təsəvvür edin ki, saysız könüllü vardı, növbə yaranmışdı. "Özləri çağıracaq lazım olanda, gör nə qədər könüllü var" desəm də xeyri olmurdu. "Məni niyə aparmırlar ki? Döyüşə getməsəm camaat içinə çıxa bilmərəm, yaşaya bilmərəm. Onsuz da hamı ölür. Amma Vətən yolunda ölmək-şəhid olmaq hamıya qismət olmur. Ən böyük mükafatım bu olar" deyirdi.

Oktyabrın 9-da çağırdılar. Elə sevinirdi! Sağlığında da fəxrimiz idi, ölümüylə də qürurumuz oldu. Düşünürəm ki, seçilmişlər şəhid olur.

Səbuhi haqlıdı. Qürurumuz oldular. Qürurumuzu qaytardılar.Ali Baş Komandanın "Qarabağ Azərbaycandır"! deyən məğrur səsi oldular.



# ARİF

İsmayıl oğlu Qeybiyev

**06.06.1997-27.09.2020**

## ODU SÖNMƏYƏCƏK QƏLƏBƏ MƏŞƏLİ

”Mənim oğlum çempion idi. Mənim oğlum hər işdə çempion idi” - dedi Rəna ana.

Doğru deyirdi. Kimdən soruşdumsa, “Arif oğul idi” – dedi.

Astara İdman və Gənclər idarəsinin rəisi Əliyev Ərçə ilə söhbətimizdən: Çox vətənpərvər idi. O, 16 dəfə Azərbaycan çempionu, kros üzrə Azərbaycan rekordçusu, dünya və Avropa oyunlarının mükafatçısı, idman ustası  Fikrət Qafarovun yetirməsidir. 2015-ci ildə Avropa oyunlarında 2 saniyə fərqlə təsəlliverici yığmaya düşdü. Həm də Olimpiya oyunlarının Astarada baş tutan Məşəlaparma mərasiminin məşəlaparanlarından biri olub. Yeniyetmələr arasında Azərbaycan birinciliyinin qalibiydi Arif. Yeniyetmələr, gənclər, həm də böyüklər arasında milli komandanın üzvüydü. Öz üzərində daim çalışan, Vətənə, dövlətə, dövlətçiliyə sadiq olan oğul idi. Maxe olmaq istədi.

Arif  İsmayıl oğlu Qeybiyev 6 iyun 1997-ci ildə Astaranın  Səncərədi kəndində anadan olub.  Orta təhsilini kənd məktəbində alıb. Atletika ilə məşğul olub. Məktəbliykən 2013-cü ildə 3 km-lik məsafəyə qaçış üzrə Azərbaycan çempionu adına və qızıl medala sahiblənib.

Məktəbi bitirdikdən sonra Astara rayon Pedaqoji Kollecin idman fakültəsinə daxil olub. Aytac Hüseynova Arifin xoşbəxt tələbəlik illərinin dostudur. Bir qrupda oxuyublar:

“Çox mərd, gülərüz, şən, dürüst idi. Ona görə dostluğumuz tuturdu.

Hər oğlanla dostluq etmək olmur. Sirlərimizi də bölüşərdik. Arif çox qızların diqqətini çəkirdi. O isə İranəyə vurulmuşdu, bunu da ilk mənə söylədi. Bu sirri də mən açdım İranəyə. Sevgiləri qarşılıqlıydı. Ailə qurdular. İdmanda da uğurları çox olub".

Qazandığı uğurlara görə adı ölkə və rayon üzrə ilk üçlükdədi.

Atletika üzrə yarışlarda 50-dən çox diplomun 30-dan çoxu birinciliyə görə olan üçqat Azərbaycan çempionu 2016-cı ildə həqiqi hərbi xidmətə çağırılır və ilk xidmət yeri Bakıda Daxili İşlər Nazirliyinin Daxili Qoşunları olsa da, Naxçıvanda Xüsusi Təyinatlıların bölüyündə hərbi xidmətinə davam edir. 2018-ci ildə hərbi xidmətini bitirir. Amma rahatlıq tapmır. Hərbiçi olmağa qərar vermişdi artıq. Ordu sıralarına qəbul olunmaq üçün 3 dəfə sənəd verir, yalnız 4-cü müraciətindən sonra istəyinə çatır. 2018-ci ildə hərbi xidmətə yollanır. Ağcabədidə, 2019-cu ilin avqustundan isə Füzulidə tankçı kimi xidmət edir.

Həmişə narahat valideynlərinə, xanımına "Qorxmayın, tankçıların ölmə ehtimalı azdı" – deyərək ürək-dirək verib.

Həyat yoldaşı İranəyə son mesajını oxudum Arifin, 27-də səhər 5:42-də yazıb : "Aşkım, nigaran qalma. Özündən, anamdan, gözəl qızımdan muğayat ol. Sizi sevirəm".

Sonra yenə mesaj yazıb: "Əsas sizsiz. Əsas qızımdan muğayat ol, bir də anamdan. Haqqınızı halal edin. Sizi sevirəm. Yaşasın Azərbaycan. Vətən sağ olsun. Sizi sevirəm". Eyni mesajı iki dəfə göndərib Arif səhər 5:47 və 6:02-də. O gecə yatmayıb Arif. Son mesajlarını yazdığınımı hiss edib? Nələr düşünüb? İndi heç kim bilmir...

"Gəlin maşınını da bayraqlarla bəzəmişdi" dedi nisgilli səslə İranə...

Atası oğlunun şəhidliyindən 12 gün öncə bu dünyayla vidalaşıb. Bəlkə hiss edib ki, oğlu şəhid olacaq? Son dəfə doğma kəndinə atasının dəfninə gələn Arif "mən ancaq şəhid kimi dönəcəm" deyib.

Arifin qızı Gülnurdan və tək qalan anasından nigaran baxışlarını xatırlayır yaxınları.

27 sentyabr 2020-ci ildə illərdi gözlədiyimiz torpaqların azadlıq savaşı başlayan günə kimi də Arifi qorxmaz, cəsur biri kimi tanıyırdılar. O günə kimi də Arif elin-obanın fəxriydi.

Ən gözəl sözləri demək üçün yarışa durmuşdu hamı.

Valideynlərinə, sevgilisinə, övladına olan eşqindən ötə bir hiss də vardı onun üçün: Azərbaycan. Bütün sevdiklərinə "Sizi sevirəm, amma vətən bir başqadı" - deyərdi...




# ŞƏHNİN

Şahlar oğlu Novruzov

**03.02.1998 - 19.10.2020**

## TARİXİ OXUMADI-TARİX YAZDI

Şəhnin Novruzov 3 fevral 1998-ci ildə Astaranın Səncərədi kəndində doğulub. 2004-cü ildə həmin kənddə Birinci Qarabaq savaşının şəhidi Milli Qəhrəman E.Ağayev adına məktəbdə təhsilə başlayıb.

2007-ci ildə ailə Bakının Zirə qəsəbəsinə köçüb. Ailənin maddi durumu çətin olduğundan Şəhnin təhsil ala bilməyib, kiçik yaşlarından usta yanında çalışıb. Maddi çətinlikdən 10-11 yaşlarından işləməli olub.

Tarixi oxumaq imkanı olmayıb.

Hamıya rahat otaqlarda yaşamaq, gözəl məktəbli çantası, ləvazimatı almaq nəsib olmur. Hər uşaq tezdən səhər yeməyi yeyib məktəbə gedə bilmir. Şəhnin kimi...

Kiçik yaşlarından usta yanında işləyən Şəhnin tezliklə bacarıqlı usta olur. Öz zəhmətiylə yaşayır, ailəsinə kömək edir...

9 aprel 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanır. 2017-ci ildə Beyləqanda xidmətini başa vurur.

Xidmətdən sonra yenidən usta kimi çalışmağa başlayır. Qardaşı Səddamla birlikdə gözəl evlər tikir.

Novruzovlar üç qardaş idi: Şəhnin, Səddam, Maqsud.

Qardaşı Səddamın dedikləri: Kiçik qardaşım Maqsud məktəblidir. Şəh-

ninlə birlikdə işləyirdik. Mənim dayağım idi. İndi tək qaldım. Ailə vəziyyətimiz, maddi durumumuz çətin idi. Təhsil ala bilmədik. İşləməli olduq. Amma Şəhnin çox bacarıqlıydı. Gənc idi, amma 30 ilin ustası kimi iş görürdü. Döyüşlərdə də çox igidlik göstərib. Uşaqlıqdan çətinliyə öyrəşmişdi. Dözümlü idi. Qorxmaz idi. Böyük qardaşım, fəxrim idi. Döyüş yoldaşları onun haqqında elə danışırdılar qardaşımla bir daha qürur duyurdum. İndi təkcə bizim ailənin deyil, elin-obanın, Azərbaycanın fəxridir. Özü arzuladığı kimi tarix yazdı.

“O qədər cəld idi, səbrsiz idi ki! Dəliqanlı idi. Şəhnin döyüşə gedəndə elə bilirdin bir ordu gedir. Hədsiz cəsarətliydi. Onun yanında güvənli olurdun. Yaralılara çox kömək edirdi. İlk yardım göstərirdi. Təcili yardıma çatdırırdı. Həm də sərrast atıcı idi”. Bunları döyüşlərdə yaralanan qazi Abbas İbrahimli söylədi. Abbas İbrahimli Astara Gənclər və idman İdarəsinin gənclərlə iş üzrə nümayəndəsi və könüllülərin koordinatorudur.

2020-ci ildə Vətən savaşı başlayanda müddətli hərbi xidmətdə kəşfiyyatçı olan Şəhnin Şahlar oğlu könüllü olaraq döyüşlərə qatılır. Qarış-qarış, kənd- kənd torpaqlarımızın düşmən işğalından azad olunması üçün döyüşür.

Oktyabın 20-də Xocəvənd uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Döyüşə gedərkən yaxınlarına, doğmalarına deyir: “Mən oxuya bilmədim, tariximizi öyrənə bilmədim, bunu bilin, bu tarix dəyişəcək, özümdən sonra böyük bir tarix yazacam. Biz yeni tarix yazacayıq. Biz o qara yazıları siləcəyik”.

Şəhid Şəhnin Novruzov həqiqətən də yeni Azərbaycan tarixinin yazılmasında misilsiz rol oynadı. Şəhninlər zəfər günlərini yazdı tariximizə - Zəfər yazdılar.

Şəhadətindən sonra 190 saylı hərbi hissənin kəşfiyyatçısı Şəhnin Şahlar oğlu Novruzov “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” medalıyla təltif olunub.

İndi o doğma kəndində - Vətən torpağında uyuyur.



# RAUF

Xəyyam oğlu Cahangirov

**31.08.1998 - 02.11.2020**
**(17.12.2020-ci ildə torpağa tapşırılıb)**

## XOCALI FACİƏSİNİN QİSASINI ALMALIYIQ

Cahangirov Rauf Xəyyam oğlu 1998- ci il avqustun 31-də Astaranın Maşxan kəndində anadan olub. Əfqanıstan müharibəsinin şəhidi Nizami Əliyev adına Maşxan kənd orta məktəbində təhsil alıb. 2015-ci ildə orta təhsilini bitirib, Lənkəran Dövlət Universitetinin maliyyə fakültəsinə qəbul olunub. LDU-nun 2019-cu il məzunudur.

Həmin ildə müddətli həqiqi hərbi xidmətə yollanıb. Həqiqi hərbi xidmətdən sonra da narahat idi Rauf. Babası Cahangirov Hacıvəli kişinin səsindəki həsrət ağlayırdı: Gələndən sonra deyirdi, dədə, elə bil avtomat çiynimdədi. Səfərbərlik olan kimi getdi. “Dədə o Xocalı faciəsinin qisasını almalıyıq”. Yanıram mən. Balamın həsrətini çəkirəm. Doymadım ondan. Özü getdi. Qalmadı, dedi “Qala bilmərəm. Torpaqlarımızı kim azad eləsin”?

Beləcə getdi Rauf sentyabrın 21-də, özü getdi. Könüllü... Torpaqlarımızı namərd düşmənlərdən azad etməyə...Qisasını aldı Rauf.

Atası Xəyyamın söhbətlərindən: Əla qiymətlərlə oxuyub Rauf. Çox çalışqan, sakit uşaq idi. Bütün universitet onu sevirdi. Çox savadlı olduğundan Kaspi kurslarına dəvət etmişdilər işləməyə. Dedi “əsgər gedəcəm”. Ayağının altı düz idi, əsgər aparmırdılar. Özü təkcə gedib həkim müayinəsinə, orada deyiblər “sən xidmətə yararsızsan”. Hirslənib ki, sizdən şikayət edəcəm. “Gedib əsgərliyimi çəkəcəm, göstərəcəm sizə yararsızam, ya yox!” Mənə sonra danışdı. Dedim qanun belədir. Dedi “olmaz, getməliyəm”. Həqiqi

hərbi xidmətdən qayıtdıqdan iki ay sonra da səfərbərlik elan olundu, könüllü getdi. Zəngilanda döyüşüb, sonra Hadruta gediblər. Artıq Şuşa uğruna döyüşlər başlayanda, noyabrın 1-də Rauf ayağından yaralanıb. Onu Hadrut xəstəxanasına yollayıblar. Noyabrın 2-də isə 6 nəfər yaralını təcili yardım maşınıyla Füzuli xəstəxanasına göndəriblər. Səbəbini bilmirəm, necə olubsa, səhvən Laçına yollanıb maşın... Laçın isə o vaxt düşmənlərdə idi. Bir xeyli bu yaralılardan xəbər çıxmadı. Hər yerə müraciət etdik. Müdafiə Nazirliyindən onların Laçında olduğunu öyrəndik. Laçın alınandan sonra tapdıq oğlumuzu. Yaralıların hamısını qətlə yetirmişdilər, - dedi ata.

47 gün sonra doğma kəndinə dönür şəhidimiz...

Asanlıqla "yararsız" adını ala bilərdi Rauf. Amma dövlətinə yararsız olmaq ona ağır gəlib. Azərbaycanın tarixini yaxşı bilirdi Rauf. Bu tarix qədər ağır gəlib yararsız olmaq...

Cahangirovlar ailəsində iki oğlan və bir qız böyüyüb. Qardaşı Ramin Cahangirov da ali təhsillidir. Bacısı, sonbeşik Sənubər isə məktəblidir.

Füzulidən başlayıb döyüşlərə ərənimiz. Cəbrayıl, Zəngilan, Hadrut, Xocavənd uğrunda döyüşlərdə hədsiz igidliklər göstərib. Onun haqqında döyüş yoldaşlarının danışdıqları heyrət doğurur. "Nə qədər yaralını xilas edib Rauf. Qorxmurdu. Mina atılan səngərlərə belə gedirdi ki, birdən yaralı olar, birdən şəhid olar. Onları çiynində daşıyırdı.

Üçüncü komandirləri şəhid olandan sonra Raufu komandir təyin edirlər. "Onun yaralanması da möcüzə kimiydi. "Odda yanmaz, suda batmaz" deyirdik ona. O qədər cəsur idi. Yaralandı. Biz onun şəhid olduğunu bilmirdik. Elə bilirdik hospitaldadı, müalicə alır. Qələbədən sonra axtardıq onu. İnanmırdıq ki, ona nəsə olar". Bunları danışdı döyüş yoldaşı Emil.

Əmisi Yusifin sözlərinə görə Rauf tez-tez "Mən erməniləri bağışlaya bilmərəm. Mən hərbiyə getməliyəm. Biz torpaqlarımızı düşmən əlində qoya bilmərik. Mən artıq silahlardan istifadəni bacarıram. Silahı yerə qoymaq zamanı deyil" - deyirdi. Beləcə getdi.

Ali Baş Komandanın sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunan Rauf torpaqları işğalda olan hər bir vətənsevdalı kimi narahat yaşayırdı. Rahatlığını, xoşbəxtliyini işğal olunmuş ərazilərimizin azadlığında görürdü.



# KAMRAN

Cəlal oğlu Seyfullazadə

**14.01.1999 - 05.11.2020**

## ÜRƏYİ AZƏRBAYCAN DOLU KAMRAN SEYFULLAZADƏ

“22 yaşını yanvarın 14-də qeyd elədi o dünyada” – ananın ağrılı səsindən mərminin qəlpələri Kamranla birlikdə mənim də canıma doldu elə bil.

Kamran Seyfullazadə Cəlal oğlu 1999-cu il yanvarın 14-də Astarada doğulub. Orta təhsilini F. Əliyarov adına 6 nömrəli məktəbdə alıb.

Uşaqlıqdan sevimlisi olub hamının gözəlgözlü Kamran: ailənin, qohum – qonşuların, məktəbin, böyüyün, kiçiyin.

“Gözümün qabağında böyüyən uşaqdı. 12-13 yaşı olardı. 26 fevralda Xocalı faciəsi ilə bağlı kadrlara baxırdıq. Kamranın gözləri dolmuşdu. “Mən bunun qisasını alacam” dedi. Ona baxdım. Gözlərində qəzəb, nifrət vardı. Elə hey deyərdi ki, erməni kimdi, bizim torpaqlarımızı alsın, kimdi? O qədər həyacanlanır, fikir edirdi ki... Ona ürəkdirək verirdim, sakitləşdirirdim. Onun ürəyi Azərbaycanın ərazi bütövlüyü arzusuyla döyünürdü. Bütün oğullarımız, bütün şəhidlərimiz mərddi, igiddi hamısı. Amma 100 nəfər seçməli olsaq, onlardan biri mütləq Kamran olar. Sözlə ifadə edə bilməyəcəyim qədər qeyrətli, cəsarətli uşaq idi - bunları Kamranın ən yaxın dostlarından biri olan Fuadın atası Adil söylədi.

Novruzlu Fuad isə Kamrandan saatlarla danışmaq istəyirdi: Ondan nə qədər danışsam, nə desəm az olar. Deyib bitirə bilmərəm. Heç ayrılmazdıq. Ondan ayrılmaq olmurdu. Bütün uşaqlığımız bir yerdə keçib. Məndən kiçik olsa da, daha ağıllı idi. Onunla məsləhətləşərdim. Lazım gəlsə, dostuna görə canını verərdi, o ki qala vətən. Hərbi xidmətdə olmuşdu. General Polad Həşimov öləndə çox sarsıldı. Adını o vaxtdan yazdırmışdı. Müharibə başlayanda o saat könüllü cəbhəyə yollanıb. Axırıncı söhbətlərimizdən birində ona özünü qoru dedim. Cavab verdi ki, burda hamı özünü yox, vətəni qoruyur. "Bilirsən necə oğlanlar var! Hamı birdi! Əsas odu düşmən qabağımızdan qaçır". Son nəfəsəcən döyüşüb. Şəhid olan döyüş yoldaşının da silahını götürüb, iki silahla döyüşüb. Onu itirməyimizlə barışmırıq. Amma hamımızın başını uca elədi.

"Çox yaxın 4 dost olmuşuq – Mən, Fuad, Orxan, bir də ən kiçiyimiz Kamran. Ən şirin, ən qiymətli xatirələrimdi Kamran. Doğmam idi. Onun kimi mərd oğullar hələm-hələm gəlmir dünyaya. Mərdliklə də döyüşüb.Tez-tez əlaqə saxlayırdıq. Axırıncı döyüşdə 8 nəfər olublar. Sonacan döyüşüb. Sonacan! Öləcəyini bilsə də postunu tərk etməyib". Bunları da dostu Məlikzadə Elbrus danışdı.

Orxansa deyir ki, Kamran əlindəki bir tikəni dostuna, ya ehtiyacı olan birinə verə bilərdi. Mən də dostlarımı sevirəm, amma həmişə fikirləşmişəm Kamrana çata bilmərəm. Müharibə başlayanda ayrı düşmüşük. Eynullazadə Orxan da igid döyüşçülərimizdəndi. Füzuli, Xocavənd, Cəbrayıl uğrunda döyüşlərdə olub. Döyüşlər haqqında danışmaqda çətinlik çəkir: Yadıma düşür, yanıram. Müharibədi, meşədə qalmışıq, ac-susuz olmuşuq, amma bunlara fikir vermirdik. Ən ağırı yanındakı döyüş yoldaşlarının şəhid olması idi. Snayperlər izləyirdi, şəhidləri, yaralıları döyüş yerindən mütləq çıxaracağımızı bilirdilər. Kamran da şəhid dostlarını qoyub getməyib. Elə oğul idi. Sonu ölüm olsa belə, kimsəni darda qoymazdı...

Uşaqlıq və döyüş dostlarını, onu tanıyanları dinlədikcə qorxmaz, mərd, sözünə bütöv, yaraşıqlı Kamranı görürdüm elə bil. Gözlərim önündə Kamran canlanırdı: ürəyi Azərbaycanla dolu Kamran.

"Boy-buxunluydu Kamranım. Onunla birlikdə özümü də, ürəyimi

də dəfn eləmişəm sanki. 12 yaşından ailənin yükünü çəkib, oxuyub, həm də işləyib"- deyir ana. Onu hamı çox istəyirdi, hamı. Döyüşçülər də çox tərifləyir, deyirlər "siz ona şir südü vermişdizmi belə qorxmaz idi?" Bir dənəm idi. Qəhrəmanımız Polad şəhid olan gündən bu uşaq özünə yer tapmırdı. "Gedəcəm" deyirdi, qisasını alacam. Medal üçün döyüşməyib mənim balam, amma o qədər medal verdilər oğluma".

"Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasıına görə" medalları ilə təltif olunub Kamran Seyfullazadə.

Gənc yaşının qocaman hörməti vardı. Onu həm də mərdliyinə görə sevirdilər. Cəsarətinə görə döyüş yoldaşları ona "əjdaha" deyirdi. Neçə - neçə yaralını xilas edib, şəhid olanları güllə altından çıxarıb "əjdaha Kamran".

Xüsusi Təyinatlıların könüllüsü olan Kamran Seyfullazadə Füzuli, Hadrut, Cəbrayıl, Xocəvəndin azadlığı uğrunda döyüşlərdə iştirak edib. Xüsusi Təyinatlılarla birlikdə Şuşaya daxil olub.

Şuşa uğrunda döyüşlərdə də noyabrın 5-də qəhrəmancasına həlak olub 21 yaşlı Kamran.

"Oğluma ən gözəl sözləri yazın"... deyən anaya təsəlli verə bilmədim. "Ağlayan səsinin başına dönüm" – dedim sadəcə. Deyə bilmədim ki, ən gözəl sözləri, əsrlərlə yaza bilmədiyimiz sözləri sənin Kamranın yazıb. "Qələbə"! Bizi utancdan qurtarıb. Azərbaycanın tarixinə elə sözlər yazıb ki, biz nə yazsaq yanında solar. Kamranlar nələr edib bilirsənmi, ana?" – deyə bilmədim.

"Özü getdi. Mən ona heç "getmə" də demədim. Bilirdim ki, faydasızdı, desəm də gedəcək. Ölümü gözə alıb getdi".

Kamran bütün şəkillərində gülümsəyir. "Ana, ağlamazsan. Mən ermənilərdən qisas almağa, ölkəm üçün ölməyə, Şəhid olmağa gedirəm" – deyən gözəl gözlü, gülümsər üzlü gəncə "Vətən uğrunda" medalı verilib. Hər şey deyilib artıq...



# TƏRLAN

Mehman oğlu Quliyev

**26.01.2000 – 14.10.2020**

## ŞUŞAYA GEDƏCƏYİK

2000-ci il yanvarın 26-da anadan olub Quliyev Tərlan Mehman oğlu. Astaranın Ərçivan qəsəbəsində. Ərçivandakı 4 nömrəli tam orta məktəbin məzunudu. 3 qardaşdan ikincisidi Tərlan. Şəkillərinə, video görüntülərinə baxdım. Gülərüzdü, şən, dəcəl, mehriban – belə gördüm Tərlanı. "Eləydi"- deyir onu oğlu kimi böyüdən, 4 nömrəli məktəbin dil-ədəbiyyat müəllimi olan xalası Xəyalə xanım. "Çox şən, zarafatcıl, mehriban, hədsiz qayğıkeş..."

Yaşının, təbiətinin çılğınlığına baxmayaraq böyüdükcə doğum günündə ürəkdən sevinə bilmirdi Tərlan. 26 tarixi iri, qara gözlərinə kədər salırdı: 26-sında Xocalı faciəsi baş verib, nə fərqi bir ay sonra olub. Bunu bağışlaya bilmərik...

Bəlkə də hər il yanvarın 26 – da təkcə özü böyüməyib, Xocalı dərdi də, böyüyüb onunla. Yoxsa niyə tez-tez "Xocalını azad edəcəyik, Şuşaya gedəcəyik"- deyəydi ki...

Həyat birdən üzünə elə şillə çəkər səndələyərsən, güclə ayaqda qalarsan. Bir dayağın, tutacağın olmasa, yıxılarsan... Şəxsi həyatı alınmayan Xəyalə müəllimə üçün də Tərlan yaşamaq səbəbi idi. Bütün həyatını ona bağlayıb. "Sən mənim xalam yox, anamsan, mən xoşbəxtəm-iki anam var" deyərdi Tərlan.

“Həmişə ona naz edərdim ”mənim yaraşıqlım, gözəlgözlüm” deyərdim. O mənim oğlum idi. Onun iki anası vardı: bacım Vüsalə, bir də mən. Çox vaxt yanımda qalırdı. Hər gün səhər tezdən onun görüşünə gedirəm indi. Yenə əzizləyib, oxşayıram. Çoxlu güllər əkmişəm məzarına, gülləri çox sevirdi, deyirəm güllərin ətrinə oyanar bəlkə... Hər yerdə onu axtarıram. Şair deyiləm, onun üçün şeirlər yazıram:

Bu axşam yenə də ürəyim dolub,
Gözlərim yol çəkir, gələsən bəlkə...
Həsrətli baxışlar yollara qonub
Mənim həsrətimi görəsən bəlkə...

“Mənim övladımdı. Tək mənim yox, hamının sevimlisi idi. O qədər dostu vardı saya bilməzsiz. Tərlan haqqında nə deyim? Hansı söz bəs edər onu bəzəməyə? Vətən sevdalısıydı. Könüllü getdi müharibəyə. “Getmə” də deyə bilməzdik. Özü də fərqliydi. Ölümü də fərqli oldu. Bir ana üçün övlad itkisindən ağır nə ola bilər? Amma oğlum Vətəni üçün Şəhid olmaq istəyirdi. Həmişəki kimi qürur yaşatdı bizə” – söylədi Vüsalə anası.

Övlad itkisinə təsəlliverici söz tapmaq olmur. Nə Vüsalə xanımın, nə də “onsuz yenə tək qaldım” deyən Xəyalə xanımın ağlayan səsinə cavab verə bilirdim.

-Nə gizlədim, dedim, bəlkə getməyəsən, qala bilərsən”. Atası Bələdiyyə sədridi, düşündüm saxlada bilər. “Nə danışırsan? Nə özümə, nə sizə, nə də atama bunu yaraşdıraram. Ömrümü ”atası saxlatdırdı” sözü ilə keçirə bilmərəm. Atam da bunu etməz. Mən alçaq deyiləm. Siz məni belə böyütməmisiz axı... Şəhid olmaq alçaq kimi yaşamaqdan min dəfə, milyon dəfə şərəflidir. Nə fərqi var nə vaxt öləcəm? Necə ölməyin fərqi var”- deyib üzümə elə baxdı nitqim qurudu... Hələ də o baxışları unuda bilmirəm. Tərlan istədiyi kimi şəhid olub, mənsə hələ də dediyim sözün peşmanlığını çəkirəm...Gərək elə deməzdim. Xəyalə müəllimənin səsi dərdi kimi yüklüdü.

Ömrün elə çağındaydı Tərlan hər saat, hər gün arzularına sarılırdı, ilk sevginin şirinliyində xumarlanırdı, bütün həqiqətlərin gözəlliyinə inanırdı... Uçurdu. Uçurdu Tərlan elə tərlan kimi. Yaş o yaşdı – xəyallardan qanad taxıb uçarsan. Amma bütün bunlardan daha üstün,

daha möhtəşəm arzusu vardı. Düşünəndə gözəlliyindən qürür duyduğu, inandığı, güvəndiyi həqiqəti vardı Tərlanın: Qarabağ Azad olacaq! Xocalı qisası alınacaq.

Döyüş yoldaşları da bunu təsdiq etdilər: Qələbəyə əmin idi. Elə bil əli ilə yazmışdı. Başımıza güllə yağanda, sağ qalacağımıza ümid etməyəndə  Ali Baş Komandan kimi yumruğunu qaldırıb şən səslə ”Qarabağ Azərbaycandır və nida” deyirdi. Kiminsə üzündə azca tutqunluq görən kimi “gül, sevin, Zəngilana gedirik, Qubadlıya, Şuşaya, Xankəndinə gedirik” - deyib ruh verirdi. Emil danışdı bunları. Bir də əlavə etdi: “Eyni sinifdə oxumuşuq, illərlə bir yerdə olmuşuq, bir-birimizi bu qədər tanımamışıq. Döyüşdə 3 gün də bir yerdə olsan, adamı daha yaxından tanıyırsan. Tərlanı qəhrəman kimi tanıdım. Ona baxıb fəxr edirdim”.

Füzuli, Ağdərə, Cəbrayılda ən ağır döyüşlərdə olub ilk gündən Tərlanımız. Cəbrayıl uğrunda döyüşlərdə snayper gülləsinə tuş gəlib İkinci Qarabağ Savaşının könüllüsü Tərlan Mehman oğlu Quliyev.

Döyüş yoldaşı Şamxalın söylədiklərindən: Cəbrayıl istiqamətində irəliləməliydi bölüyümüz. 3 taqıma bölünmüşdük. Tərlan ilk taqımda idi. Həmişə irəlidə olmaq istəyirdi. Orda strateji əhəmiyyətli yüksəkliklər var, onları ələ keçirməliydik. 4 saatdan artıq yüksəkliyə qalxdıq, 5 saat döyüş oldu. Yüksəkliyə qalxanda ağırlıq etməsin deyə, ərzaq, su ehtiyatlarını götürmürdük. O döyüşdə Tərlan yaralandı və şəhid oldu. Biz də geri addım atmadıq. Nə yaxşı ki, Vətən qarşısında da, şəhid olan döyüş yoldaşlarımız qarşısında da borclu qalmadıq.

İkinci Qarabağ Savaşı başlayanda Tərlan müddətli həqiqi hərbi xidmətini 8 ay idi bitirmişdi. Savaş başlayan kimi döyüşə yollandı. Atası Meman Quliyev rayonun, qəsəbənin hörmətli insanlarındandır. Oğlunu “gizlədə” bilərdi. ”Mən bunu oğluma necə qıyardım? Valideynlər övladlarının arzularını yerinə yetirmək üçün çalışır ömür boyu. Mən qürurlu, vicdanlı oğul böyütmüşdüm. “Bilirəm ki, qələbə bizimdir. İstəyirəm torpaqlarımızın azadlığında mənim də payım olsun”. Oğlumun bu müqəddəs arzusuna qarşı necə çıxardım? Nə mən, nə də Tərlan bu utancla yaşaya bilərdi” – dedi Mehman bəy.

Torpaq hamıya vətən olmur. Onu sadəcə yaşayış yeri sayanlar giz-

lənər. Onların yurdu olmur. Dövlət onu yaşadanlarındı - Tərlan kimi.

İndi doğma Astaranın 5 nömrəli tam orta məktəbində 9 b sinfi Tərlan Quliyevin adını daşıyır. Sinif Rəhbəri İradə Qaçayeva ömrünün 40 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr edib. Biliyi, məsuliyyəti, vətənsevərliyi ilə seçilib: “Astara Birinci və İkinci Qarabağ savaşında xeyli şəhid verib. Cəsurluğu ilə seçilir gənclərimiz. Biz də onları yaşatmalıyıq. Böyüyən nəsil öz qəhrəmanlarını tanımalı, onlar kimi vətənsevər olmalıdır. Düşündüm ki, ən azı sinfimiz onlardan birinin adını daşıya bilər. Şagirdlərim təklifə sevindilər. İndi sinfimiz Tərlan Quliyevin adını daşıyır. Ailəsilə görüşürük. Doğum günündə də ziyarətinə getdik”.

26 yanvar 2021- ci ildə 21 yaşı oldu. 21 yaşına “Cəbrayılın azadlığı uğrunda”, “Vətən uğrunda” medallarını, Azərbaycana isə Qələbə sevincini yaşadan oğul hədiyyə etdi Tərlan.

Düşündüm ki, Tərlan bəlkə də ən çox bu doğum günündə sevindi. Göylərə baxdım. Göylər tutqun, hava soyuq olsa da Qələbə günəşini gördüm. Bir də doğma yurdun başı üstündə qanad çalan Tərlanı.  30 illik yaralarımızı sarıyan tərlanları gördüm.



# SADİQ

Şahin oğlu Bağırzadə

**15.04.2002 – 30.09.2020**

## ÖZÜNƏ - SÖZÜNƏ sadiq SADİQ BAĞIRZADƏ

“Torpağa su qarışanda palçıq olur, qan qarışanda Vətən”- sözlərini əlini, ayağını, gözünü itirən yaralı döyüşçülərimizin, qazilərimizin dilindən çox eşitdim bu günlərdə.

Bu günlərdə əsgərlərimizin sosial şəbəkədə paylaşılan üzümüzdə təbəssüm doğuran müxtəlif görüntülərini də izlədim. Boş vaxtları olanda yellənçəkdə yellənir, oxuyur, yemək bişirirlər, qartopu oynayırlar... Bildiyimiz, gördüyümüz, yaşadığımızdı hamısı. Amma elə fərqli duyğular oyadır ki... O qədər xoşdu ki. Bilirəm ki, hamı qartopu oynayanları ilk dəfə görürmüş kimi izləyir bu paylaşımları. Kövrəlmədən baxmaq olmur. Və düşünməsən də olmur: Uşaqdılar...

Hərdən lap hönkürmək istəyirsən bu böyüklüyə sığmayan uşaqlığa, uşaqlığa sığmayan böyüklüyə.

Ölümün üstünə gedən, gözünə baxan ərənlərim gizlənqaç oynayırlar. Ölümün gözü qarşısında gizlən-qaç oynayan uşaqlıq içini titrədir adamın. Nə varsa, sökür ilmə -ilmə.

Bəlkə elə Sadiq də gizlənqaç oynayıb? Hardasa gizlənib? Elə gizlənib ki, ən yaxın dostları da tapmayıb onu?

Mən də onu tapmaq istədim, axtardım, Sadiqi axtardım.

Şəhid olandan sonra axtardım. Ailənin yeganə oğlu Sadiq Şahin

oğlu Bağırzadəni Şəhid olandan sonra tapdım, tanıdım.

Sadiq Bağırzadə Astaranın Ərçivan qəsəbəsində 15 aprel 2002 - ci ildə dünyaya gəlib. 2008 - ildə Ərçivandakı Şəhid Natiq Kərimovun adını daşıyan 3 nömrəli tam orta məktəbin birinci sinfinə gedib, 2019 – cu ildə həmin məktəbin məzunu olub. Sadə zəhmətkeş ailədə böyüyüb.

Bu sadəcə qısa xronologiyadı. O isə hamının sevimlisi idi: şagirdlərin, müəllimlərin, onu tanıyanların... Həmişə fərqlənib. Dostları deyir ki, təbiətən çox şən olan gülərüzlü Sadiqi sevməmək mümkün deyildi.

Ağlımız azca işləyəndən xəyallar qururuq, arzularımız olur. Kimi aşpaz, kimi təyyarəçi, kimi polis, kimi sürücü olmaq istəyir. Sadiq uşaqlıqdan idmançı olmaq istəyirdi. Arzusuna sadiq qalıb. 8 yaşından idmanla məşğul olub. 8 yaşından arzusu – məqsədi olub.

İdmanla məşğul olsa da, tarix elminə xüsusi marağı vardı. Tarix fənnini, tariximizi sevə - sevə öyrənirdi. Bəlkə buna görə də özü ilə birgə torpaqlarımızı azad etmək arzusu da böyüyürdü. O, işğal günlərini tariximizdən silmək istəyirdi.

“Bir başqaydı Sadiq. Çox fərqliydi. Tariximizə qarşı çox həssasdı. Bütün düyünlü tarixlərin “niyə”si vardı onun üçün. O gözəl gözləriylə elə baxırdı çaşıb qalırdın. Yeni tarix yazmaq istəyirdi” – bunları tarix müəllimi, həm də sinif müəllimi olan Nuranə Həmidova dedi. Nuranə xanım özü də fərqlidir. Sərrast düşüncəli, fəal, savadlı. Ərçivanda bir işıq kimidi Nuranə müəllimə. Qızlarımızın təhsilinə xüsusi diqqət yetirir, şəhid ailələri, qazilərimizlə əlaqə saxlayır, tariximizi öyrədir, Vətəni sevdirir. Sadiq kimi vətəndaşlar yetişdirir. Onunla ünsiyyətdə olanda “kaş bütün müəllimlər belə olaydı” düşündüm.

Atası Şahin bəy deyir ki, Qarabağ hadisələri, işğal olunan ərazilərimiz onu həmişə narahat edirdi. Kiçik yaşlarından bu hadisələrlə bağlı suallar verirdi. Bu onun üçün ağrılı mövzu idi. “Bir gün Xocalı faciəsinin qisasını alacağam” deyirdi...

Çox gənc idi Sadiq Şahin oğlu. Arzuları çox idi. Yaşının kiçik olmasına baxmayaraq arzuları böyük idi özü kimi. Məktəbinə, ailəsinə, doğma el – obasına başucalığı gətirmək üçün yaşayırdı. Ömrünə tarix yazırdı. Sadiq Heydər Əliyev adına bütün turnirlərin boks üzrə yarışlarında “Qızıl medal”a layiq görülüb hər dəfə. İştirak etdiyi yarışlarda aldığı medallar, diplomlar, fəxri – fərmanlar yaşadığı illərə sığmaya-

caq qədərdir.

Hələ 2016 – cı ildə 14 yaşında Boks üzrə Açıq Bakı birinciliyində yalnız finalda uduzaraq gümüş medalla dönüb doğmalarına. Yarış seçim xarakteri daşıdığından Milli Komandaya vəsiqə qazanıb. O, Azərbaycan Respublikası Milli Komandasının üzvü idi.

Çox arzuları vardı. Beynəlxalq yarışlarda iştirak etmək,Vətənini dünyada tanıtmaq, Bayrağını ucalarda görmək istəyirdi. Avropa və Dünya çempionu adını qazanmağı məqsəd qoymuşdu. Yorulmadan məşq edirdi. Məşqçiləri ona inanırdı.

Dünyanın istənilən ölkəsində keçirilən yarışların qalibi olmaq istəsə də, bir müqəddəs arzusu da vardı: bir gün Şuşada, Xankəndində keçiriləcək yarışların qalibi olmaq istəyirdi. Hərdən də zarafatla deyirdi: “Eybi yoxdu, təki axırıncı yeri tutum, amma torpaqlarımızı işğaldan azad edək, Şuşada idman yarışları olsun”. Ona görə də ilk olaraq Vətənə borcunu vermək istədi.

Hərbi xidmətə gedəndə ona yola salan dostlarından birinə pıçıldamışdı: Nə olaydı, döyüş başlayaydı, torpaqlarımızı azad edəydik... Mən də döyüşəydim.

Beləcə 2020-ci ilin may ayında hərbi xidmətə yollandı Sadiq. Çox çevik, idmançı olduğundan onu Xüsusi Təyinatlı Qüvvələrə qəbul etdilər. Kəşfiyyatçı kimi təlim keçdi. Ona “qızıl əsgər” dedilər.

Sadiq Bağırzadə tarix yazdı: XTQ-in ən gənc kəşfiyyatçı qəhrəmanı kimi tarixə düşdü.

İkinci Qarabağ Savaşı başlayanda öndə gedən zabit heyətində tək əsgər oldu. İlk gündən igidliyi ilə də fərqləndi. Murov yüksəkliyi uğrunda savaşda “Murov aslanı” dedilər ona.

İllərin dostu kimi sevdiyi, qardaş bildiyi Akstafalı balası Xaləddin Cəlilovla birlikdə 16 erməni postunun dağıdılmasında, Murovdağ yüksəkliyini düşmənlərdən təmizlənməsində aslanlar kimi vuruşub döyüşçü yoldaşlarının bizim “Murov aslanımız” dedikləri Sadiq Bağırzadə.

Taqım və manqa komandirlərinin sözlərinə görə onu saxlamaq olmurdu. Minalanmış sahələrə heç kimi buraxmırdı. Birinci özü gedirdi. Həmişə bir sözü vardı: Biz bu torpaqları almalıyıq. Biz bu yükü sonrakı nəslə qoyub gedə bilmərik. 18 yaşı olmasına baxmayaraq, daşıdığı məsuliyyət artıq qoca idi.

Murovdağa bayraq qaldıranda üzündəki Qələbə sevinci ilə qalıb dostlarının yadında igidimiz.

Sadiq döyüşdə olduğunu ailəsinə deməmişdi. Ata –ana bundan xəbərsizdi. Hər gün bir xəbər gözləyirdilər. Ürəkləri bir xəbər ümidinə sarılmışdı...

“30-da səhər Ərçivana şəhid gəlmişdi. Orda idim. Çox ağır idi. Günorta evə yenicə qayıtmışdım ... Xəbər gəldi... Xaləddinlə bir yerdə olub - deyir atası. Susur.

Arada səsi qırılır.

Nə deyəcəyimi bilmirəm...

Nələr desək də ana-ata ürəyi yaralı qalır...

Cəmi iki gün fərqləri vardı ailənin tək oğullarının. Xaləddin aprelin 13-də, Sadiq isə 15- də dünyaya gəlib. İkisi də 18 yaşında... İkisi də idmançı.

İstənilən savaşda itki olur. O ki qala Vətən savaşı. Düşmən əlində olan torpaq yükündən ağır heç nə yoxdu. Səni əyən, əzən yükü daşımaqdan çətin nə ola bilər ki?!

Bizi bu yükdən qurtardı Sadiqlər.

Onu böyük izdihamla qarşılayıb, izdihamla yola saldılar el-obasında ölməzliyinə.

Özü də boksçu olan dayısı Rzayev Ruhid deyir ki, uşaqlıqdan boksçu olmaq istəyirdi. Həmişə seçilib. Onunla həmişə fəxr etmişik. Əvvəl onu ailəsinə görə tanıyırdılar, indi bizi Sadiqə görə tanıyırlar.

O kiçik yaşlarından idman yarışlarında iştirak edib. Həmişə də uğur qazanıb.

Həmişə qələbə üçün döyüşüb. “Ancaq irəli” bu sözü çox sevərdi – bunu əmisi dedi.

İndi müqəddəs arzusuyla qolboyundu Sadiq.

“Vətən uğrunda” “Cəsurluğa görə” medalları ilə təltif olunub Sadiq. Sadiqin,sadiqlərin cəsurluğudu Vətən. Onun qələbə sevincli təbəssümü var Vətənin üzündə.

Hamımızın illərlə həsrət qaldığımız təbəssümün.



# RUSLAN

Aslan oğlu Əliyev

**08.04.2000 – 29.09.2020**

## ÇEMPİON OLMADI ŞƏHİD OLDU.

2000-ci ilin 8 aprelində Ərçivanda dünyamıza göz açıb Ruslan Aslan oğlu Əliyev. Ərçivandakı 4 saylı tam orta məktəbin 2018-ci il məzunudur. İkinci savaşda 8 şəhid verən qəhrəman Ərçivan qəsəbəsinin şəhididir.

Azərbaycan Ordusunda MAHHXHQ kimi xidmət edən Ruslan 29 sentyabrda vətənin ərazi bütövlüyü uğruna Tərtər-Ağdərə istiqamətində gedən qızğın döyüşlərdə ölməzliyə qovuşub, Ərçivandakı Qəzəndaş məzarlığında torpağa verilib.

Uşaqlıqdan idmanı sevib. Məktəbli ikən Astara Boks Mərkəzində Ayaz Baxşıyevin rəhbərlik etdiyi təlim məşqlərini keçib. Azərbaycan Respublikası boks yarışlarının ikiqat gümüş və bürünc medallarını alıb. Azərbaycanın milli yığma komandasının üzvü idi. Dünya çempionu olmaq arzusuyla yaşayırdı. Olimpiya oyunlarının qalibi olmaq istəyirdi.

Astara İdman və Gənclər idarəsinin keçmiş rəhbəri Ərçə Əliyev: Hədsiz bacarıqlı, istedadlıydı. Əsil idmançıydı Ruslan. İştirak etdiyi yarışlarda həmişə diqqət çəkirdi. Təmkini, iradəsi, məsuliyyəti ilə seçilirdi. Özünə qarşı da çox məsuliyyətliydi. Müddətli hərbi xidmətdən sonra yenidən davam edə bilərdi, amma orduda xidmətə üstünlük ver-

di.

Hər yaşda xəyal qurur insan. Amma 20 yaşın xəyalları bir başqadır. Dünya sənin olur. Ruslanın xəyalları əlçatan idi əslində.

Ailənin ilki Fatimə danışır: “Hamımızın arzuları var. Onun da çox arzuları vardı. 20 yaşlı gəncin arzuları tükənməzdi. Həmişə uğurları olurdu yarışlarda. Qələbəni sevirdi. Nə edəcəyini də, nə olacağını da düşünərdi. Qarabağ problemi, ermənilərin xəyanəti narahat edərdi onu. Uşaq idi. Arada soruşurdu ki, görəsən, biz torpaqlarımızı ala bilmərik? Məncə hərbi xidmət zamanı bunları düşünüb, hərbiçi olmağın önəmini daha çox anlayıb. Əsgərlikdən gələndən sonra 14 gün qaldı, sonra yenidən xidmətə qayıtdı, “hərbiçi olacam, bizə ordu lazımdı” dedi.Torpaqlarımız uğruna şəhid də olaram. Bu arzusuna çatdı qardaşım”.

20 yaşlı Ruslan Əliyev artıq hərbi gücün nə demək olduğunu bilirdi.

Müddətli hərbi xidmətdə Goranboyda, sonra Mingəçevirdə olub. Müddətdən artıq hərbi xidmətinə də Mingəçevirdə davam edib.

Aslan Əliyev: Özüm də müharibəyə getmişdim. Birinci Qarabağ savaşının iştirakçısıyam. 4 il 6 ay döyüşmüşəm. Birinci savaşda da şəhidlərimiz vardı. Hərdən söhbətləşərdik. Sual verərdi “niyə torpaqları verdiniz?”. İndiki kimi ordumuz yoxdu deyirdim. “Mən gedib ermənilərdən qisasımızı alacam”-sözü bu olardı. Arzuları çox idi. Ən böyük arzusu qisas almaq idi. Övlad itkisi ağırdı. Nə etmək olar? İdmanı sevsə də, hərbini seçdi. Getdi. Döyüşdü. Nə deyim. Vətəndi. Vətənçün şəhid oldu.

Ruslanın kiçik qardaşı Əli 11-ci sinif şagirdidir: İdmana bir yerdə getmişik. “Birinci ol” deyirdi həmişə. Bir məktəbdə oxumuşuq. Bütün günü bir yerdə olmuşuq. Yarışların çoxunda da birlikdəydik. Həmişə mükafat alırdı. Respublikamızı Türkiyədə, Gürcüstanda təmsil edib. Orda da qələbə qazanıb. Özümü tək hiss edirəm. Tez-tez zəng edirdi. Son dəfə danışanda da “hər şey yaxşıdı” dedi... Kövrəlir Əli... - Çempion olmaq istəyirdi, şəhid oldu..

Döyüş yoldaşları, məktəb dostları Ruslandan danışır, xatirələrini bölüşür.

Döyüş yoldaşı Fəqan deyir ki, çox təmkinli idi. İntizamlıydı. Müddətli xidmətdə də seçilirdi. Bacarığına, davranışına görə dəfələrlə təşəkkürlər, fəxri-fərmanlar almışdı. Sakit təbiətliydi, döyüşdəsə od parçasıydı. Düşmənin neçə canlı qüvvəsini məhv etmişdi. Silahdan bacarıqla yararlanırdı. Bir qarış irəli gedəndə, bir kəndi azad edəndə gözlərində işıq yanırdı.

Ruslanların gözlərində yanan işıqdı qaranlığımızı yarıb. Biz indi bu işığa tutunub yaşayırıq. Hər işıq zərrəciyində Ruslan var...

Şəkillərinə baxıram. Boks meydançasında döyüşən, qələbə qazananda bayrağımızı ucaldan qələbəsini görürəm.

Bir də Ruslanın gözüyaşlı anası Təranə xanıma baxıram.

Dərd var təsəlliylə ovutmaq olmur...

Təranə xanım: Mən onu əzizləmişəm ana kimi. Onun hər istəyini yerinə yetirməyə çalışmışam. Həsrətini çəkirəm. Onsuz yaşaya bilmirəm. 27-də danışdım sonuncu dəfə. Elə hey deyirdi özündən muğayat ol, hər şey yaxşı olacaq. Bilsəm mən ölsəm o dönər, ölərəm...

İstədim deyim ki, o qayıdıb. Hər yerdə Ruslan var. Qalib Ruslan. Demədim.

Biliram ki, bu yazını oxuyacaq. Yenə də qalib olan, qələbə ilə qayıdan Ruslanı görəcək.



# NİHAD

Fuad oğlu Əhmədov

**07.09.2000 – 10. 10. 2020**

## SƏRRAST ATICI NİHAD ƏHMƏDOV

Alaşa Astara rayonunun Səncərədi inzibati ərazi dairəsinə daxil olan kəndlərdən biridir. İkinci savaşda 5 şəhidi var bu kiçik kəndin.

2000-ci ildə bu kənddə dünyaya göz açan Nihad Fuad oğlu Əhmədov 2020-ci il oktyabrın 10-da şəhid olub. İndi doğma kəndində uyuyur.

"Mən Azərbaycan əsgəri olub, ermənilərin tankını vuraram!" arzusu ilə böyüyən Nihad Fuad oğlu Əhmədov arzusuna çatıb...

Mübariz İbrahimovun adı dilindən düşməyən, onun şəkillərini toplayan, Pəncəli Teymurovun qəhrəmanlıqlarını öyrənməkdən yorulmayan Nihad himnimizə, bayrağa, vətənə sevgiylə böyüyüb.

Doqquzillik təhsilini Alaşa kənd məktəbində alıb. Sonra Birinci Vətən müharibəsinin şəhidi Elman Ağayev adına Səncərədi tam orta məktəbdə tam orta təhsil alıb, çalışqan, yaxşı oxuyan şagird kimi seçilənlərdən olub Nihad.

2017-ci ildə Orta təhsilini başa vurub, Bakı Rabitə və Nəqliyyat kollecinə daxil olur. Birinci kursu uğurla bitirib, 2018-ci ildə Həqiqi hərbi xidmətə gedir. Həqiqi hərbi xidmətdən sonra hərbiçi olmağa qərar verir. Həqiqi hərbi xidmətdən qayıtdıqdan bir-neçə ay sonra müddətdən artıq xidmət üçün sənədlərini hərbi komissarlığa təqdim edir.

Atası Fuad Əhmədovun səsində qürurla dərd yarışırdı: Uşaqlıqda

"əsgər olaram, döyüşərəm, erməniləri qıraram" deyirdi tez-tez. Özünə oyuncaq silah düzəldər, silahla gəzərdi, "erməniləri öldürəcəm"- sözü yalnız bu idi. Bir başqaydı vətən sevgisi. Böyüdükcə, hadisələri öyrəndikcə "Qarabağa gedəcəm" deyirdi. Ona görə də kollecdə oxumağına baxmayaraq təhsilinə davam etmədi. İyul hadisələrindən sonra heç qayıtmağı düşünmədi. Biz bilmirdik, hərbidə olanlar yəqin müharibə olacağını bilirmiş. "Ata, torpağımızı azad etməliyik, indi hamı əsgər olmalıdı" dedi. İsrar etmədim, haqlıydı. Şəhid olmaq istəyirdi. Döyüşdən əvvəl məzuniyyətə gəlmişdi. Namaz qılırdı, tez-tez məscidə gedirdi. "Mən bayrağa bürünüb bu kəndə dönəcəm" deyib kənd axunduna.

5 ay xidmətdən sonra müharibə başlayır. Hərbi xidmət boyu məsuliyyəti, silahlara yiyələnməsi, onlardan istifadə etməsi ilə seçilir. Nihad ən sərrast qranatamyot, iri çaplı pulemyot atıcısı kimi həmlə taborunda döyüşə qatılır fəxrlə.

Hazırda Laçında hərbi xidmətdə olan Əli Şahmarov: Dost idik. Əsgər dostluğu fərqlidi məncə. Burda həm də bir-birimizə sirdaş, yoldaş, qardaş, ata oluruq elə bil. Müddətdən artıq hərbi xidmətimiz bir yerdə keçib. Bütün günü birlikdə olurduq. Çox bacarıqlıydı. Sərrast atıcıydı. Sərrast atıcıları izləyir elə bil düşmən. Gərgin döyüşdəydik, 10 metr məsafə ayırırdı bizi. Məhz Nihad olan yerə mərmi düşdü. Onun şəhid olduğunu gördüm gözlərimlə. Elə bildim mərmi başımı dağıdıb... Müharibə başlamadan yarım saat əvvəl şəkil çəkdirmişdik. Elə vüqarla dayanmışdı, elə xoşbəxt idi savaşda olacağına. Bir də oktyabrın 2-də şəkil çəkdirdik. Birlikdə son şəklimiz...Şəhidlik ona qismət oldu.

Döyüş yoldaşı Teymurun sözlərinə görə Nihad ikinci qrupda olub, ancaq birinci qrupa keçirilməsini istəyib. İlk hücuma keçənlərlə birlikdə olmağı arzulayıb."Vətən üçün şəhid olmaq müqəddəs iş idi onun üçün". - deyir Teymur.

Anası Elnarə xanımın xatirələrindən: Hərbi xidmətə hazırlaşırdı. Bilirdi ki, narahatam, həyəcan keçirirəm. Tez-tez "Azərbaycan əsgəri" mahnısını oxuyurdu. Əsgərliyi Tərtərdə keçib. Orda xidmətdə olanda sevinə-sevinə zəng elədi ki, Mübariz İbrahimovun postundayam. Döyüş başlamadan məzuniyyət vermişdilər. Əşyalarına baxmazdıq. Gedəndən sonra bir qeyd dəftərçəsi tapdı atası: "Ana şəhid olsam ağlama,

bağışla". Mənə göstərdi. Çox pis oldum, o vərəqi çırdım. Demə oğlum qanlı döyüşlərdədir. Özü hiss eləmişdi. Şəhid olmağı gözə almışdı".

Hər gün ailə üzvləri ilə əlaqə saxlayan Nihad döyüşlərin çətinliyindən anasına söz açmazdı. Subiyə nənənin əziz nəvəsi daha çox nənəylə bölüşərdi: Nənə burda qırğın gedir. Nənə heç bilmirsən, nələr edirəm. O çaqqallar elə qaçır ki... Mənimlə fəxr edəcəksən. Narahat olanda "Mən ölən oğlan deyiləm, gələndə hamısını danışacam"- deyirdi. Balam şəhid oldu. Bu yolu seçdi. Təki Vətən sağ olsun. Prezidentimiz İlham Əliyev sağ olsun. Allah Ali Baş Komandanı qorusun – deyir nənə.

Taliş kəndinin, Kəlbəcərin kəndlərinin, Suqovuşanın, Murovdağ yüksəkliklərinin azad olunmasında ilk həmlə taborunun ən sərrast atıcısı kimi igidcə döyüşüb hələ nənə nəfəsindən doymayan Nihad Əhmədov. Suqovuşan uğrunda döyüşlərdə şəhid olub.

Əhmədovlar ailəsində iki oğul böyüyüb. Ailə başçısı, Şəhid atası Fuad Əhmədov 2015-ci ildən nevroz xəstəliyindən əziyyət çəkir. Elə ciddi müalicə almaq imkanı da yoxdur. Ona görə də Nihad atasının işləməsinə razı olmurdu. Tikintisi yarım qalan evlərini də özü tikdirmək istəyirdi. "Ata, sən işləmə, artıq özüm işləyirəm, tikdirəcəm evi də" deyirmiş atasına.

İgidimizin qardaşı Birinci Qarabağ savaşının iştirakçısı Milli Qəhrəman Riyad Əhmədovun adını qürurla daşıyır. Naxçıvanda keçən hərbi xidmətdən bir-neçə aydır qayıdıb. Bu yazı yazılanda Riyad iş axtarırdı. "Yaşat" fondu, dövlət yardım etsə də ailə üzvlərinin heç biri işləmir.

Nihad indi tək Fuad Əhmədovun deyil, hamımızın oğludu. Bu ailəyə dayaq olmaq da hər kəsin borcudur.

20 yaşını müharibədən 20 gün əvvəl hərbi xidmətdə döyüş dostları ilə birlikdə qeyd edən Nihadsa həmin gün 20 yaşdan nigaran olan anasına zəng edib "Ana, narahat olma, doğum günümü burda çox gözəl qeyd edirik"- deyib.

Bu il sentyabrın 7-də 21 yaşını qeyd elədi doğma kəndi.

"Ruhun şad olsun, Qarabağ azaddır" deyəcəklər:



# XƏQANİ

Anar oğlu Babazadə

**13.02.2001 – 6.11..2020**
**(18.11.2020-ci ildə torpağa tapşırılıb)**

## ƏBƏDİ ƏSGƏR

Babazadə Xaqani Anar oğlu 2001-ci il fevralın 13-də Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub. Birinci Qarabağ müharibəsinin şəhidi Nail Həsənov adına Kiyəbə tam orta məktəbinin məzunudu. 2006 – 2017-ci illərdə orta təhsil alıb.

Xəqani yaraşığı, səmimiliyi, məsuliyyəti ilə diqqət çəkib həmişə. İncəsənətə, ədəbiyyata maraq göstərib. Mütaliəni çox sevib. Tariximizi öyrənib.

Təbrizə xanım Kijəbə tam orta məktəbinin direktorudur: Məktəb yüzlərin, minlərin evidir elə bil. Uşaqlıqdan yetkinliyə böyüyür burda şagirdlərimiz. Onların arasında seçilənlər də olur. Xəqani elə şagird idi - ən seçilənlərdən. Yaxşı oxuyub. Amma təkcə oxumağıyla seçilməyib. Bu balaca kənddə böyüyən Xəqani davranışı, məntiqi, geyimi, həyata baxışı ilə fərqlənib. Həyatı da asan keçməyib. Xalası böyüdüb. O elə şagird ikən qəhrəman idi - ruhən qəhrəman idi. İradəli, dayanıqlı, möhkəm xarakterliydi. Bu da cəbhədə özünü göstərib. Çox mərdliklə döyüşüb.

Torpaqlarımız işğal olunanda dünyaya gəlməmişdi Xəqani. Amma

bu otuz ildə yaşadığımız ağrı-acını duyub, igidlərimizin döyüş yolu ilə tanış olub. İçində qəribə duyğu yaranıb: “Kaş mən də bu torpaq üçün nəsə edə biləydim, elə yaşayaydım ki, bir vaxt mənim haqqımda da yazaydılar”. Bir məktəbli belə düşünürsə, demək vətəndaş olacaq.

Qardaşı Amal Babazadənin söylədikləri: İmkan tapan kimi kitab oxuyurdu. Dünya ədəbiyyatını da mütaliə edirdi. Həm də gözəl rəssamlığı vardı. Məktəbdə, rayonda məktəblilərin rəsm sərgilərində əl işləri dəfələrlə sərgilənib. Amma dövlət, vətən onun üçün başqa bir duyğu idi. Hərbiçi olmaq istəyirdi. Böyük qardaşım idi. Çox yaş fərqimiz olmasa da onu özümə arxa bilirdim. Yoxluğu dözüləsi deyil. Şəhid qardaşı olmaq da çətindi. Başımızı uca etdi. Gərək mən də onun adına layiq olum.

Anası Gültəkin xanım üçünsə bu daha ağırdı. Gültəkin xanım üç övladını tək böyüdüb: Maddi çətinlikdən kiçik oğlum Amalı, qızım Ləmanı götürüb Türkiyəyə işləməyə getdim. Xəqani isə xalalarımın yanında qaldı. Orta məktəbi bitirməliydi. Onları min əziyyətlə böyütmüşəm. Ataları kömək etməyib. Xalalarım dəstək olub, Xəqaniyə baxıblar. Oxumaq istəyirdi. Hərbiçi olmaq istəyirdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə imtahan verdi. Bir-neçə balı çatmadı. Qəbul ola bilmədi. Elə onda dedi ki, əsgər gedəndə hərbiçi adına layiq olduğumu sübut edəcəyəm. Çox arzulayırdı. Alınmadı. Bir müddət işlədi, mənə kömək etdi. Sonra da əsgər oldu balam. Şəhid xəbəri gələndə Türkiyədə idim. Pandemiyaya görə gələ bilmədim. Oğlumun tabutunu qarşılamadım... Gecikdim. 3 mərasiminə yetişdim. Çətindi. Təsəllim odur ki, hərbiçi kimi, əsgər kimi şəhid oldu. Hərbiçi adına layiq oldu arzuladığı kimi. Dövlətini qorudu.

İkinci Qarabağ savaşı başlayanda Azərbaycan Ordusunun əsgəri idi Xəqani Babazadə. 2018 - ci ildən həqiqi hərbi xidmət keçirdi. Həqiqi hərbi xidmət müddəti bitsə də, özünü əsil vətən əsgəri kimi hiss edən Xəqani hərbi xidmətə davam edir. Bəlkə 19 yaşlı igidimiz müharibə

olacağını hiss edib?

Həmişə tariximizi də öyrənən Xaqani Babazadə başıbəlalı vətəninin əsgəri olmaq istəyib bu azadlıq savaşında. 2020-ci il sentyabrın 27 - də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən mücadiləsində Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərin iştirakçısıdır. Cəbrayıl, Qubadlı, Xocavəndin azadlığı uğruna savaşıb.

Xəqani Babazadə noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Noyabrın 18-də doğma Kijəbə qəsəbəsində torpağa verilib.

- Bütün bölüyün sevimlisi idi. Hamı ilə ünsiyyət qurmağı bacarırdı. Vaxt tapan kimi bizə hansısa əsərdən danışırdı. Ən çətin döyüşdə də özünü təmkinli aparırdı. Ağsaqqalımız idi elə bil. Əsgərlik müddətində çox şey öyrənmişdi. Silahlardan istifadə edirdi rahatca. Seçilmişlərdən idi ki, ona şəhidlik nəsib oldu, - bunları döyüş yoldaşı Şahin Əliyev dedi.

Milli Ordumuzun əsgəri Xəqani Babazadə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



# SƏXAVƏT

Qüdrət oğlu Səttarov

**15.06.2001 – 6.11.2020**
**( 18.11.2020-ci ildə torpağa tapşırılıb)**

## BÖYÜK ƏSGƏR

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Səttarov Səxavət Qüdrət oğlu 2001-ci il iyunun 15-də Astaranın Artupa kəndində anadan olub. 2008 – 2019-cu illərdə Artupa kənd tam orta məktəbində təhsil alıb.

Sevgi dolu ailədə doğulmaq, ata-ana qayğısıyla böyümək, ataya sığınmaq, anaya naz etmək hamıya nəsib olmur. Səxavətə də nəsib olmayıb. Kiçik qardaşı Sarxanla ata-ana sevgisindən məhrum böyüyüb. Valideynləri ailəni qoruya bilməyib. Atanın laqeydliyi, ananın məsuliyyətsizliyi onları valideyn qayğısına həsrət qoyub.

Sevgisizlikdən tez böyüyür belə uşaqlar. O da tez böyüyüb. Usta yanında işləyib, dülgərlik edib. Tez bir vaxtda özü usta kimi tanınıb. İlk qazancından valideynlərini əvəz edən nənəsinə hədiyyə alıb...

Oğlanların ömrünü küskünlükdən nənəsi Nazilə xanım və bibisi Sevda qorumağa çalışıb. Nənə oğlunun soyuqqanlılığını heç özünə də bağışlaya bilmir. Nazilə xanım bütün sevgisini Səxavətə verib. “Onunla nəfəs alırdım” deyir.

Nənənin ilk nəvəsiydi Səxavət Səttarov.

Bibisi Sevda xanım yana-yana danışdı, gözlərini silə-silə danışdı: Mənim balam ata çörəyi yemədi, ana qayğısı görmədi. Amma onu göz bəbəyimiz kimi qoruduq. Canımızın canı idi. Nənəsinə çox bağlıydı. Əvvəl anam onun qayğısın çəkərdi, böyüdükcə o anamın qayğısına

qalırdı. Hərbi xidmətə onu təntənəylə yola saldım. Hər arzusunu yerinə yetirməyə çalışırdım. İstəmirdim içində qırğınlıq qalsın. Əsgər gedəndə Ağcabədiyə düşmüşdü

2019–cu ilin iyulunda Ağcabədidə 161-ci hərbi hissənin 3-cü taborunda müddətli həqiqi hərbi xidmətə başlayır Səxavət. Savaşın ilk gününə kimi Ağcabədidə xidmət edir.

Sentyabrın 27-də vətənin sadiq əsgəri kimi döyüşə qatılır. Füzuli, Hadrut, Qubadlı, Xocavəndin azad olunması uğruna gedən döyüşlərdə iştirak edir.

Uşaqlığının şirinliyini yaşamadan böyüyən Səxavətin mərdliyinə, göstərdiyi şücaətə görə döyüş yoldaşları “Böyük əsgər” deyib ona.

Sonuncu dəfə Xocavənddə olarkən danışıb. Nəvə həsrətli nənəsinə də, nigaran bibisinə də ürək – dirək verib: “Yaxşıyam, heç narahat olmayın”.

Oktyabrın 28-də Səxavətin səhhətində problemlər yaranıb. Onu hospitala göndəribər. Hospitaldan tabor yoldaşlarıyla əlaqə saxlayan, döyüşlər haqda məlumat alan Səxavət həkimlərin təkidinə baxmayaraq, 30 oktyabrda hospitaldan çıxıb döyüşə qayıdıb.

Son dəfə noyabrın 2-də Xocavənddə olarkən danışıb əzizləriylə. Noyabrın 6-da Xocəvənd uğrunda döyüşlərdə aldığı qəlpə yarasından şəhid olub.Sonra xəbər olmayıb “Böyük əsgər”dən.

Gözüm telefonda, qulağım səsdə qaldı, - deyir Sevda xanım. Bir – neçə gün də keçdi. Ağcabədiyə, sonra Füzuliyə getdik.

Axtarışları nəticə vermir. Qələbə xəbəri ölkəni silkələyəndə Sevda xanımın sevincində nigarançılıq vardı: “Bir az da rahatladım, balam tapılar deyə”.

Nəhayət noyabrın 17-də Füzuli xəstəxanasından zəng gəlir: Sizin səhidiniz burdadı...

Noyabrın 18-də doğma kəndində əbədiyyətə qovuşub Səxavət.

Səxavət Səttarov tez böyüməmişdi əslində. O elə böyük olub. Cəsarəti böyük olub. O qədər böyük olub ki, biz ona baş əyirik.

Azərbaycan Respublikasının prezidenti Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda” (15.12.2020), “Xocəvəndin azad olunmasına görə” (25.12.2020) medalları ilə təltif edilib.



# RAMEŞ

Gülverdi oğlu Zəkiyev

**27.06.2001- 15.10.2020**

## ZAMANA MEYDAN OXUYANLAR - RAMEŞ ZƏKİYEV

Cəmi 19 yaşı vardı.

Evlərində oldum. Mənə elə gəldi Rameşi görürəm. Məsumluğu görürəm.

Göz yaşı dayanmayan nənəyə baxırdım. Azadə xanım ilk nəvəsinin nazını çox çəkmişdi. Onu ovutmağa söz axtarırdım.Tapmadım...

Həqiqi hərbi xidmətdə olan 18-19 yaş üçün birdən-birə müharibəyə qatılmaq elə də asan deyil. Ancaq şagird ömrü yaşayıblar, məktəb partasından döyüşə getmək asan olmaz ki... Onların qorxu, həyəcan keçirməsi təbiidi.

Fikirlərimi bölüşdüm Ramiz Əliağa oğlu Abdullayevlə. Hal-hazırda Ağdamda hərbi xidmətdə olan mayor Ramiz Abdullayevin səsində sevgi vardı: Əlbəttə, 18-19 yaşda olur belə duyğular. Bu təbiidi. Rameş 19 yaşın böyüklüyünün, cəsurluğunun, döyüş ruhunun göstəricisi idi. O qədər mərdliklə döyüşürdü. O qədər əxlaqi keyfiyyətləri vardı ki, bir irad belə göstərmək olmazdı. Müqəddəs döyüşçü ruhuna malik idi. Ölümün gözünə baxa-baxa vətən üçün öldürməyə hazır idi. Bütün tapşırıqları yerinə yetirirdi. 120 mm-lik minaatıcıda baş tuşlayıcı idi. Heyətiylə düşmən istehkamlarını dəqiq nişan alır, dağıdırdı. 3 postu tamam dağıtdılar, düşmən kolonunu vurdular. Düşmənin basqı qrupu bizim səngərlərə girmişdi. Düşməni məhv etdilər, səngərləri təmizlədilər. Rameş çox şücaət göstərdi. 15-də növbəti atəşi yerinə yetirib

sığınacağa keçdilər. Düşmən artilleriyasından qrad mərmisi onların sığınacağına düşdü. İki nəfər şəhid oldu, 7 nəfər yaralandı. Şəhid olsa da vətən sevgisinin, döyüş ruhunun ölməzliyini yaşatdı.

Qəhrəmanım Rameş Zəkiyev 2001-ci il 27 iyunda Astaranın Şahağacı kəndində həyata göz açıb. Atası Gülverdi Zəkiyevi 10 yaşında itirən Rameş bacısı ilə ana himayəsində böyüyüb.

Birinci Qarabağ müharibəsinin qəhrəmanı Rauf Mirzəyev adına 1 nömrəli Şahağacı kənd tam orta məktəbində təhsil alıb. Kiçik yaşlarından boksla məşğul olub, bir çox yarışlarda iştirakına görə fəxri-fərmanları, medalları var. 2016 - cı ildə ölkəmizi Rusiyada təmsil edib. 9 illik təhsildən sonra kollecə daxil olub. Anası İlhamə xanım deyir ki, Bakıda oxuyurdu, oxumaq istəmədi, çətin idi. Bir sənətə sahiblənmək, işləmək istəyirdi. Maddi çətinliyimiz vardı, arada işlədi. Elə hey "ana, əsgər gedim, düşmənləri öldürüb gələcəm, özüm işləyib baxacam sənə də, bacıma da" deyirdi. Qismət olmadı. Məqamı ucadı bilirəm. Amma ümidim, dayağım idi. Yoxluğuna dözmək çətindi. Övlad itkisi ağırdı...

19 yaşa baxanda uşaqdı. Amma düşüncəsi böyükdü Rameşin. Əməlləri, hərəkətləri, cəsurluğu böyükdü.

2018 - cu ildə həqiqi hərbi xidmətinə Ağdamın Baharlı kəndində başlayır.

"Rameş mənim əsgərim olub. 3 aylıq karantindən sonra xidmət boyu birlikdəydik. Bütün heyət sevirdi onu. Çox tərbiyəli idi. Ən çətin tapşırıqları hamıdan birinci yerinə yetirirdi. Tovuz hadisələrində də biz döyüş mövqeyinə çıxdıq. Çətin günlər oldu. Bir damcı qorxu hissi görmədim onda. General Polad Həşimovun ölümü hamımızı sarsıtdı. Rameş heç özünə gələ bilmirdi. Onu xatırlayırdı. Hər gün müharibə olacağını gözləyirdi. Nümunəvi əsgərdi. Müharibənin ilk günündən əsil qəhrəmanlıq göstərirdi. Düşmən heyəti ilə dolu kamaz markalı və satko markalı (qaz-3308) maşını məhv etmişik elə ilk günlərdə onunla. Bizi vura bilmirdilər. İrəliləyirdik. Ona görə iriçaplı silahlardan atəş açırdılar. Oktyabrın 15-də səhər saatlarında vurdular. Onunla birlikdə maxe Əmirov Adəm şəhid oldu. Nə deyim. Ruhları şad olsun. Qələbə qazandıq. Var olsun Ordumuz, igid əsgərlərimiz, – bunları hal-hazırda Ağdamda xidmət edən gizir Məmmədov Cahid söylədi.

Çevik, qavramlı olduğundan onu minamyotçu təlim kurslarına qəbul edirlər. Minaatıcıdan istifadə etməyi asanlıqla öyrənir, təlimlər-

də riyazi təfəkkürü ilə seçilir, atıcılığın bütün sirlərinə yiyələnir və sentyabrın 27-də peşəkar minaatan kimi döyüşlərə qatılır. Minaatan silahdan effektiv istifadə onu idarə edən heyətin bacarığından asılıdır.

Bölüyün baş çavuşu Tahirov Rahət Söhbət oğlu: Onunla eyni taborda olmuşuq. Çox intizamlıydı. Bu əsgər üçün vacib xüsusiyyətdi. İşguzar, qocaq və mərd idi. Elə bil yorulmurdu. Mən həm də onların təminatını çatdırırdım; ərzaq, geyim, silah, nəyə ehtiyac olurdusa. Ən təhlükəli vəziyyətdə belə Rameş bu işin öhdəsindən gəlirdi. Əla minamyotçu idi. Düzü, hər əsgər ondan istifadəni öyrənə bilmir. Burda həndəsəni də bilməlisən. Başı çevik işləyirdi. Dəqiq atıcı idi. Hədəfdən yan keçmirdi. Neçə hərbi texnikanı, hərbi sursat maşınlarını vurmuşdu...

Oktyabrın 15-də Ağdamın Hacıməmmədli kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

İlhamə xanım qızıyla birlikdə qardaşının yanında yaşayır. Kiçik otaqda Rameşin xatirə güşəsi var. Rameşə aid əşyalara baxıram. Hətta sevimli fincanı da burdadı. Bir də idman yarışlarında aldığı fəxri-fərmanlar, təltiflər, medallar. “Hər yarışdan sevinclə, qürurla qayıdardı. Aldığı təltifləri səliqəylə yığardı. “Hələ elə medallar alacam ki, mənimlə fəxr edəcəksiz” deyərdi. Bunu deyirmiş - dayısı Azərin səsi gəlir. Baxışlarını izləyirəm. Aldığı son medala baxırıq: “Vətən uğrunda”

Bacısı Adilənin kövrək səsi qulaqlarımdan getmir: O mənə ata, qardaş dost idi. Bütün qızların dostu, qardaşı idi. Rameş olan yerdə bir oğlan bir qızın xətrinə dəyə bilməzdi. Sözü-söhbəti mənimləydi. Hərdən Qarabağ hadisələrindən danışardıq. Çox danışmırdı əslində, çünki özünü təhqir olunmuş hiss edirdi. Hadisələri öyrənirdi, bir də görürdün özünü söyür. “Təsəvvür edə bilmirəm, bizim qızlarımızı ermənilər əsir götürüb”-hərdən də belə deyirdi, az qalırdı ürəyi partlasın. 18 yaşını elə gözləyirdi, elə gözləyirdi. Mən əsgər gedəndə müharibə başlayacaq, torpaqları azad edəcəyik, - deyirdi. Elə bil ürəyinə dammışdı”.

Haqlısan, qızım. Belə oğullarımız var. Torpaqlarımızı azad etmək üçün böyüməyə tələsən oğullar. Onların yaşı 18, 20, 25 olmur. Onların yaşı illərin sayı ilə ölçülmür. Onların ömrü, düşüncəsi zamana sığmır. Ölümü məğlub edən, zamana meydan oxuyan oğullardı onlar.



# KƏNAN

İmran oğlu Hacıyev

**17.11.2001 – 06.10.2020**
**(10.11.2020-ci ildə torpağa tapşırılıb)**

## TORPAĞIMA VERƏRƏM CAN

Hacıyev Kənan İmran oğlu Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı 6 oktyabrda əsil qəhrəman vətən oğlu kimi komandiri baş leytenant Rauf Qurbanov və bir-neçə döyüş yoldaşı ilə birlikdə şəhid olub.

2001-ci il noyabrın 17-də Astara rayonunun Motalayataq kənd inzibati ərazi dairəsinin Anboba kəndində anadan olub. İbtidai təhsilini Anboba kənd məktəbində alıb. Birinci Qarabağ müharibəsinin şəhidi Sarvan Qurbanov adına Motalayataq kənd tam orta məktəbininin 9-cu sinfini bitirdikdən sonra Lənkərandakı 4 saylı humanitar təmayüllü liseyə imtahan verib. Onbirillik təhsilini 2019-cu ildə həmin liseydə başa vurub.

Lənkəran şəhəri Vaqif Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb- liseyin direktoru Yeganə Əsgərova: İkinci Qarabağ savaşında məzunlarımızdan 4 nəfər şəhid olub. Orxan Quluzadə, Elmar İbayev, Fariz Zülfüqarov, bir də Kənan... Biz onları unuda bilmərik. Kənan çox sakit, mədəni uşaq idi. Son siniflərdə oxudu bizim məktəb-liseydə. O qədər mehriban idi, tez zamanda sinfin liderinə çevrildi. Həm davranışı, həm oxumağı ilə seçilirdi. Bütün tədbirlərdə öndəydi. Ölümü sarsıtdı bizi. Çox heyif... Amma Vətən yolunda savaşmaq, şəhid olmaq da şərəflidir. Onun xatirə stendini hazırlamışıq. Qəhrəman məzunlarımızla fəxr edirik.

Müəllimləri, dostları, tanıyanları üçün Kənan saflığın, dürüstlüyün ifadəsiydi.

Liseyi əla qiymətlərlə bitirən Kənan Bakı Biznes və Kooperasiya kollecinə qəbul olur. 1 - ci semestri də uğurla bitirir. Sonra həqiqi hərbi xidmətə çağrılır.

"Vətənə borcum var" deyib. 2020 – ci ilin yanvarında artıq "əsgər Kənan" deyirdilər ona.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı gedən döyüşlərdə 5 oktyabrın səhərində sonuncu dəfə ailəsiylə danışıb.

Tabor komandiri Cuvarov Elçin: Füzulinin kəndlərini azad edirdik. Hücum edən tərəf adətən daha çox itki verir. Çalışırdıq itkimiz az olsun. Çox gənc olduğundan çox da önə buraxmaq istəmirdik. Amma həmişə birinci olurdu. Pulemyotçu idi. Sərrast atıcıydı. Çox qoçaq, mərd idi. 18 yaş nədir ki? Çoxu uşaq kimi baxır. Amma döyüşdə bir başqaydı. Özüm də təsəvvür etmirdim18 yaşlı əsgərlər bu qədər qoçaq olar.

Döyüş yoldaşı Nicat Hacıyevin sözlərinə görə Kənan tam fərqliydi. Çox cəld idi. Elə bilirdim ona güllə dəyməz. 8 ayın əsgəri olmasına baxmayaraq püxtələşmiş hərbiçi kimiydi. Son döyüşdə də mərdliklə döyüşürdü. Yoldaşlarını qorumaq üçün özünü sipər etmişdi...

Kənanı hücum vaxtı ikinci qrupa salıblar. O isə öndə gedən birinci qrupa keçib. Birinci olmaq istəyib həmişə olduğu kimi.

Atası İmran Hacıyev: Çox çalışqan idi oğlum. Məktəbdə də həmişə tərifləyirdilər. Hərbiçi yoldaşları da təriflədilər. Oktyabrın 5-də danışdıq. Elə "yaxşıyam" dedi. Demə çətin döyüşə gedirmiş. Bir-neçə gün zəng olmadı. Müharibədi, düşündüm bəlkə imkanı olmayıb zəng etməyə. Əslində döyüş yoldaşları biliblər, sadəcə deyə bilməyiblər bizə. 35 gün Kənandan heç bir soraq olmadı. İtkin, ya əsir düşməsini istəmirdim. – qırılır atanın təmkinli səsi. - Bu xəbərdən çox qorxurdum. Nəhayət, şəhid olduğunu öyrəndim...

10 noyabrda Qələbə xəbəriylə bərabər Kənan Hacıyevi də gətirirlər doğma kəndinə. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə. 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad

olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Həqiqi hərbi xidmətə getmədən öncə bir məktub və şeir yazıb Kənan.

Tutdum hərbiçi adını,
İçdim hərbiçi andımı.
Vətənə layiq birisi
olmaqçün tutdum bu izi.

Vətən darda olan zaman
çatdırram özümü o an.
Düşmənə verməərəm aman
Torpağıma verərəm can.

Hərbiyə getmək nəfəsim
Vətəndə çıxsın nəfəsim
Şəhid olub gəlsəm əgər
əzabı bir nəfər çəkər.

Hər arzu, hər diləyimdir,
Sınmaz olan biləyimdir.
Qürurlu olmaqdı peşəm
Ürəyimdə yox əndişəm.

Özünə, öz gücünə, qüruruna güvənib. Əmin olub Qalib olacağına. Bizə də bunu arzulayıb Kənan İmran oğlu Hacıyev.



# TARİF

Qədim oğlu Cəfərzadə

**01.01.2002 – 06.11.2020**

## ŞƏHİD OLSAM AĞLAMAYIN

Cəfərzadə Tarif Qədim oğlu 1 yanvar 2002- ci ildə indi əbədi qovuşduğu Pəlikəş kənd inzibati ərazi dairəsinə daxil olan Lomin kəndində dünyaya gəlib. İbtidai təhsilini Lomin kənd məktəbində alıb. Sonra Pəlikəş kənd tam orta məktəbində onbirillik təhsilini başa vurub.

Məktəbin direktoru Nadir Eyvazovun yaddaşında ən intizamlı, qoçaq şagird kimi qalıb: Lomində ibtidai təhsil aldıqdan sonra rəhbərlik etdiyim Pəlikeş kənd tam orta məktəbində oxuyub. 2011- ci ilin məzunudur. Həmişə deyirdi ki, Qarabağı biz alacayıq. Şəhid Eyvazov Rəşad da bizim məktəbin məzunudur. Həm də bacım oğludur. Bir sinifdə oxuyublar. İkisi də "düşmənlərdən qisasımızı alacayıq" deyərdi. Çox gənc olsalar da Qarabağ hadisələrinə biganə qala bilmirdilər. Ermənilər bizi müharibəyə sürüklədilər. Torpaqların işğal olunubsa, onun azadlığı uğruna savaşmalısan. Savaşda şəhid olmaq da var. Bizim savaş öz torpaqlarımızın azadlığı uğruna idi. Onlar həm də haqq uğruna şəhid olublar.

Kənd uşaqları kimi təmiz kənd havası udub, bulaq suyu içib, həyət-bacada valideynlərinə kömək edib Tarif Qədim oğlu.

Elə bulaq suyu kimi saf olur, təmiz olur kənd uşaqları.

Onun da üzündəki saflıq adamın iliyinə çatır.

Qədir və Mehparə xanım 5 övlad böyüdüb: Tusif, Tamerlan, Vilayə, Səliqə və ailənin sonbeşiyi Tarif. Tarif sonbeşik olduğu üçün daha çox əzizlənib. İdmanla məşğul olub. Hamı onun idmançı olacağını düşünsə də, xidmətə getməzdən valideynlərinə hərbiçi olacağını bildirib.

Atası Qədir bəy: Sonbeşik olduğundan gözümdə lap uşaq kimiydi. Bir də gördüm hərbiçi olmağa hazırlaşır, öz məqsədi var. Bir də gördüm əsgərdi, müharibəyə gedib. Tez-tez danışardıq. Gümrah, şən olardı. Bütün əsgərlərimiz eləydi məncə. Hamısı ürəkliydilər. Son dəfə oktyabrın 30-da danışa bildik. Oğlum igidliklə döyüşüb. Əsgər yoldaşları gəlmişdi. Onun cəsurluğundan o qədər danışdılar, inana bilmədim ki, söhbət mənim uşaq bildiyim Tarifdən gedir.

Ailə sonbeşiyini 2020-ci ilin yanvarında müddətli həqiqi hərbi xidmətə yola salır. 2020-ci ilin çağırışçısı idi Tarif. Müddətli həqiqi hərbi xidmətin karantin müddəti Ağcabədidə 704 saylı hərbi hissədə keçir. Sonra 161 saylı hərbi hissəyə köçürülür və ordan da müharibəyə qatılır.

Xocəvənd ərazisində gedən döyüşlərdə noyabrın 6-da şəhidlik zirvəsini fəth edib.

Şəhidimizin atası Qədim kişi ikinci qrup əlildir. Çətinliklə böyüdüb övladlarını. Oğlanları hər işdə kömək edib ataya uşaqlıqdan. Arada kövrələn ata "Nə etmək olar? Torpaqları da azad etməliydik. Oğullar da vuruşmalıydı. Çox yaxşı oğul idi. Başımı uca elədi. Müharibəyə gedəndə dedi "ata, şəhid olsam, ağlamayın. İgid oğlunuzla fəxr edin", Belə olub vəsiyyəti" deyir.

Çətin olsa da ailənin vəziyyətiylə maraqlandım. 18 yaşlı igidin atası "Mən prezidentdən çox razıyam, düzdü, oğlum şəhid oldu, amma Qarabağı aldıq. Sağ olsun belə komandan" söylədi. Dövlətindən, Heydər Əliyev fondundan, "Yaşat" fondundan razılıq etdi.

Tarif Qədim oğlu Cəfərzadə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



# SAMİR

Mətləb oğlu Səmədov

**18.01.2002 – 20.10.2020**
**(19.11.2020-ci ildə torpağa tapşırılıb)**

## "İGİD BALA" SAMİR

Samir Mətləb oğlu Səmədov 2002-ci il yanvarın 18-də Pensər kəndində anadan olub. Orta təhsilini Astara rayonu Z.Ə. Əhmədzadə adına Pensər kənd 2 saylı tam orta məktəb-liseydə alıb.

2020-ci il yanvarın 18-də 18 yaşı olan Samir yanvarın 24-də həqiqi hərbi xidmətə çağırılır. Bərdə korpusunda başlayır hərbi xidməti. Sonra Tərtərdə davam edir xidmətə.

703 saylı hərbi hissənin əsgəri kimi sentyabrın 27-də döyüşlərə qatılıb.

18 yaşlı Samirin cəsurluğu döyüş yoldaşlarında heyrət doğururdu. "İgid bala" deyirdi hamı ona. Bölüyün sevimlisi idi Samir. İkinci Qarabağ savaşı başlayanda hamı kimi Samir də həyacanlı idi. Bu həyacanda qələbəyə inam vardı. Bu inamla da gecə səhərəcən "torpaqlarımızı azad edəcəyimizə əminəm" deyib.

Bütün döyüş boyu yoldaşları onu qorumağa çalışıb. Amma qoruya bilməyiblər sonacan. Ağdərə istiqamətində olan döyüşlərdə oktyabrın 19-dan sonra Samirdən xəbər tuta bilməyiblər.

Güləş üzrə Azərbaycan və dünya çempionu, Avropa çempionatının mükafatçısı, idman ustası Şəhriyar Salmanov İkinci Qarabağ döyüşlə-

rində tanıyıb Samiri. Əslən Cəlilabaddan olan 25 yaşlı Şəhriyar savaşın könüllülərindəndir: Generalımız Polad Həşimovun ölümü hamını sarsıtdı. Silkələdi elə bil bizi. Tovuz döyüşlərinə qatılmaq istədim, aparmadılar. İki ən yaxın dostumun müharibənin ilk günlərində şəhid olması da zərbə oldu. Müharibə başlayanda Cəlilabad Hərbi Komissarlığına müraciət etdim. Sentyabrın 30-da getdik döyüşə. Könüllülər müdafiədə idi. Bizi oktyabrın 1-də postlara böldülər. Postları tanımırdıq. Kimsə müşayət etməli idi. Bu Samirin olduğu bölüyə həvalə edilmişdi. Bölük komandiri İbadov Murad əsgərlərə müraciət etdi. Samir o saat "mən gedərəm, komandir" dedi. Əslində təhlükəli idi. Minamyotlar atır, güllə yağışı ara vermirdi. 18 yaşı olmasına baxmayaraq qorxusuzdu. Orada qorxu hissi olmurdu elə bil. 18-19 yaşlı əsgərlər vardı, qəhrəman kimi döyüşürdü hamısı. Gözəlov Ziya, Baxışov Sadiq kimi cəsur uşaqlar vardı. Bölük komandiri yaralandı. Ziya onu qorumaq üçün qucaqladı, çıxarmağa çalışdı. Vurdular. Yaşca böyük olduğumdan böyük qardaş kimi baxırdılar mənə. Amma mənim üçün də onlar böyük idi. Samiri saxlamaq olmurdu. Hər yerə birinci getmək istəyirdi. Suqovuşanla Ağdərə arasındakı ərazidə 533 yüksəkliyini almalı idik. Ağır döyüşlər oldu. Çox igidliklə döyüşdü...

Belə igidliklə döyüşüb oğullarımız. Qalib olmaq üçün döyüşüblər.

- Hər oğul hərbi xidmət borcunu verməlidi. Samir də onlardan biri. Ölümü sarsıtdı məni. İtkin olmasından qorxdum. Bir aya yaxın axtardım oğlumu. Arada telefonla danışırdıq. Sonuncu dəfə oktyabrın 16-17-də qardaşıyla danışıb. 2-3 gün xəbər çıxmadı. Heç kim bir söz deyə bilmirdi. Müharibədi, düşündüm şəhid olub. Müharibə qurtarandan sonra noyabrın 11-də Bərdədə tapdım oğlumu. Xəstəxananın morqundaydı. Yoxlama analizi də oldu. Oğul təkcə ailənin deyil, həm də ölkənin oğludur. Nə etmək olar?.. Torpağı, bayrağı çox sevirdi, – bunları deyib susdu Mətləb bəy.

Samirin döyüş yoldaşları ilə birlikdə neytral zonada şəhid olduğunu öyrənir ata. Qələbə günündən sonra Noyabrın 19-da Samir doğma el-obasına qayıdır...

Samirin adına təmir elədiyi otaqda guşə yaradıb ata. Otağın tavanında başdan-başa Azərbaycan bayrağı təsvir olunub. Samirə aid əşyalar, xatirə şəkilləri ondan danışır elə bil.

Səmədovlar ailəsində 4 oğul böyüyüb: Real, Samir, Seymur və Tunar.

Ailənin böyük oğlu Real Səmədov da Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərin iştirakçısıdır. Real 44 gün ərazi bütövlüyü uğrunda düşmənlə ağır döyüşlərdən keçib. Minamyot zərbəsindən yaralanan Real hospitalda müalicə alıb.

Real Səmədov "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

"Həqiqi hərbi xidmətdə olmuşdum. Müharibə başlayanda getməyə bilməzdim. Ali Baş komandan səfərbərlik elan edəndə könüllülərin sayı-hesabı yox idi. Belə bir vaxtda dövlətini sevən hər bir kəsin borcu vətən uğrunda döyüşməkdi. Ərazilərimizin düşməndən azad edilməsində mənim də payım olduğundan özümü şanslı hesab edirəm. Qardaşım Samirlə eyni taborlarda olmasaq da onun cəsurluğu haqda çox eşitdim. Hərdən kövrəlirdim. Yaşda məndən kiçikdi. Amma qürurlanırdım. Son dəfə oktyabrın 17-də danışdım. Elə danışırdı mənə elə gəldi qardaşım böyüyüb bu müddətdə" – dedi döyüşçümüz Real Səmədov.

Elədi Real. Qardaşın – "Vətən uğrunda" medalı ilə təltif olunan 18 yaşlı Samir Səmədov böyümüşdü o günlərdə: anbaan, saatbasaat, günbəgün. Böyüyüb, böyüyüb ölkə boyda olub...



# ELNUR

Qədir oğlu Əbdülov

**23.04.2002 – 02.10.2020**

## ATA, SƏNDƏN ŞİKAYƏT EDƏRƏM

Astaranın Pəlikeş kəndinin neçə-neçə igidi Birinci və İkinci Qarabağ savaşında şəhid olub. Pəlikeş kənd inzibati ərazi dairəsində olan Ağkörpüdə böyüyüb başa çatan Elnur Qədir oğlu Əbdülov isə Pəlikeşin ən gənc şəhididir.

Ağkörpüdə yaşayan Əbdülovlar ailəsində 5 uşaq vardı: 4 qız və yeganə oğul Elnur Əbdülov.

Torpaqlarımızın işğaldan azad olunmasında payı olmasını arzulayan Elnur.

Bu yazının gözəl gözlü, nurüzlü qəhrəmanıdı Elnur.

Elnur Qədir oğlu Əbdülov 2002–ci il aprelin 23-də Ağkörpü kəndində anadan olub. Ağkörpü kənd tam orta məktəbinin məzunudur.

2020-ci il mayın 6-da müddətli hərbi xidmət keçmək üçün Gəncəyə yola düşən Elnur hərbiçi olmaq arzusuna çatmaq istəyirdi...

Qədir kişi oğlunun hərbiyə həvəsindən danışdı: Uşaqlıqdan özünə müxtəlif taxta silahlar düzəldərdi. Bir-neçəsi qalıb. 18 yaşına az qalmışdı. Ona dedim tək oğlansan, bəlkə saxladım səni, indi getməyəsən. Mənə nə dedi, bilirsiz? Yerimdə donub qaldım. Dedi: “Ata, səndən

şikayət edərəm! Mən hərbiçi olacam". Susub baxdım eləcə. Evin tək oğluydu. Amma o tək oğulun da arzusu vardı, heç nə edə bilməzdim artıq. Həm də düşünürəm, müharibənin onun xidməti dövrünə düşməsi də taleyinə yazılıbmış... Çox deyərdi ki, ermənilərlə vuruşub onları məğlub edəcəm. Sadəcə pandemiya oldu, gedib heç onu görə bilmədim, imkanım olmadı. Elə telefonla danışırdıq arada. Döyüşdüyü, şəhid olduğu yerləri görmək istəyirəm. Oktyabrın 2-də gətirdilər. Göyğöl hospitalından qəlpə yarasından öldüyü haqda arayış veriblər.

Ata hələ də oğlundan xəbər soraqlayır. Onun döyüşdüyü yerləri görmək istəyir. Elnursa çox igidliklə döyüşüb. Azərbaycanın ərazilərinin azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirdiyinə, düşmən qruplaşmalarını və texnikasını məharətlə məhv etmək bacarığına görə "Cəsur döyüşçü" və "Vətən uğrunda" medallarıyla təltif olunub.

Elnurun komandiri Müşfiq Soltanovun dedikləri: Əsgərlərimi çox qoruyurdum. Çox. Elnura qarşı da çox diqqətliydim. Bilirdim ki, ailənin tək oğludu. Çalışırdım öndə olmasın. Osa elə önə can atırdı. O qədər saf, o qədər bacarıqlı idi. 60 nəfərdən ən cəsurunu seçməli olsam, onu seçərdim. Ayın 28-29-da  Murovdağın Koroğlu yüksəkliyindən hərəkətə başladıq. "Canavar 1", "Canavar 2", "Canavar 3" postlarını aldıq. Suqovuşan yoluna çıxanda düşmənlərlə ağır döyüş oldu. Bizdən 4 dəfə çox olduğundan ordan çəkilmək əmri aldıq. Amma biz ən az itki verən taqımlardan olduq. 5 şəhid verdik. Onlardan biri də Elnur idi. O qədər doğmaydı mənə. 18 yaşında belə cəsarətli əsgər görməmişdim. Ona uşaq kimi baxırdım, osa böyüklüyün timsalı kimi qalıb ürəyimdə.

Bu döyüşlərdə qəhrəmancasına şəhid olan Elnur oktyabrın 2-də doğma kəndində dəfn olunub. Bütün Ağkörpü camaatı Elnuru sevirdi. Elnur təmkinli davranışı, mehribanlığı ilə qazanmışdı bu sevgini.

Kənd ağsaqqalı Osman əmi: Çox mehriban idi.Tək oğul idi. Bütün kənd onu əzizləyirdi. Özünə uşaqlıqda silah düzəltmişdi ağacdan. Onunla gəzərdi. "Döyüşüb, erməniləri qıracam" - deyirdi. Həmin o

ağac silahını avtomatla əvəz elədi. Bizim fəxrimiz oldu bu gənc yaşında. Bizim cavanların demək olar ki, hamısı gedib könüllü yazılmışdı. Hər biri müharibəyə getmək istəyirdi. Vətən oğlu Vətəni qorumalıdı.

Anası Yazgül nə qədər istəsə də göz yaşlarını gizləyə bilmirdi: O, mənim gözümün nuru idi. Gözlərimin nurunu itirmişəm. Bacıları onu əzizləyərdi bütün günü. Əsgərliyə getməyini gözləyirdi. Günləri sayırdı. "Nə vaxt 18 yaşım olacaq, əsgər olacam" deyə tələsirdi balam. Getdi, ərazilərimizin azad olunmasında da iştirak elədi. Elə sevinirdi: "Ana, yaxşıyam, özündən muğayat ol" deyirdi. Səsi sevincli olurdu həmişə. "Ana, biz güclüyük, qalib gələcəyik" deyib sevinirdi. Mən də onun kimi sevinirəm düşmənə qalib gəldik deyə. İstəmirəm balamın sevincinə xələl gətirim.

P.S. Atanın bir arzusu var indi: Oğlunun oxuduğu Ağkörpü məktəbinə Elnur Əbdülovun adı verilsin. Bu bütün Ağkörpü camaatının istəyi və xahişidir. Elnur Əbdülov İkinci Qarabağ savaşında Ağkörpünün yeganə şəhididir -18 yaşlı şəhidi.



# İLQAR

Elçin oğlu İbrahimov

**25.06.2002-.03.10.2020**

## QARABAĞIN AÇARINI GƏTİRƏCƏM

İbrahimov İlqar Elçin oğlu Təxtənəkəran kəndində 25 iyun 2002-ci ildə dünyaya gəlib. 2008-2019-cu illərdə Şişqaya uğrunda döyüşlərdə qəhrəmanca şəhid olan Elşən Baxşıyev adına Rinə tam orta kənd məktəbdə təhsil alıb. Yaxşı oxumaqla yanaşı bütün ictimai işlərdə fəal iştirak edib. Yaşına baxmayaraq hörmətli, hamının sevimlisi idi.

2020-ci ilin iyulunda xidmətə çağrılır. Ömrünün 19-cu ilinə yenicə qədəm qoymuşdu. Hələ çoxunun gözündə "uşaq" idi.

Məktəbin direktoru Fikrət Kəkəyev: Biz onlara uşaq deyirik. İllər sonra da məzunlarımız bizim üçün uşaq olaraq qalır. Amma bu uşaqların arasında İlqar kimi yaşından tez böyüyənlər də olur - düşüncəsinə, davranışına görə. Çox zəki idi. Boy-buxunlu, qamətli idi. O saat diqqət çəkirdi. İnanırdıq ki, fəxrimiz olacaq. Çünki adi deyildi, fərqlənirdi. Xalqımız qürurlu xalqdı. Bu qüruru İlqar kimi oğullar qoruyub. Yaxşı oxuyardı.Yurdunu, elini, obasını sevən biri idi.

Oxuduğu müddətdə olduğu kimi hərbi xidmətdə də intizamı ilə seçilib. Zəfər tariximizi yazanlardandı İlqar.

27 sentyabrda başlayan Vətən savaşının döyüşçüsü idi. Suqovuşanın, Ağdərənin azadlığında iştirak edib. Ağdarənin Tülküdərə kəndi uğrunda döyüşlərdə oktyabrın 3-də şəhid olub.

Anası Tünzalə xanım: 3-də səhər danışdı mənimlə. Ağladığımı hiss elədi. “Yaxşıyam. Sənin oğluna burda qəhrəman kimi baxırlar, sən ağlayırsan. Qəhrəman anası ağlamaz”- dedi. Balamın səsini eşitmədim ondan sonra. 3-də günortadan sonra şəhid olub. Həmin gün mənə deməyiblər, 4-də gətirildi balam. Boy-buxunluydu, yaraşıqlıydı İlqarım. Ölümü də özünə yaraşdı...

Heykələ dönürdüm bu anaların qarşısında. Donub qalırdım. Gah da əriyirdim...

Doğma el-obasında onun adını daşıyan abidə kompleksini və bulağı vətən müharibəsi qazisi tabor komandiri Əli Səttarovla birlikdə döyüş yoldaşları açdı. İlqar bulağı axır indi. İlqar, Şahnur, Fədail, Elçin, Baba adlı bulaqlar axacaq bu yurdda həmişə. Yanğımıza məlhəm olacaq. Doğma yurdun hər qarışına bərəkət gətirəcək, gül-çiçək bitirəcək.

Döyüş dostları “məhz İlqar kimi oğullara görə bu gün hamımız qürurluyuq” – dedi.

Nə desək onların elədiklərinin yanında görünmür.

Astara rayon Təhsil Şöbəsinin müdiri Rəşad müəllimin dediyi kimi İlqarlar bizi boynubükük yaşamaqdan xilas etdi.

“Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub 703 saylı hərbi hissənin əsgəri İlqar Elçin oğlu İbrahimov.

“Uşaqlıqdan hərbi geyim istəyirdi məndən, almışdım. Deyirdi gedib Qarabağın açarını gətirəcəm. Bax, ata, Mübariz də İbrahimovdu, mən də İbrahimovam. Onun kimi olmalıyam. Çox zəhmətkeş idi. Bütün işlərdə köməkçim olub. Hətta ona yararsız kimi hərbi bilet almaq istəyirdim, nə gizlədim, necə həyəcanlanıb narahat oldusa, “mən yararsız adla heç cür yaşaya bilmərəm”, - deyib utandırdı məni. “Elə-belə sözdü dedim” söyləyib sakitləşdirdim onu. İyulun 10-da çağırış oldu. Onu çağırmadılar. Tez-tez hərbi komissarlığa zəng edirdi, gedirdi, niyə məni çağırmadınız soruşurdu. Elə bil hiss eləmişdi müharibə olacaq. Hər gün gözləyirdi çağırışı, tələsirdi əsgər getməyə. Şəhidliyə tələsirdi oğlum...” – atası Elçin oğlunu belə xatırladı.

Döyüş yoldaşı tabor komantiri Əli Səttarov : Gənc idi.. Amma

gəncliyimizin vüqarının təmsilçisi oldu. Çox intizamlı, məsuliyyətli idi. Əsgərin şəhidliyini görmək də bir ayrı əzabdı. Çox gənc idi, axı... Ən çətin döyüş tapşırıqlarını yerinə yetirirdik. Üçüncü tapşırığı yerinə yetirərkən şəhid oldu. Hərbi xidmət boyu özünü vüqarlı, cəsur biri kimi göstərdi taborda.

Kəndin ağsaqqalı, İkinci Qarabağ savaşının baş giziri, döyüş maşın komandiri, 23 il vətənə xidmət edən Zülfü Ağayevin atası Ağali Ağayev kövrək, amma məğrur danışdı: Torpaq başqa bir şeydi. Torpaq sevgisi ayrıdı. Torpaq anadı deyirik, anadan ötədi. Çünki hamımıza o qucaq açır. Hamımızı o qəbul edir. Onu qorumaq hər birimizin borcudur. Mənim də oğlum bu döyüşdə şəhid oldu. Bu gün oğlumla fəxr edirəm. Adam elə torpaq üçün şəhid olar.

Nə desək onların elədiklərinin yanında çox cılız görünür. Mübariz İbrahimovla eyni soyadı daşımağı ilə fəxr edən, Pəncəli Teymurovu idealı sayan İlqar onlar kimi olmaq arzusuyla yaşayırdı.



# RƏŞAD

Babək oğlu Eyvazov

**20.07.2002-19.10.2020**

## 702 SAYLI HƏRBİ HİSSƏNİN ƏSGƏRİ

Rəşad Babək oğlu Eyvazov 20 iyul 2002-ci ildə Astaranın Pəlikəş kəndində anadan olub. 2007-2017-ci ildə kənd məktəbində təhsil alıb. Müəllimləri, yoldaşları hələ də Rəşadın "Qarabağı mən alacam" sözlərini xatırlayır.

Rəcəbov Əyyub Rəşadın ən sevimli müəllimi olub: O da mənim sevimlim idi. Unuda bilmirəm. Yaddaşımın, ürəyimin bir küncündə özünə yer edib. Hədsiz mehriban idi Rəşad. Gözlərində günəş işığı vardı elə bil. Tarix dərslərinə xüsusi maraq göstərirdi. Azərbaycan tarixini öyrənirdi. Torpaqlarımızın işğalına dair suallar verirdi. Hər dəfə də "Qarabağı mən alacam" deyirdi. Bu da təsəllimizdir. Qarabağ uğruna şəhid oldu.

Nadir müəllimin sözlərinə görə "o qədər "Qarabağı mən alacam" deyirdi, müharibə başlayanda da dostlarına zəng vuraraq "görürsüz, Qarabağı azad edirəm" deyib. Bu da alın yazısı olub yəqin..."

Ailənin sonbeşiyi olan Rəşadın bir qardaşı və iki bacısı var. Sonbeşik Rəşadın uşaqlığı asan olmayıb. Maddi durumu çətin olan ailədə böyüyüb.

5 yaşında olanda isə atasını itirir. Atanın vəfatından sonra ailənin

maddi durumu bir az da çətinləşir. Tək qalan Günəş xanım 4 övladını əziyyətlə böyüdüb. Maddi sıxıntılara görə Rəşad onbirillik təhsil ala bilməyib. 9-cu sinfi bitirən kimi Bakıya işləməyə gəlib. Daş karxanalarında, usta yanında çalışıb ailəyə kömək edib. Həmişə anasına "ana, darıxma, işləyəcəm, hər şey yaxşı olacaq"- deyərək dayaq olub.

2020-ci il iyulun 23-də həqiqi hərbi xidmətə yola düşüb. Kövrələn anasıyla ayrılanda "ana, fikir eləmə, Qarabağı almağa gedirəm" deyib Rəşad.

2020-ci il sentyabrın 27-də Ermənistan işğalında olan ərazilərimizin azadlığı, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsi başlayanda Rəşad Azərbaycan Ordusunun 702 saylı hərbi hissəsinin əgəri idi. Azərbaycanın ərazi bütövlüyü uğruna gedən döyüşlərin əsgəri Füzuli, Cəbrayıl, Xocavəndin azad olunmasında mərdlik göstərib.

19 oktyabrda Xocəvənd istiqamətində döyüş tapşırıqlarını yerinə yetirərkən raket atəşindən döyüş yoldaşları ilə birlikdə şəhid olur Rəşad.

Şəxsi igidliyi, cəsurluğu ilə fərqləndiyinə görə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" (15.02.2020), "İgidliyə görə" (18.02.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif olunub.

702 saylı hərbi hissənin qəhrəman əsgəri doğma kəndində torpağa qovuşub.

# SON SÖZ

Kitabı oxuduqca bu oğlanların doğrudanmı bizim aramızda yaşadıqlarını düşünürdüm. Heyrət, ey büt! Bizimlə eyni torpağın üstündə, eyni çayları, eyni Xəzəri olan ölkədə kimlər varmış... Nə duyğularla yaşayan, necə qorxmaz div ürəklər... Biz onları daha öncə niyə tanımadıq? Bəlkə də ölümün yaxşını pisdən ayırıb tanıtmaq kimi qutsal görəvi var. Bəlkə ölümün ən yaxşı yanı budu. Yoxsa hardan bilərdik onları?..

Onları örnək göstərmək şansı var bu dövlətin. Hamıya, hər kəsə...O nə beyindi ki, hər şeyini qoyub ölkənin bütövlüyünü qorumaq üçün ölümə aparır? Atana "məni saxlasan səndən şikayət edərəm" deyirsən...O nə nəfəsdi ki, son iç çəkimində xoşbəxtcə Şuşanı göstərib "azad olacağını bilirdim" deyib gözlərini həmişəlik yumursan. Biz bunu onlar kimi heç vaxt duymarıq...Biz sadəcə onları heyranlıqla ana bilərik...

Necə qalib gəldi bu dövlət? Bir anın içində bütün ölkə toparlandı, ordu illərin əngəllərini yara-yara irəlilədi. Necə oldu? Hər şey baş verə bilərdi, qazanmamaq da mümkün idi. Savaş sonu bilinməyən fəlakətdi. Uduza bilərsən. Səni diz də çökdürərlər. Bu kişilər necə bacardı? Kitabı oxuyanda səbəbi anlayırsan. Mənən çox hazırmışlar. Ağlıma nə gəldi, bilirsizmi? Onlar ləyaqətsizliklə Azərbaycandan alınan torpaqları geri qaytaracaqlarını başlarına qoyublar. Sadəcə məqam gözləyiblər. O məqam gələndə gözlərinə heç nə görünməyib. Onlar

içlərində Qarabağı çoxdan geri alıblar. Bir addım qalıbmış, o addımı atmadan rahatlıq yoxmuş, onu da keçən payız atdılar.

Sonra da torpağı alıb içində rahat yatdılar...

Rahat yatın, şəhidlər...Sizdən sonra gələn nəsillər Azərbaycanı son qurtum su, son dilim çörək kimi qoruyacaq. Dövlət havayıdan qurulmur. Bu ölkənin hər yerində şəhid məzarlığı var. Canlar verib doğulub bu dövlət. Onun yaşamaq haqqı, bizim yaşatmaq borcumuz var.

Böyük sayğıyla anıb təzim edirik.

Onlar Azərbaycanın şərəfini qorudular.

**Aysel Aydın Əlizadə**

# MÜNDƏRİCAT


BU NECƏ PAYIZDI ........................................................................ 3

1. **NAİL**
Rafael oğlu Orucov ................................................................ 6
2. **ŞAHNUR**
Şahin oğlu Hüseynov ........................................................... 11
3. **KAMRAN**
Qılman oğlu Fərəcov ........................................................... 15
4. **NURLAN**
Əhliman oğlu Fərəməzov ..................................................... 19
5. **ZÜLFÜ**
Ağalı oğlu Ağayev ................................................................ 22
6. **NADİR**
Ağadadaş oglu Xəlilov ......................................................... 25
7. **VÜSAL**
Üzeyir oğlu Nəhmətov ......................................................... 28
8. **BABA**
Əhməd oğlu Qasımov ........................................................... 31
9. **RAMIQ**
Təbəssüm oğlu Ağayev ........................................................ 34
10. **İLKİN**
Xanməmməd oğlu Kazımov .................................................. 37
11. **ORXAN**
Sədail oğlu Babayev ............................................................. 39
12. **RAMİN**
Muxtar oğlu Əliyev .............................................................. 41
13. **SAMİQ**
Rizvan oğlu Rəhmənov......................................................... 43
14. **PƏRVİN**
Təbriz oğlu Salmanzadə ....................................................... 45

15. **NURLAN**
Əlövsət oğlu Rəhimov ........................................................ 48
16. **TELMAN**
Təyyar oğlu Nəhmətov ........................................................ 50
17. **MƏHƏMMƏD**
Cavanşir oğlu Babazadə ........................................................ 52
18. **SADİQ**
Kamal oğlu Zeynalov ........................................................ 54
19. **ƏHƏD**
Bilal oğlu Ağayev ........................................................ 57
20. **ELKİYAR**
Abdulla oğlu Məmmədov ........................................................ 60
21. **MİRZƏHƏSƏN**
Şahin oğlu Əlizadə ........................................................ 63
22. **ƏLİ**
Bəyulla oğlu Cəfərov ........................................................ 66
23. **ƏLİ**
Malik oğlu Feyziyev ........................................................ 69
24. **RÖVŞƏN**
Qardaşxam oğlu Ramazanov ........................................................ 73
25. **ARİF**
İsmayıl oğlu Qeybiyev ........................................................ 76
26. **ŞƏHNİN**
Şahlar oğlu Novruzov ........................................................ 78
27. **RAUF**
Xəyyam oğlu Cahangirov ........................................................ 80
28. **KAMRAN**
Cəlal oğlu Seyfullazadə ........................................................ 82
29. **TƏRLAN**
Mehman oğlu Quliyev ........................................................ 85
30. **SADİQ**
Şahin oğlu Bağırzadə ........................................................ 89
31. **RUSLAN**
Aslan oğlu Əliyev ........................................................ 93

32. **NİHAD**
Fuad oğlu Əhmədov ........................................................... 96
33. **XƏQANİ**
Anar oğlu Babazadə ........................................................... 99
34. **SƏXAVƏT**
Qüdrət oğlu Səttarov ......................................................... 102
35. **RAMEŞ**
Gülverdi oğlu Zəkiyev ....................................................... 104
36. **KƏNAN**
İmran oğlu Hacıyev ........................................................... 107
37. **TARİF**
Qədim oğlu Cəfərzadə ........................................................ 110
38. **SAMİR**
Mətləb oğlu Səmədov ......................................................... 112
39. **ELNUR**
Qədir oğlu Əbdülov ........................................................... 115
40. **İLQAR**
Elçin oğlu İbrahimov ......................................................... 118
41. **RƏŞAD .**
Babək oğlu Eyvazov .......................................................... 121

SON SÖZ ........................................................................... 123

.

Çapa imzalanıb: 05.09.2021
Format 60x84 . Kağız 115 qr.Ofset çap.
Həcmi: 4.0 ş.v. tiraj 200 nüsxə. Sifariş 76

print STUDİYA

Azərbaycan, Bakı, 7 mkr. A. Kunanbayev 189.